www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 dekabr 2015-ci il Çərşənbə № 274 (6302) Qiymәti 40 qəpik

Xəbər

**Bakıda iki uşaq anası özünü asdı**

yazısı səh.14-də

Gündəm

## Həlak olan neftçilərimizin bir neçəsinin dəfn mərasimləri keçirildi



İtkin düşənlərin axtarışı davam edir; ailələrə ödəniləcək kompensasiyaların məbləği açıqlandı; "Günəşli"də yangının söndürülməsində iştirak edən FHN komandiri qəfildən dünyasını dəyişdi...

yazısı səh.3-də

## Sabiq rabitə naziri bağından gizli şəkildə hara gedir?

# DAHA İKİ QUDA TƏHLÜKƏDƏ - "ANCAQ VİLLADA GÖRÜŞÜRLƏR..."

Əli Abbasov bağından kənara ancaq istintaqa çağırılanda çıxır; Beynəlxalq Banka olan 104 milyon borcu səbəbindən bir neçə dəfə dindirilən Etibar Pirverdiyevdən indi həm də qudası barədə soruşurlar; Misir Mərdanovun qardaşı Rabitə Nazirliyindən niyə çıxarıldı?




yazısı səh.5-də

## Valyuta ehtiyatlarımız tükənir: xaricdəki pullarımızı ölkəyə gətirəkmi?

yazısı səh.7-də

## "ASAN xidmət" də körpə Yağmurun yaşaması kampaniyasına qoşuldu

yazısı səh.14-də

## Parlamentdə nazirlər sərt tənqid edildi

yazısı səh.10-da

*Məşədi Natiq:*

## "Nardaranı işıqsız qoyanlar cəzalarını çəkəcək"

yazısı səh.4-də

*Mehman Əliyev:*

## "Bunun bir adı var..."

yazısı səh.5-də

## Rusiya Ermənistana əlavə qoşun yığır

yazısı səh.11-də

## Donuz qripi Azərbaycana qayıdır? - təhlükə

yazısı səh.3-də

## Neft 30 dollara qədər ucuzlaşa bilər - ekspertlərdən kritik hədd xəbərdarlığı...

yazısı səh.12-də

## Moskvadan Bakıya xəfif Qarabağ təhdidləri

yazısı səh.11-də

## Ərəblərin Türkiyəyə deyil, Rusiyaya qucaq açmasının sirri

yazısı səh.8-də

## SSRİ-nin süqutundan 24 il keçdi

yazısı səh.10-da

# MTN-də ifşa olunan dəstə haqda yeni ilginc məlumatlar

Adam oğurluğuna görə həbs edilən Loğman Abdullayev Akif Çovdarovun tabeliyində çalışırmış...

yazısı səh.4-də




## Əli Kərimlinin müavininə cinayət işi açıldı

yazısı səh.2-də



*İqbal Ağazadə:*

## "Azərbaycanı sevməyən adamın parlamentdə oturması təəssüf doğurur"

yazısı səh.6-da



## Sərdar Cəlaloğlunun QMİ-nin ləğvi təklifinə reaksiyalar gəldi

yazısı səh.12-də





## Vahid Ələkbərov İstanbulda Mübariz Mənsimovun otelini alıb

**Rusiyanın "LUKoyl" şirkətinin sahibi, azərbaycanlı neft maqnatı Vahid Ələkbərov İstanbulda digər azərbaycanlı oliqarx, "Palmali" şirkətlər qrupunun sahibi Mübariz Mənsimovun "Edition Hotel"ini alıb. Virtualaz.org xəbər verir ki, bu haqda "Para" dərgisinə istinadən bir sıra Türkiyə KİV-ləri yazır.**

Bildirilir ki, sövdələşmə Rusiyanın Türkiyəyə qarşı sərt embarqolar tətbiq etdiyi bir vaxtda baş tutub. Prezident Vladimir Putinə yaxın olan Vahid Ələkbərovun otel üçün nə qədər ödədiyi açıqlanmır. "Palmali" şirkəti "Edition Hotel"in yerləşdiyi binanı 2003-cü ildə HSBC bankından alıb, onu otel olaraq yenidən qurub və 2010-cu ildə istifadəyə verib.

Bu günlərdə M.Mənsimov müsahibələrindən birində demişdi ki, turizm sahəsindəki bəzi aktivlərini satmağı nəzərdə tutur. "Para" dərgisi isə yazır ki, Mənsimovun Bodrum Yalıkavakdakı "Palmarina Bodrum" istirahət kompleksinin də Vahid Ələkbərova satılacağı gözlənilir. "Lukoil"un Türkiyənin energetika sektorunda bir sıra aktivləri var.

## Zahid Orucdan neftçilərlə bağlı təklif

**"Azərbaycan bir dəniz dövlətidir. Eyni zamanda neftin də çıxarılması ilə uzun yüz illərdir ki, öyünürük. Ancaq dənizçi və neftçini əks etdirən abidəmiz yoxdur".**

Bu fikri musavat.com-a açıqlamasında deputat Zahid Oruc deyib. O bildirib ki, həm neft, həm də dəniz millətimizin iqtisadi-siyasi varlığının ayrılmaz hissəsidir: "Bizim qələm adamlarımızın, yazıçılarımızın, şairlərimizin əsərlərinə də dəniz yansımayıb. Yalnız epizotik olaraq Nəbi Xəzridə, Rəsul Rzada bu cür nümunələrə az da olsa rast gəlmək mümkündür. Halbuki təbiətimizin və coğrafiyamızın digər nümunələrinə on minlərlə əsərlər, romanlar və digər poetik nümunələr yaradılıb. Bu elə eyni zamanda dənizçinin və neftçinin adının əbədiləşdirilməsi, zəhmətinə ictimai münasibətin formalaşmağında da qabarıq şəkildə özünü göstərməkdədir. Müxtəlif neft-qaz çıxarma idarələrinin bir-ikisinin həyətində qoyulan hansısa zəhmətkeş fəhlə obrazını çıxmaq şərti ilə, Bakının hər hansı bir görməli yerində dənizçinin, yaxud da neftçinin ümumiləşdirilmiş abidəsinə rast gəlinmir. Bizə onlar təkcə matəm törənlərində ziyarət etmək üçün gərək deyil. Sadəcə olaraq, heç bu sahədə igidlik göstərən, əmək rəşadəti olan və bu fəaliyyətinə görə qiymətləndirilən insanların da hansısa simvolu yoxdur. Bu çox təəssüf doğurur".

**Z.Oruc bildirib ki, insanlarımız bu faciə ilə bağlı öz ehtiramlarını ifadə etmək istəyirlər:** "Bu nisgili harada göstərsinlər? Gördüyünüz kimi, dəniz kənarında sadəcə, qərənfillərin düzülməsi aksiyasının şahidi oluruq. Halbuki Azərbaycan büdcəsinin yüzdə doxsanına yaxınını verən bu Xəzər dənizidir. Doğrudanmı obrazlaşmağa haqqı yoxdur? Xəzəri sadəcə olaraq insanlarımızın batdığı və ya öldüyü və bu fonda matəmin əbədiləşdirilməsi kimi görmürəm. Söyləyirəm ki, nefti ayrılmaz sərvətimiz saydığımız halda onu Bakının görməli yerində obrazlaşdırmamışıq ki, bu gün Azərbaycan insanı həmin məkana üz tutaraq öz ehtiramını bildirsin. Hesab edirəm ki, Azərbaycan hökuməti elə bu son hadisəni də bir siqnal kimi qəbul edərək, dənizçini və neftçini obrazlaşdırmalıdır".

❑ **Əli RAİS**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Türk hakerlər Ermənistanın rəsmi saytlarını dağıtdılar



**Daha öncə türkmənlərə qarşı hücumlara etiraz olaraq Rusiya saytlarını dağıdan türk haker qrupu "Skorsky" bu dəfə Azərbaycan əsgərini şəhid edən Ermənistanı hədəfə alıb. Avropa.info xəbər verir ki, türk hakerlər Ermənistanın BMT nümayəndəliyinin və Ermənistan təhsil nazirliyinin saytlarını dağıdıblar.**

Ermənistan təhsil nazirliyinin saytına Azərbaycan və Türkiyənin qardaşlığını göstərən bir şəkil və Türkiyə prezidenti Ərdoğanla İstanbulun fatehiSultan Mehmedin şəkilləri yerləşdirilib. Bundan başqa saytda mehtər marşının çalındığı eşidilərkən, "Türkiyə Azərbaycandır, Azərbaycan Türkiyədir" şuarı da yer alıb.

**Hadisə ilə bağlı açıqlama yayımlayan "Skorsky" Ermənistanla kiber müharibəni davam etdirəcəyini bildirib:** "Azərbaycanlı qardaşlarımız bilsin ki, onların hər zaman yanındayıq və olmağa çalışacağıq. Rusiya və Ermənistan ilə kiber müharibəmiz intensiv olaraq davam edəcək".



## Prorektorun qətlində "MTN izi" yazısına təkzib yerinə

**Qəzetimizin 7 dekabr tarixli sayında dərc olunan "Prorektorun qətlində "MTN izi" - sensasion təfərrüatlar" yazısına reaksiya var.**

Təfəkkür Universitetinin sabiq müəllimi, 2011-ci ildə həbs olunmuş və sonradan azadlığa buraxılan, hazırda Almaniyada mühacir həyatı yaşayan Riyad Əliyevin açıqlamaları əsasında hazırlanan yazıda rektor Müşfiq Atakişiyev və universitetin həmtəsisçi Rahim Hüseynov, sonuncunun övladı barədə sübuta yetirilməsi mümkün olmayan iddialar dərc olunub.

Bu yazının dərcindən sonra Rahim Hüseynov redaksiyaya telefon açaraq, yazıya və oradakı iddialara etirazını bildirib. Qəzetin redaktorluğu bu etiraz əsasında araşdırma aparıb və məlum olub ki, Təfəkkür Universitetinin prorektoru Rahim Hüseynov haqlıdır. Məqalə hazırlanarkən KİV haqqında qanunun tələbləri və qarşı tərəfin cavab haqqı hüququ pozulub, sübuta yetirilməsi mümkün olmayan, etikadan kənar iddialar dərc olunub.

Redaksiya bildirir ki, yazı dərc olunan zaman ölkənin xəbər məkanında "Günəşli" yatağında baş verən fəlakətlə bağlı ciddi ajiotaj yaşanırdı. Bu səbəbdən haqqında söz gedən yazıya rəhbərlik baxa bilməyib, növbətçi redaktor da xüsusi diqqət yetirməyib.

**Redaksiya bu yazı ilə əlaqədar cavab haqqı pozulan, barəsində əsassız iddialar dərc olunan hər kəsdən üzr istəyir.**

❑ **"Yeni Müsavat"**

## Əli Kərimlinin müavininə cinayət işi açıldı



**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı dekabrın 8-də evindən polis tərəfindən aparılıb. Bu barədə onun həyat yoldaşı, yazıçı Zümrüd Yağmur sosial şəbəkədə məlumat verib. F.Qəhrəmanlının yeri dəqiq məlum olmasa da, onun Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə aparıldığı ehtimal olunur. Çünki gələnlər onu adıçəkilən idarəyə getməyə dəvət ediblər.**

Qəzet çapa gedərkən məlum oldu ki, Fuad Qəhrəmanlıya qarşı cinayət işi qaldırılıb. Lakin işin motiv barədə məlumat yoxdur. Bu barədə AXCP sədri Əli Kərimli facebook səhifəsində məlumat paylaşıb.

"Bu gün (dünən-red.) AXCP-nin sədr müavini Fuad Qəhrəmanlı evində həbs edilərək, Respublika Prokurorluğunun Ağır Cinayətlər İdarəsinə aparılıb. Fuad bəyin hansı cinayət işi üzrə prokurorluğa aparıldığı məlum deyil. Telefonla yalnız onu deyə bildi ki, ona qarşı cinayət işi qaldırılıb. Ölkədə hüquqsuzluq o səviyyədədir ki, müxalifət partiyasının sədr müavinini, tanınmış siyasətçini sanki adam oğurlayırmışlar kimi, heç bir izahat, məlumat vermədən həbs edirlər. Fuad bəyə qarşı hansı ittihamı irəli sürürlər sürsünlər, aydındır ki, həmin ittiham saxta olacaq..."

**Göründüyü kimi, Əli Kərimlinin statusu yalnız məlumatlandırmaq xarakterli deyil. O, hər ehtimala qarşı "ittiham saxta olacaq" deyə, özünü də sığortalayır.**

❑ **Musavat.com**






## «Bakcell» öz abunəçilərinə eyni qiymətə İkiqat Mobil İnternet trafikini təklif edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Yeni ildə öz abunəçilərini xüsusi kampaniya ilə sevindirir: eyni qiymətə ikiqat həcmdə gündəlik mobil internet fürsəti.**

**Kampaniya çərçivəsində «Bakcell» şirkətinin abunəçiləri eyni qiymətə, yəni gündə 0.20 AZN ödəməklə əldə etdikləri 50MB internet trafikinə əlavə olaraq 50MB bonus almaq imkanına malik olacaqlar (50MB + 50MB). 50MB bonus gün ərzində, səhər saat 6:00-dan axşam saat 18:00-dək etibarlıdır.**

**Kampaniya davam etdiyi müddətdə 50MB Gündəlik Təkrarlanan İnternet Paketini aktivləşdirən bütün yeni abunəçilər də 50MB+50MB bonus internet trafikini əldə edə biləcəklər.**

**Gündəlik 50MB internet paketinin qiyməti dəyişməz olaraq qalacaq, lakin abunəçilər öz mobil telefonlarında musiqi yükləmək, onlayn video izləmək, şəkil yükləyib paylaşmaq və elektron məktublar göndərmək, "Facebook", "Whatsapp" və sevdikləri digər xidmətlərdən faydalanmaq üçün ikiqat həcmdə internet trafiki əldə edəcəklər.**

**"Bu yaxınlarda keçirdiyimiz "ikiqat trafik" kampaniyası olduqca uğurlu oldu. Abunəçilərimiz bizə çoxsaylı müraciətlər edərək belə kampaniyaların tez-tez keçirilməsini xahiş edirlər",- deyə «Bakcell» şirkətinin baş marketinq direktoru Mariya Toyçeva bildirib. "Abunəçilərimizin xahişlərini nəzərə alaraq və onların Yeni ildə mobil internet xidmətlərinə artan tələbatlarını təmin etmək üçün biz onlara daha çox mobil internet trafiki əldə etmək imkanını təklif etmək qərarına gəldik. Ümid edirik ki, gündəlik 100MB (50MB+50MB) internet paketi müştərilərimizin bayram əhval-ruhiyyəsini artırmağa və sevinc hisslərini öz dostları və yaxınları ilə paylaşmasına öz töhfəsini verəcəkdir", - deyə Mariya Toyçeva əlavə edib.**

**Qeyd edək ki, Yeni il münasibəti ilə «Bakcell» şirkəti bu yaxınlarda abunəçilərə limitsiz şəbəkədaxili danışıq imkanı verən başqa bir kampaniyaya da start vermişdir. Həmin kampaniya çərçivəsində «Bakcell» abunəçiləri gündəlik cəmi 0.59 AZN ödəməklə limitsiz şəbəkədaxili danışıq imkanı əldə edirlər.**

## "Qurtlar vadisi"nin rejissoru Bakıda

**Tanınmış türk rejissoru, ssenarist Osman Sınav artıq bir neçə gündür ki, Bakıdadır.**

Musavat.com-un verdiyi xəbərə görə Azərbaycanda da məşhurluq qazanan "Qurtlar vadisi" serialının rejissoru Osman Sinav paytaxt Bakıya "Türkiyə Kino Günləri"nin açılışında iştirak etmək üçün gəlib. Qeyd edək ki, 7-12 dekabrda keçirilən türk filmləri həftəsində türk rejissorunun çəkdiyi "Uzun hekayə" bədii filmi ötən gün tamaşaçılara təqdim olunub.

Filmdə 1950-ci illərdə Bolqarıstanlı Əlinin cavanlıq vaxtlarında Eyüpda yay kinoteatrı işlədənin qızı Münirə ilə qaçmasını və bir-birilərinə olan sevgi hekayəsindən bəhs edilir.

Mustafa Kutlunun eyni adlı əsasında çəkilən filmdə haqq və ədalət üçün qəsəbə-qəsəbə gəzən ailə, getdiyi hər qəsəbədə həyatın fərqli bir üzü ilə tanış olaraq bir çox şeyə müqavimət göstərmək məcburiyyətində qalan Əlinin yaşadıqları göstərilir. 1970-ci illərin sonuna qədər uzanıb gedən hekayədə, hara gedirsə getsin ümidini heç vaxt itirməyən Əlinin gözlərindəki işığı söndürə biləcək tək insanın, özünün verdiyi haqlı mübarizəyə qarşı yeganə oğlu Mustafanın üsyanlarıdır.

Osman Sınavın Bakıya səfəri çərçivəsində Dövlət Film Fondu ilə də tanış olduğu bildirilir. Məlumata görə rejissor bildirib ki, Azərbaycanla ortaq film çəkmək arzusundadır.

Rejissor dekabrın 8-də Nizami Kino Mərkəzində Mədəniyyət və Turizm Nazirliyi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə keçirdiyi "BİZİM KİNO GÜNLƏRİ - Audiovizual məkanda peşəkarlıq" layihəsinin yekun mərhələsində də iştirak edib. Tədbirdə həmçinin digər türk kinematoqrafiyaçıları o cümlədən türk rejissoru Öner Kılıç, ssenarist-yazar Kamuran Tümay Yıldız və digərləri iştirak ediblər. Türk kinematoqrafiyaçıları "Nabat" filminin nümayişinə baxıblar. Nümayişdən sonra Osman Sınav film barəsində öz fikirlərini səsləndirib. O, filmin çox şey dediyini, filmə baxarkən insanın ritmi dəyişdiyi, susdurduğunu bildirib.

Xatırladaq ki, 1990-cı ildən televiziya filmləri çəkməyə başlayan O.Sınav "Dəli ürək" adlı dizisi ilə məşhurlaşıb. Rejissor daha çox "Ekmek teknesi", "Acı hayat" və "Qurtlar vadisi" serialları ilə tanınıb. Onu da əlavə edək ki, "Qurtlar Vadisi" serialının 55 bölümü O.Sınavın quruluşunda ekranlaşdırılıb.

❑ **Xalidə GƏRAY**

## DAK mətbuat konfransı keçirəcək

**Dünya Azərbaycanlıları Konqresinin (DAK) təşəbbüsü ilə bu ilin 12 dekabr tarixində, saat 14:00-da Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı keçiriləcək.**

Bu barədə musavat.com-a DAK-dan məlumat verilib. Məlumata görə, mətbuat konfrans1945-ci ildə Seyid Cəfər Pişəvərinin başçılığı ilə yaradılmış Güney Azərbaycan Milli Hökumətinin 70 illiyinə həsr olunacaq.

Konfransda elm adamları, Güney azərbaycanlı mühacirlər və siyasətçilər iştirak edəcəklər.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

# Həlak olan neftçilərimizin bir neçəsinin dəfn mərasimi keçirildi

## İtkin düşənlərin axtarışı davam edir; ailələrə ödəniləcək kompensasiyaların məbləği açıqlandı; "Günəşli"də yanğının söndürülməsində iştirak edən FHN komandiri qəflətən dünyasını dəyişdi...

**Dekabrın 4-də Xəzər Dənizinin "Günəşli" yatağında baş vermiş faciə nəticəsində cəsədləri tapılan neftçilərin dekabrın 8-də dəfn mərasimləri keçirilib. İtkin düşən 26 neftçidən isə hələ də xəbər yoxdur. Onların axtarışı davam edir.**

**İki neftçini xilas edən, lakin öz həyatını itirən xilasedici Fuad Tağıyev dünən son mənzilə yola salınıb. Onun atası Tahir Tağıyev çətinliklə olsa da, bunları deyib:** "Sentyabrda qızı doğulub. İndi iki aylıq körpənin üzünə necə baxım? Onun 3 balasını necə ovundurum? Dənizə gedərkən vidalaşdı, elə bil heç vaxt qayıtmayacağını bilirdi".

Dünən cəsədi tapılan daha bir neftçi - Mikayıl Babayev dəfn olunub. Əməkdaşımız neftçinin yaşadığı yataqxanada olub. M.Babayevin qohumları bildiriblər ki, o, dekabrın 8-də dənizdən növbədən qayıtmalı imiş. M.Babayev on ilə yaxındır ki, neftçi işləyirmiş. 52 yaşlı neftçinin iki övladı qalıb. Kiçiyinin altı yaşı var. Neftçi Günəşli qəbiristanlığında dəfn edilib.

Dünən bölgələrdə də dəfn mərasimləri təşkil olunub. 31 yaşlı Samir Mayılov Qubanın Alpan, 47 yaşlı Ağa Mahmudov isə Xaçmazın Köhnə Xudat kənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimlərində SOCAR-ın, rayon icra strukturlarının nümayəndələri, neftçilərin yaşadığı ətraf kəndlərin sakinləri iştirak ediblər. Mərhum A.Mahmudovun 14 və 17 yaşlarında iki oğul övlad atası olub. O, 15 ildən çox imiş ki, neftçi kimi çalışırmış. Neftçi S.Mayılov isə 2004-cü ildən neftçi kimi fəaliyyət göstərib. Onun 8 və 9 yaşlarında iki övladı var.

Dünən 1965-ci il təvəllüdlü İsgəndərov Habil Tağı oğlunun da yas mərasimi keçirilib. Hadisə yerində olan reportyorumuzun verdiyi məlumata görə, yas yerində mərhumun iş yoldaşları, SOCAR-ın bəzi nümayəndələri iştirak ediblər.

***

Bu arada Mərkəzi Neftçilər Xəstəxanasında müayinə olunan neftçilərdən ikisi dekabrın 8-də evə buraxılıblar. Bu barədə xəstəxanadan məlumat veriblər. Xəbərdə deyilir ki, neftçi Ənvər Əliyev və Mais Abbasovun vəziyyəti yaxşılaşıb. Hazırda xəstəxanadakı 13 neftçinin vəziyyəti stabildir.

"Günəşli" yatağı və "Neft Daşları"nda baş vermiş bədbəxt hadisədə dünyasını dəyişən, xəsarət alan neftçilərə ödəniləcək kompensasiyaların həcmi də açıqlanıb. Əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov bildirib ki, 3 azyaşlı uşağı, yaşı 30-35 arası, əmək haqqı 600-650 manat olan dünyasını dəyişən neftçilərin ailələrinə 80 min manat həcmində kompensasiya ödəniləcək: "Təbii ki, bu rəqəm neftçinin əmək haqqından, iş stajından, ailə üzvlərinin sayından asılı olaraq 140 min manata qədər çata bilər. Bütün bunlar "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunla tənzimlənir". Nazir əlavə edib ki, xəsarət alan neftçilərə əlillik dərəcəsi təyin olunacaq.



Dövlət Neft Şirkətinin işçilərə tibbi xidmətin təşkilinə nəzarət şöbəsinin rəisi Fuad Əlizadə ANS-ə müsahibəsində həlak olanların ailə üzvlərinə, sağ qalanların isə özlərinə veriləcək təzminatların məbləğini açıqlayıb: "Maddi yardım verilməsi qaydalarına uyğun olaraq iş yeri vəfat etdikdə, işçinin ailə üzvlərinin birinə əmək haqının 20 misli qədər təzminat ödənilir. Eyni zamanda vəfat edən işçinin uşağının həddi buluğa, yəni 18 yaşına çatana qədər hər ay əmək haqqının 2,5 misli qədər təzminat ödənilir. Eləcə də vəfat edən işçinin övladı hər hansı ali məktəbdə əyani təhsil alırsa, 23 yaşa çatanadək, əmək haqqının 2,5 misli qədər təzminat ödənilir. Bundan başqa Dövlət Neft Şirkətinin işçiləri həyat sığortası ilə sığortalanıb".

**Dünən günorta saatlarında "Günəşli" yatağındakı yanğının söndürülməsində birbaşa iştirak edən Fövqəladə Hallar Nazirliyinin polkovnik-leytenantı Kruyçkov Vyaçeslav Sergeyeviçin qəflətən dünyasını dəyişməsi ilə neçə gündür yaşanan faciənin üzərinə daha biri əlavə olundu. 45 yaşlı komandirin ölümü ilə bağlı ilk olaraq FHN rəsmi məlumat yaydı.** "Təəssüflə qeyd edək ki, baş vermiş qəza ərazisinə ilk yaxınlaşan "Vixr-9" yanğınsöndürmə gəmisinin komandiri, son günlərin ağır və gərgin iş rejimi ilə ekstremal şəraitdə yanğınsöndürmə əməliyyatında qəhrəmancasına iştirak edən daxili xidmət polkovnik-leytenantı Kruyçkov Vyaçeslav Sergeyeviç dekabrın 7-də səhhətinin qəfil pisləşməsi səbəbindən Bakı şəhəri Sabunçu rayonundakı 3 saylı Şəhər xəstəxanasına yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, Vyaçeslav Kruyçkov dekabrın 8-də həmin xəstəxanada ürək çatışmamazlığından vəfat edib", - deyə məlumatda bildirildi.

İtkin düşən neftçilərin yaxınlarının mətbuat və sosial şəbəkələrdə yayılan ümid dolu açıqlamaları hər kəsi qəhərə boğur. Onlar hələ də yaxınlarının ölmədiyinə ümid edirlər. 22 yaşlı gənc neftçi Tural Babazadənin atası Fətəli Babazadə oğlunun sağ qalacağına inanır: "Oğlum ölə bilməz. O, hələ yaşamalı, ailə qurmalıdır. Biz bu arzu ilə yaşayırıq. Ölüm Turala yaraşmaz. Bir ata üçün bundan böyük dərd ola bilməz. Çarəsiz qalmışıq, bilmirik nə edək. Ümidimizi üzmürük. İnşallah oğlum da digər neftçi dostları ilə birlikdə sağ-salamat tapılacaq və evimizə gələcək. Turalın yolunu gözləyirik. O, çox yaxşı övladdır, 22 yaşı olsa da zəhmətkeş oğul olub".

53 yaşlı Canbaxış Əhmədovanın həyat yoldaşı Mətanət Əhmədova onun qayıdacağına ümid edir: "Hələ də zəng çatmır. O gündən bəri elə hey yığıram. Mən möcüzəyə inanıram! Allah möcüzə yaradacaq. Canbaxış gələcək, bilirəm. Hiss edirəm, o yaşayır. Balalarını yetim qoymaz, gələcək. Allah iki dəfə möcüzə yaradıb, onu ölümdən qoruyub. Atalar üçdən deyib. Bu dəfə də qoruyacaq. Mən buna inanıram".

İtkin düşən İman Qasımovun sosial şəbəkələrdə yayılan həyat yoldaşına yazdığı son mesajı isə hər kəs tərəfindən kədərlə paylaşılır. O, mesajlarında həyat yoldaşı ilə vidalaşıb və "Arzu, mən getdim, salamat qal" yazıb.

Dekabrın 8-də faciə ilə bağlı növbəti mətbuat konfransı keçirilib. Neftçilərin axtarışı ilə bağlı son məlumatları **SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş mühəndisi Balamirzə Ağarəhimov** verib. O bildirib ki, itkin düşən neftçilərin axtarışı davam edir: "Hazırda 26 neftçi itkindir. Onlardan 23-ü "Günəşli" yatağının, 3-ü isə "Neft daşları"nın əməkdaşlarıdır". SOCAR rəsmisi musavat.com-un suallarını cavablandırarkən bildirib ki, indiyə qədər itkin düşən neftçilərdən tapılmayan hallar da olub.

***

Dənizdə həlak olmuş neftçilərin xatirəsi yalnız ölkəmizdə deyil, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən də anılır. Baş vermiş faciə Rusiyada yaşayan həmvətənlərimizi yasa boğub. Dekabrın 7-də Moskvada yüzlərlə insan Azərbaycanın Rusiyadakı səfirliyin binasına gələrək itkin neftçilərimizi qərənfillərlə anıblar.

"Günəşli" faciəsi qardaş Türkiyədə bir dəqiqəlik sükutla yad edilib. Boluda keçirilən və millət vəkili, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Qənirə Paşayevanın da açılışında çıxış etdiyi "Azərbaycan-Türkiyə: Bir millət, iki dövlət" adlı tədbirdə itkin neftçilərimiz xatırlanıb.

Ölkəmizi yasa boğan faciənin fonunda hər kəs də bir sual yaranıb. İnsanları təhlükəli iş olan neftçi olmağa nə vadar edir?

**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı** bu suala belə aydınlıq gətirdi: "Sovet dövründə ölüm halları az olurdu. Çünki təhlükəsizlik qaydalarına əməl olunurdu. İndi yüksək əməkhaqqının xatirinə gərə bu işə gedirlər. Hazırda bu peşə gözdən salınıb. Əvvəllər şərəf, imic üçün gedilən neftçi peşəsinə indi əməkhaqqı üçün gedirlər. Onların maaşı 1500-1800 arasıdır. Ödəniş əmsalı 70%-dir. Platformalarda daha çox maaş alırlar. 600-700 arası maaş alanlar da var".

❑ Cavanşir ABBASLI

# Donuz qripi Azərbaycana qayıdır?

## Rəsmilər "mümkün deyil, hər şey nəzarət altındadır" deyir...




**İranın dövlət mediasında yayılan xəbərlərə görə, ölkənin cənub-şərqindəki iki ostanda son 3 həftədə 33 nəfər donuz qripi virusundan vəfat edib. İran səhiyyə nazirinin müavini Əli Əkbər Səyyari deyib ki, ölüm hadisələrinin 28-i Kerman, 5-i isə Sistan-Bəlucistanda baş verib.**

O xəbərdarlıq edib ki, epidemiya Tehran da daxil ölkənin başqa yerlərinə yayıla bilər. Donuz qripini, virusun H1N1 ştammı törədir. Bu ştamm ilk dəfə 2009-cu ildə Meksikada aşkar olunub və sürətlə qlobal miqyasda yayılıb. İSNA agentliyinin başqa bir xəbərində isə deyilir ki, Kerman ostanındakı xəstəxanada 600 nəfər bu virusa yoluxduqdan sonra müalicə olunub.

İranla sərhədlərin açıq olması, müalicə, ticarət məqsədilə bu ölkəyə gedən həmvətənlərimizin sayının çoxluğu isə bu xəbərdən sonra Azərbaycanda ciddi narahatçılıq doğurub. Sözügedən xəstəlik Azərbaycanda da yayıla bilərmi? Bunun qarşısının alınması üçün hansı tədbirlər görülüb?

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin mətbuatla əlaqələr departamentinin rəhbəri Yolçu Xanvəli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, insanlar arasında yayılan xəstəlikdir. Amma ölkəmizdə, eləcə də digər ölkələrdə donuzlar arasında bu xəstəliyin yayılması hallarına rast gəlinməyib: "Ölkəmizdə 7 min başa yaxın donuz peyvənd olunub, onlar daimi nəzarət altındadır. O təsərrüfatda heyvanlar nöqteyi-nəzərdən problem yoxdur. 2008-ci ildə Qəbələdə Afrika taunu qeydə alınıb. O vaxtdan donuzçuluq təsərrüfatının qapalı şəraitə keçirilməsi barədə sərəncam oldu. O vaxtdan hamısı qapalı şəraitdə fəaliyyət göstərir. Yemlərinə xüsusi nəzarət olunur. Donuz əti, donuq piyi İspaniya və Kanadadan gətirilir. Bunlar kolbasa və digər məhsulların hazırlanması zamanı istifadə olunur".

**Səhiyyə Nazirliyi mətbuat xidmətinin rəhbəri Liliya Bayramova** bizə açıqlamasında bildirdi ki, nazirlik daim epidemioloji vəziyyəti nəzarətdə saxlayır və bu günə qədər donuz qripi ilə bağlı hər hansı təhlükə qeydə alınmayıb. Nazirliyin Taun Əleyhinə Stansiyanın şöbə müdiri Rita İsmayılova isə dedi ki, onlar intensiv olaraq qabaqlayıcı tədbirlər görürlər. Laboratoriya hazır vəziyyətdədir və avadanlıqlar da qaydasındadır. Konkret İrandan gələn vətəndaşlarımızın yoxlanılmasına gəlincə, R.İsmayılova dedi ki, sərhəddə hərarətli xəstələr dərhal təsbit edilib, hospitalizasiya edilir.

Donuz qripi donuzlarda müşahidə olunan nəfəs yolu infeksiyasıdır ki, onu da doğuran qrip virusudur. Bu virus insanlarda adi qrip yaradan virusdan fərqlənir. Donuzlarda olan bu virusa donuzla yaxın kontaktda olan insanlar da yoluxa bilər, amma bu, çox az hallarda baş verir. Donuz qripinin adamdan adama keçməsi də olduqca nadir fenomen sayılır. Əvvəllər də donuz qripi epidemiyası qeydə alınıb. Bunlardan ən geniş məlum olanı, 1976-cı ildə Amerika ordusunda baş verən epidemiyadır. Hazırda dünyada yayılan virus yeni tipli virusdur və əvvəllər nə insanlarda, nə də donuzlarda qeydə alınmayıb.

Xəstəlik ilk növbədə donuz qripinə tutulan xəstə adamla yaxın ünsiyyət vaxtı, öskürək və asqırma zamanı ağız seliyi zərrəciklərinin havadan digərinin nəfəs yoluna düşməsi nəticəsində yayılır. Xəstə donuzların olduğu fermalardakı insanlar da xəstəliyə yoluxmaq təhlükəsi ilə üzləşirlər. Adı qripə qarşı effektiv olan preparatlar donuz qripini də müalicə edə bilir. Bu virusun "Zamanvir" və "Oseltamivir" preparatlarına qarşı müqaviməti hələ qeydə alınmayıb.

**Hələ ki donuz qripinə qarşı hər hansı peyvənd yoxdur. Xəstə adamlar 7 günə yaxın bir müddətdə və nə qədər ki, xəstəlik prosesi davam edir, başqalarını da yoluxdura bilər. Uşaqlarda yoluxma təhlükəsi daha uzunmüddətli ola bilər.**

❑ Sevinc TELMANQIZI

# MTN-də ifşa olunan dəstə haqda yeni ilginc məlumatlar

## Adam oğurluğuna görə həbs edilən Loğman Abdullayev Akif Çovdarovun tabeliyində çalışırmış...

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun tutduğu postdan qovulması illərlə gizlin qalan əməllərin üzərinə işıq salınıb. Hər ötən gün elə məlumatlar ortaya çıxır ki, bunlardan sabiq nazirin xəbərsiz olduğunu söyləmək çox çətindir. Bu ilin iyul ayında DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin əməliyyatı nəticəsində MTN-in adından dələduzluq edən dəstənin yaxalanması barədə məlumat yayılıb. Həmin məlumatda deyilirdi ki, Bakı sakini olan vətəndaş DİN-ə müraciət edərək bildirib ki, özlərini MTN-in əməkdaşları kimi təqdim edən şəxslər onun 3 milyon 400 min ABŞ dolları məbləğində pulunu ələ keçirib.**

Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin həyata keçirdiyi əməliyyat nəticəsində dəstənin üzvləri Loğman Abdullayev, Elnur Qasımov, Ruslan Hacıyev, Pərviz Rzayev və Fərhad Tağıyev həbs edilib. İstiqlal.az-a bu məsələ ilə bağlı ilginc məlumat daxil olub. Məlumatda deyilir ki, dəstənin üzvü Loğman Abdullayev həqiqətən də MTN əməkdaşı olub və bu dəstə adıçəkilən nazirliyin nəzarəti altında fəaliyyət göstərib. İddialara görə, Loğman Abdullayev həbs edilən MTN generalı Akif Çovdarovun tabeliyində olan şəxs olub. Dəstənin hədəfinə gələn şəxs pulu alınandan sonra Rusiyaya gedib. Bu ölkənin siyasi dairələrindəki tanışları vasitəsilə məsələni Vladimir Putinə çatdırıb. Məhz bundan sonra DİN-ə dəstəni zərərsizləşdirmək barədə göstəriş verilib. Polisin peşəkarlığı nəticəsində dəstə dərhal zərərsizləşdirilib. Eyni zamanda, məsələ bütün çılpaqlığı ilə "yuxarılar"a məruzə edilib. Həmin vaxt Akif Çovdarov Loğman Abdullayevin həbsinə mane olmağa çalışsa da, bu mümkün olmayıb.

### MTN-in həbsdə olan generalı Cinayət Məcəlləsinin 9 maddəsi ilə ittiham edilir

Bu arada MTN Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin (TİCQMBİ) sabiq rəisi, general-mayor Sübahir Qurbanova qarşı irəli sürülən ittihamlar məlum olub. "Report"un əldə etdiyi məlumatına görə, rəsmi ittihama əsasən, S.Qurbanov MTN-in TİCQMBİ-nə rəis təyin edildikdən sonra cinayətkar dəstə yaradıb. Onun rəhbərlik etdiyi dəstə vəzifəli şəxsləri, iş adamlarını, müxtəlif peşə sahiblərini adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmə ilə hədələyib, onlara qarşı zor tətbiq edib. İttihama əsasən, S.Qurbanovun rəhbərlik etdiyi dəstənin əsas fəaliyyət istiqaməti bundan ibarət olub. Bütün bunlara görə, barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilən general-mayor S.Qurbanova qarşı Cinayət Məcəlləsinin 9 maddəsi ilə cinayət işi açılıb. O, Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına



qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 182.3.1-ci (Hədə-qorxu ilə tələb etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 182.3.2-ci (Hədə-qorxu ilə tələb etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 302.2-ci (Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma, eyni əməllər gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 309.2-ci (vəzifə səlahiyyətlərini aşma, bu Məcəllənin 309.1-ci (vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddəsində nəzərdə tutulmuş əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olduqda), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), maddələri ilə ittiham olunur.

**Qeyd edək ki, noyabrın 25-də Baş Prokurorluğun yaydığı məlumatda MTN-in 21 sabiq əməkdaşının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyi bildirilib. 19 şəxs barəsində həbs qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib. MTN əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.**

❑ E.HÜSEYNOV

# "Nardaranı işıqsız qoyanlar cəzalarını çəkəcək"

## Məşədi Natiq: "Kəndin əvvəlki vəziyyətinə qayıtmasını çox istəyirik"



**Qəsəbədə əməliyyatlar davam edir; sakinlərdən inzibati həbs cəzası alanlar var; qazlaşdırma prosesi sürətlə getsə də, qəsəbəyə elektrik enerjisi hələ də verilməyib...**

**Noyabrın 26-da Nardaranda baş verən hadisələrdən iki həftəyə yaxın müddət ötməsinə baxmayaraq, hələ də qəsəbədə gərginlik davam edir. Əraziyə hüquq-mühafizə orqanları ciddi nəzarət edirlər. Hazırda Nardaranda əməliyyatlar da davam edir. Hər keçən gün neçə-neçə şəxs məsuliyyətə cəlb olunur.**

Qəsəbənin elektrik enerjisi hələ də verilməyib. Amma bununla belə Nardaranın illərdir ən böyük probleminə çevrilən qaz problemi artıq aradan qalxmağa başlayıb. Qəsəbədə qaz sayğaclarının quraşdırılması prosesi sürətlə gedir.

**"Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev** Nardarandakı qazlaşdırma prosesinin aparılması ilə bağlı "Trend"ə bunları deyib: "Orada 2 minə yaxın abonent var. İşlər məhəllə-məhəllə davam etdirilir. Həm mənzillərə texniki baxışlar keçirilir, həm təbii qazdan qeyri-qanuni istifadə hallar aşkarlanan mənzillərdə təmizləmə işləri aparılır, abonentlərlə yenidən müqavilələr imzalanır. Bu işlər yekunlaşandan sonra təbii qazın verilişi təmin ediləcək".

**Nardaran Ağsaqqallar Şurasının sədri Məşədi Natiq Kərimov** "Yeni Müsavat"a açıqlamasında qəsəbədə qaz sayğaclarının quraşdırılması prosesinin intensiv şəkildə aparıldığını bildirdi: "Qaz problemi artıq aradan qalxmaq üzrədir. İşlər sürətlə gedir. Əvvəldən bu şəkildə aparılsaydı, indi bu cür hallar ortaya çıxmazdı. Hər dəfə mətbuata dediyim fikirdə Nardarandakı işsizliyi önə çəkirəm. Yenə də bu problemi qabartmaq istəyirəm. Hazırda qəsəbədə 95-dən çox insan işsizdir. İşığı borca görə kəsiblər, hələ də bərpa etməyiblər. İşsiz olan insanlar borcu necə ödəyə bilərlər? İşığın kəsilməsinin yaxşı effekti olmayacaq. 42 milyon dedikləri borcu niyə araşdırmırlar? Nardaran Azərbaycanın tərkib hissəsidir. Nə hadisənin baş verməsindən asılı olmayaraq, insan gərək



Məşədi Natiq

yüksəkdə tutulsun. Camaatı düşünmək lazımdır. Xəstəxanaları, doğum evlərini, xəstə insanları, imkansız ailələri fikirləşmək lazımdır. Elə ailələr var ki, yanacaq almağa imkanı yoxdur. Bütün bunlar insanları aşağılamaqdan başqa bir şey deyil. Abonent olaraq mənim 1700 manat borcum var. Özüm yoxlamışam. Tutaq ki beş min olsun. Bu rəqəm 2300 abonentə vurulsun. Hansı rəqəmin ortaya çıxdığı göz qabağındadır. Bəs 42 milyon rəqəmi haradan çıxıb? Sadəcə bilirlər ki, prezident yumşaq adamdır. Əminəm ki, o da məsələlərin bu yerə gəlməsini istəmirdi. Kim hansı məlumat çatdırıbsa, gələcəyin işidir. Hər şey ortaya çıxacaq. Amma hər kəs bilməlidir ki, biz də 42 milyon borc qeyri-mümkündür. 2300 abonentin işlətdiyi ortadadır. Sayğaclar kodladır. O vaxtdan yaşadığım ünvana nə sayğac qoyublarsa, indi də elədir. Kodum var, rahat şəkildə istifadə edirdim. İmkanım olanda 20 manat ödəyirdim. İmkanım olmayanda isə ödəmirdim. Belə-belə məndə 2 min manat pul yığılıb. Söhbət budur ki, 200 min yığıla bilməz. Ödəmədiyim vaxtlarda belə, işıq da heç zaman belə problem olmamışdı. Necə ola bilər ki, bu qədər borc yazılsın? Adamın insafı olar. Zaman gələcək bununla bağlı araşdırmalar olacaq. Bax o zaman Nardaranı işıqsız qoyanlar cəzalarını çəkəcəklər. İndi kimlərinsə gözünə girmək üçün dəridən-qabıqdan çıxırlar. 2002-ci ilin hadisələrindən sonra işıq, indiki hadisədən sonra isə qaz problemi aradan qalxır. Ümid edirəm ki, qaz problemi bütünlüklə həll olunacaq. Nardaranın əvvəlki vəziyyətinə qayıtmasını çox istəyirik. Vəziyyətin dözülməz həddə çatması bizim kimi, hər kəsi də narahat etməlidir".

Məşədi Natiq Nardaranın son durumdan da söz açdı. O, hazırda qəsəbədə həbslərin davam etdiyini söylədi: "Nardaranda hazırda axtarışlar davam edir. Saxlanılanlar var. İnzibati həbs cəzası verilənlər olub. Ümid edirik ki, proseslər tezliklə yekunlaşacaq. Nə qədər davam edəcəyini deyə bilmərəm. Tutulanların dəqiq sayını bilmirəm. Təxmini hesablamama görə, ilk günlərdə tutulanlardan əlavə 50-60 nəfər saxlanılıb. Onların içərisində azad edilənlər var. Onlarla danışıqlar aparıb, sonra azad ediblər".

**Qeyd edək ki, noyabrın 26-da Nardaranda beş vermiş hadisədə iki polis və 5 dindar həyatını itirib. Hadisə ilə bağlı Müsəlman Birliyi Hərəkatının sədri Tale Bağırzadə başda olmaqla, 14 nəfər həbs edilib. Onlar barəsində Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 120-ci (Qəsdən adam öldürmə), 214-cü (Terrorçuluq), 220-ci (Kütləvi iğtişaş), 228-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr, qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 233-cü (İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə), 278-ci (Hakimiyyəti zorla ələ keçirmə), 279-cu (Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma), 281-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar), 283-cü (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması), 315-ci (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) və digər maddələri ilə cinayət işi başlanılıb.**

❑ Cavanşir ABBASLI

# Sabiq rabitə naziri bağından gizli şəkildə hara gedir?



# Daha iki quda təhlükədə - "Ancaq villada görüşürlər..."

## Əli Abbasov bağından kənara ancaq istintaqa çağırılanda çıxır; Beynəlxalq Banka olan 104 milyon borcu səbəbindən bir neçə dəfə dindirilən Etibar Pirverdiyevdən indi həm də qudası barədə soruşurlar; Misir Mərdanovun qardaşı Rabitə Nazirliyindən niyə çıxarıldı?

**Noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı ilə işdən çıxarılan rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov istintaqa cəlb olunub. Hüquq-mühafizə orqanlarına yaxın mənbəmiz deyib ki, sabiq nazir haqda "heç yerə getməmək" barədə qətimkan tədbiri seçilib. Məlumata görə, onu nazirlikdəki korrupsiya faktları və MTN-in həyata keçirdiyi gizli dinləmələrlə bağlı dindirirlər.**

Xidməti avtomobilini təhvil verən sabiq nazir istintaqa ailəsinin istifadə etdiyi şəxsi maşınla və maksimim gizlilik şəraitində gedir. Xəbərə görə, onu Şüvəlanda yerləşən bağ evində ziyarət edənlər sırasında indi yalnız bir nəfər iqtidar adamı var: "Azərenerji" ASC-nin sədri Etibar Pirverdiyev. Qeyd edək ki, bir müddət əvvəl səlahiyyətləri xeyli azaldılan E.Pirverdiyev sabiq nazirlə qudadır. Belə ki, Əli Abbasovun oğlu Eldar Abbasov ötən il Etibar Pirverdiyevin qızı ilə ailə həyatı qurub. Yeri gəlmişkən, E.Pirverdiyevin rəhbərlik etdiyi qurumun Beynəlxalq Banka olan 104 milyon borcu səbəbindən istintaqa çağırıldığı məlumdur. Amma indi belə xəbərlərdə var ki, onu həm də qudası ilə bağlı dindirirlər. Ondan qudası ilə bağlı nə soruşduqları bəlli deyil. Ə.Abbasovun 10-dək ən yaxın kadrı hazırda korrupsiya ittihamı ilə həbsdədir və demək olar ki, bütün mənimsəmə sənədlərində sabiq nazirin imzası və ya razılığı var. Ə.Abbasovun Azərbaycan Dövlət İqtisad Universitetində rəhbəri olduğu kafedra müdiri vəzifəsindən də uzaqlaşdırıldığı deyilir. Onun uzun illərdir rəhbərlik etdiyi dünya iqtisadiyyatında informasiya texnologiyaları kafedrasındakı yeri hələ ki vakant saxlanılıb, amma baş verən rüsvayçı hadisələrdən sonra onun müəllim kimi auditoriyaya girməsi mümkünsüz görünür.

Noyabrın 25-də rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini təyin edilən və eyni zamanda, nazir vəzifəsini icra edən Ramin Quluzadə isə Ə.Abbasovun yaxın kadrlarını da nazirlikdən təmizləyir. İddiaya görə, nazirlikdə korrupsiya faktlarının miqyası o qədər böyükdür ki, yeni həbslər də qaçılmazdır. Bu səbəbdən də R.Quluzadə indidən şübhəli reputasiyaları nazirlikdən uzaqlaşdırır. İşdən çıxarılanlar arasında bir məşhur soyad da var - Mərdanov. Nazirliyin həbsdə olan Aparat rəhbəri Vidadi Zeynalovun müavini İlham Mərdanovun iki gün əvvəl vəzifəsindən azad olunması barədə sərəncam imzalanıb (azpolitika).

İlham Mərdanov keçmiş təhsil naziri Misir Mərdanovun qardaşıdır. O, MTN işi çərçivəsində həbs olunan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin keçmiş aparat rəhbəri Vidadi Zeynalovun yaxın ətrafına daxil olub. Bəzi məlumatlara görə, İ.Mərdanov qanunsuzluqlara göz yumması müqabilində hər ay Vidadi Zeynalovdan 5 min manat "paket" alıb.

Onun tezliklə həbs və ya işdən kənarlaşdırılacağı barədə dəqiq informasiya verilməsə də, həbsə atılan Vidadi Zeynalovla yaxın münasibətlərdə olduğu vurğulanır. Elə buna görə də aparat rəhbərinin müavininin səksəkə içərisində son aqibətini gözlədiyi bildirilir. "Yeni Müsavat"ın məlumatına görə, V.Zeynalov əslində Əli Abbasovun deyil, Misir Mərdanovun kadrıdır. Belə ki, Əli Abbasov İqtisad Universitetinin rektoru olanda prorektor vəzifəsinə Vidadi Zeynalovu məhz o zaman təhsil naziri işləyən M.Mərdanov təyin edib. Məlumata görə, bu təyinata qədər V.Zeynalov işsiz imiş. Vidadi Zeynalov keçmişdə Misir Mərdanovun ona etdiklərini unutmayıb, Əli Abbasov nazir getdikdən sonra o da Aparat rəhbəri postuna yerləşib. Sonra isə M.Mərdanova yaxşılığının əvəzini ödəməyə çalışıb. İlham Mərdanov 2005-ci ildə nazirlin Strateji Planlaşdırma və Elmi Potensial şöbəsinin müdiri olub. 2007-ci ildə isə nazirliyin Aparat rəhbərinin müavini təyin edilib. Aparat rəhbərinin müavini olsa da, o da Əli Abbasov kimi Dillər Universitetində kafedra müdiri vəzifəsini tutub. V.Zeynalovun "sağ əli" kimi tanınan İ.Mərdanovun da istintaqa cəlb olunduğu və bir neçə dəfə Korrupsiyaya Qarşı Mübarizə İdarəsində dindirildiyi bildirilir.

Maraqlıdır ki, son aylar Misir Mərdanovun qardaşının adı dələduzluqda ittiham olunan sabiq hakim Həsən Əliyevin məhkəməsində də hallanıb. Zərərçəkənlərdən biri Əmiraslan Mustafayev məhkəmədə oğlunu dövlət ali məktəblərinin birinə köçürmək istəyib. O deyib ki, arada olan Elman adlı şəxsə 6 min manat verib. "Elman Məmmədov oğlumu hətta keçmiş təhsil naziri Misir Mərdanovun qardaşı İlham Mərdanovla da tanış etmişdi. Rabitə Nazirliyində çalışan İlham Mərdanov da köçürülməyə köməklik edəcəyinə söz veribmiş".

**Nazir əvəzi İlham Mərdanovla ərizəsi alınanlar sırasında nazirliyin Elektron İdarəçiliyin İnkişafı şöbəsinin rəisi Elnur Aslanov, İnfrastrukturun inkişafı şöbəsinin rəisi, mərhum Tofiq İsmayılovun oğlu Mirheydər İsmayılov kimi tanınmışların, həmçinin ölkədə nüfuz sahibi olan digər yüksək çinli vəzifəli şəxslərin yaxın qohumlarının adları da var. Strateq.az saytı yazır ki, Ramin Quluzadə yaxın günlərdə kimlərlə işləyəcəyi haqda qəti qərarını verəcək. Çox güman ki, nazirliyin 11 şöbəsi və birbaşa aparata tabe olan bir neçə qurumun müdirlərinin əksəriyyəti ilə yollarını ayıracaq.**

❑ **Xəbər xidməti**

# "Bunun bir adı var..."

## Mehman Əliyev "Günəşli" yatağındakı yanğında medianın və xilasedicilərin durumunu təhlil etdi

**Günəşli yatağının 10-cu dərin Dəniz Özülündə baş vermiş yanğın hadisələrində qınaq obyektlərindən biri də bu xəbəri ilk dəqiqədən cəmiyyətə ötürmədiyi üçün media oldu. "Biz niyə xəbəri yerli mediadan yox, "Röyter"dən aldıq" qınağının müəllifləri daha çox sosial şəbəkədə jurnalistləri günahlandırdılar. "Yeni Müsavat" "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevlə söhbətində həm bu situasiyada medianın tutduğu mövqedən, həm də xilasetmə əməliyyatının keyfiyyətindən danışdı. Eks xilasedici olan M.Əliyevin bu mövzuda da maraqlı fikirləri oldu.**

***- Mehman bəy, öncə mediaya yönəlik tənqidlərdən danışaq.***

- Hadisə dövlət şirkətində baş verib. Ona görə də hadisə ilə bağlı dövlət jurnalistlərə, cəmiyyətə informasiya verməlidir. Konkret dövlət orqanları, dövlətin rəsmi şəxsləri, bu qurumların mətbuat xidmətləri var. Konkret mətbuat xidməti adında ştatlar var, orda çalışdıqlarına görə maaş alan insanlar var. Onlar jurnalistləri maraqlandıran suallara cavab verməlidilər. Elə etməlidilər ki, jurnalistlər onunla cəmiyyət arasında əlaqə qura bilsin.

***- Mənzərə onu göstərir ki, bu əlaqə qurulmadı. Bu halda niyə məsuliyyət yükü daha çox jurnalistlərin üzərinə düşür?***

- Əslində bu sistem birinci mərhələdə özünü pis göstərdi. Jurnalistlərin aldığı əsas məlumatlar qeyri-rəsmi idi. Rəsmilərin isə çoxu qeyri-dəqiq idi, çaşdırıcı idi. Onlar vəziyyəti ört-basdır etmək, jurnalistlərdən gizlənmək mövqeyi tutdular.

***- Sonradan mətbuat konfransı keçirildi...***

- Amma mətbuat konfransında da çox suallara cavab verilmədi. Əsas məqsəd olanları ört-basdır etmək idi. Bu situasiyada dövlət özünü pis göstərdi. Vəzifəsindən sui-istifadə edənlər oldu. Digər tərəfdən, "İnformasiya azadlığı haqda", "KİV haqda" Qanun var. Amma məmurlar tərəfindən bu qanunların pozulmasının şahidi olduq. Cəmiyyətə və mediaya lazımi həcmdə informasiya verməunder. Bu yükü öz üzərinə SOCAR-n mətbuat xidməti də götürə bilərdi. Və ya bu situasiya ilə əlaqədar olaraq bir sıra KİV orqanlarının mətbuat xidmətləri yaradılmalıydı. Bu prosesdə MTN, Prezident Administrasiyası da, mətbuat xidmətləri də qoşulmalıydı. Koordinasiya mərkəzi, informasiya axınları, vahid informasiya mərkəzləri yaradılmalıydı. Amma tam iflas! Bunun adı belə idi.



**"Bu situasiyada qeyri-peşəkarlığı dövlət orqanları göstərdi"**

***- Bəs jurnalistlərin qeyri-peşəkar davrandıqları məqamlar olmadı?***

- Jurnalistə informasiya verilməməsi bir, ona verilən düzgün informasiyanı təhrif etməsi başqa bir şeydir. Jurnalistlərin bəzilərinin nəyisə qeyri-dəqiq yazması mümkündür. Amma bu situasiyada qeyri-peşəkarlığı dövlət orqanları göstərdi. Onlar göstərdilər ki, fövqəladə vəziyyətdə media ilə iş birliyi yarada bilmirlər. Bu, Azərbaycan mediasının ağrılı yeridir. Xüsusi planlar hazırlanmalıydı bu məsələnin həlli üçün. Bu planlar hazırlansaydı, qüvvəyə minsəydi, dövlət orqanlarının mətbuat xidmətləri media ilə normal əməkdaşlıq qursaydı, nəticə tamamən fərqli olacaqdı. Jurnalistləri günahlandırmıram. Sən əvvəl informasiyanı ver, sonra peşəkarlığı tənqid elə. İnformasiya vermədiyin halda nə haqqın var qınaq səsləndirməyə?

***- Mehman bəy, siz həm də eks xilasedicisiniz. Doğrudur, bu işlə məşğul olmayalı xeyli vaxt keçib. Amma bütün hallarda məlumatlısınız və dənizdə baş vermiş yanğında xilasedicilərin iş fəaliyyətini peşəkar təhlil edə bilərsiz. Sizcə bu sahədə vəziyyət necə idi? Onlar işlərinin öhdəsindən necə gəldilər?***

- Konkret bu situasiyada xilasedici sistemi lazımi səviyyədə qurulmamışdı. Dənizdə baş verən faciələrin səbəbi adətən orda profilaktik tədbirlərin görülməməsinə görə olur. Elə bir sistem yaratmaq olar ki, insanların pis vəziyyətə düşməsinin qarşısı alınsın. Ola bilər ki, belə hallarda tək-tük nəsə baş versin. Amma kompleks profilaktik tədbirlər görülməlidir ki, bunun qarşısı alınsın. Belə bir vəziyyət yarananda bilməlisən ki, kim necə davransın. İnsan belə vəziyyətə düşəndə hər dəfə özünü itirir, bu, təbii haldır. Amma bu cür situasiyalarla bağlı məşq edəndə davranışlar, vərdişlər də avtomatik olur: konkret filan geyimi geyinmək, hansı istiqamətə getmək, suda necə davranmaq... Fövqəladə vəziyyətində insanın psixoloji baxımdan özünü itirməsi mümkündür. Amma təlimlərdən keçibsə, avtomatik olaraq özünü normal apara bilir.

***- Haqqında danışdığımız situasiyada nəticələr nəyi göstərir? Xilasedicilər neftçiləri sudan vaxtında niyə xilas edə bilməyiblər?***

- Bu, baş verməyibsə, deməli, o sistem yox idi. Mənim işim odur ki, xilas edim. Məsələn, mən tufanlı dənizdə üzürdüm. Bilirdim ki, suda hansı istiqaməti götürməliyəm, özümü suda saxlamalıyam. Kimsə batanda onu çıxaranda hansı istiqamətdə üzməliyəm ki, hansı tərəfdən çıxaq. Bunun hamısı üçün təlim lazımdır. Profilaktika və primitiv addımlar var. Bunlar olanda avtomatik olaraq davranmaq da mümkündür. Təhlükəsizliyə cavabdeh olan şəxs olmalı idi orda. Qərarları o verməliydi. Sahillə rabitə qurulmalı, sahildə oturanlar onu idarə etməliydi. Amma nəticə onu göstərdi ki, proses idarə olunmayıb. Xaos olub. Nə qayığa miniblər, nə suya düşüblər, nə də yuxarı qalxmayıblar. Çünki yuxarıda alov vardı. Belə bir eybəcər vəziyyət yaranıb, onlar odla suyun arasında qalıblar. Sadəcə olaraq oranı kimsə idarə etməlidir. Onlar bu situasiyaya hakim deyillər. Xilasedici həmin havada kimi necə xilas edə bilərdi? Qayıq yox, vertolyot yox...

Xilasedici qayıqları isə satdılar. SOCAR öz gəmilərini "Kaspar"a verdi. Hər dəfə nəsə olanda bp-dən xahiş edirdilər ki, bizə əlavə avadanlıq verin. Axı bizdə FHN var.. Necə olur ki, BP fəhlələrini çıxara bildi, amma bunlar yox?

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

# İqbal Ağazadə rəqibindən danışdı: "Azərbaycanı sevməyən bir adamın parlamentdə oturması təəssüf doğurur"

## Ümid Partiyasının sədri: "İstərdim ki, hökumət Türkiyənin, Azərbaycanın əleyhinə olan, Qərbin və demokratik dünyanın əleyhinə olan bir adamı parlamentdə əyləşdirməyə idi"

**Bu dəfə "Yeni Müsavat"ın müxbirləri qonaq gediblər. 2015-ci il parlament seçkilərində namizəd olduğu dairənin seçki nəticələrini qəbul etməyən və bunun üçün məhkəmələrdə mübarizəsini davam etdirən Ümid sədri İqbal Ağazadə ilə söhbətimiz partiyanın qərargahında baş tutdu. Həmsöhbətimiz əvvəlcə ölkədə baş verən ictimai-siyasi hadisələrdən, sonra isə partiyanın seçki sonrası fəaliyyətindən danışdı.**

***- İqbal bəy, hazırda ölkə gündəmini tutan ən böyük hadisə, "Günəşli" yatağında baş verən yanğında neftçilərimizin faciəvi şəkildə həlak olması, itkin düşməsidir. Bu barədə çoxlu versiyalar səslənir: səhlənkarlıq, təxribat, terror və sair. Siz nə düşünürsünüz?***

- Təbii ki, bu hadisə böyük bir faciədir. Ancaq belə hadisələrdən heç kim sığortalanmayıb. Amma təbii ki, baş verən hadisədə nələrisə səhv, nələrisə düz etmək artıq peşəkarlıq məsələsidir. Buna nə dərəcədə riayət olunduğunu deyə bilmərəm. Neftçilərin ailələrinə və Azərbaycan xalqına başsağlığı verirəm. İstehsalatda qəza anlayışı var və istehsalat qəzalarından heç kim sığortalanmayıb. Allah eləsin ki, bu təxribat olmasın. Allah eləsin ki, hər kəs peşə borcunu və vəzifəsini ləyaqətlə yerinə yetirmiş olsun. Sonra kimsə içində vicdan əzabı və narahatlıq çəkməsin ki, mən filan işi daha yaxşı yerinə yetirmiş olsaydım itkilərin miqyası daha az olacaqdı.

***- Ehtimallar səslənir ki, bu Davudoğlunun Azərbaycana səfərindən qıcıqlanan Rusiyanın təxribatıdır. Hər zaman belə faciələri müvafiq dövrün hansısa siyasi hadisəsi ilə əlaqələndirirlər. Sizcə, bu iddialar əsaslı ola bilərmi?***

- Bəzən təsadüflər üst-üstə düşür. "Nabucco" danışıqları getdiyi zaman ADNA-da terror hadisəsi baş verdi. Azərbaycan prezidentinin Litvada Avropa Birliyinin iclasına səfəri ərəfəsində Bakıda yaşayış binasının yanması hadisəsi baş verdi. Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsindən sonra Əhməd Davudoğlunun Bakıya səfəri, Azərbaycanda verilən mesajlar, hər iki ölkənin regionla bağlı verdiyi mesajlar və bundan sonra həmin hadisənin baş verməsi insanların bu hadisələr arasında bağlılıq axtarmasına səbəb olur. Bu sıravi vətəndaşın və ya siyasətçinin ehtimalları üzərində irəli sürüləcək fikir deyil. İstintaq orqanları bu məsələni araşdırır, təxribat halı varsa, bu, ortaya çıxarılacaq. O da nəzərə alınmalıdır ki, Rusiyanın və ya bir başqasının regionda baş verən son hadisələrə münasibətdə marağı nədir. Təbii ki, Rusiya Türkiyə münasibətlərinin gərginləşməsi Azərbaycana yaxşı nə vəd etmir. Türkiyə ilə Azərbaycanın bağlılığı dünyada heç kimə sirr deyil. Rusiya da bilir ki, seçim anında heç vaxt heç kim Rusiyanı seçməyəcək, hər kəs Türkiyəni seçəcək. Bütün bunların fonunda Türkiyənin üzərinə getmək, Türkiyəni nələrdəsə günahlandırmaq, Türkiyənin regiondakı siyasətinə qarşı çıxmaq nəticə etibarilə Azərbaycanı seçim qarşısında qoyur. Azərbaycan seçim qarşısında qalanda da təbii ki, Rusiyanın regiondakı maraqları Azərbaycanın dövlət maraqlarına uyğun gəlmir. Belə olan halda təbii ki, Azərbaycana qarşı təzyiqlər başlaya bilər. Lakin biz bilirik ki, demokratik, sivil dünya, bu məsələdə Rusiyanın yanında deyil, Türkiyənin yanındadır. Azərbaycanın Türkiyənin yanında olması təkcə sivil dünyanın Türkiyənin yanında olması ilə bağlı deyil. Həm bir can bağlılığı, qan bağlılığı, dil bağlılığı var. Türkiyə bizim öz dövlətimizdir. Biz hər zaman belə hesab etmişik. Bu səbəbdən Azərbaycan hər zaman Türkiyənin yanında yer alacaq. Qardaşımıza gələn hər nə varsa, ey vallah! Azərbaycana da gələrsə, qardaşımıza görə bizə bu oldu deyə dərd çəkmərik. Hesab edirəm ki, Türkiyə də bizə qarşı zaman-zaman belə olub, hər zaman Azərbaycanı yanında olub. Bundan sonra da Türkiyə Azərbaycanın bu siyasətinə ortaq olacaq.

**"Mən 2003-cü ildə bir anda parlamentdən həbsxanaya aparıldım, ona görə də indi mandatım yoxdu deyə pis olmuram"**

***- Gənc deputatın Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadə haqqında dediyi sözlər və bunun ictimaiyyətdə doğurduğu rezonansı yəqin ki, izlədiniz. Belə bir şəxsin Milli Məclisdə oturması sizi sarsıtdımı?***

- Tarixin heç bir dönəmində heç bir xalqın lider dediyi, başının üstündən portretini asdığı şəxslərin ideal həyatı olmayıb, ancaq ideal işləri olub. Rəsulzadə o qədər böyük bir iş görüb ki, onun rəhbərlik etdiyi hökumət, müstəqilliyimizi elan edən Şura o qədər böyük bir iş görüb ki, indi bundan sonra həyatını eşələyib nəsə çıxartsalar da, o işin kölgəsində ona heç bir ləkə yapışmayacaq. Bu gün gördüyümüz, yaşadığımız bu cümhuriyyət, parlamentində oturduğunuz o bu dövlət, bu gün müstəqil dediyimiz Azərbaycan, hamısı o insanların zəhmətidir. Bir anlıq hesab edək ki, 28 may 1918-ci il baş verməyib, Azərbaycan Rusiyanın quberniyası kimi qalıb... Rusiyanın ərazisi Azərbaycandan dəfələrlə böyük olan nə qədər belə quberniyası var bilirsinizmi? Azərbaycan onlardan sadəcə biri olacaqdı. İttiham edirlər ki, Rəsulzadə İrəvanı verdi. O zaman bütün dünya təhdidlə dolu idi. Müstəqilliyin tanınması məsələsi həm də ona görə önəmli idi ki, biz SSRİ yaranan-da 15 respublikadan biri kimi daxil olduq, yoxsa bir əyalət kimi daxil olacaqdıq. Onda biz Azərbaycan hesab olunmayacaqdıq, təkcə Güney Azərbaycan hesab olunacaqdı. Necə ki, bu gün Dərbənd Dağıstanın kiçik bir şəhəri hesab olunur. 100 minlik Dərbənd şəhəri milyon yarımlıq Dağıstanın içərisində necə kiçik bir şəhərdirsə, 130 milyonluq Rusiyanın tərkibində 7-8 milyonluq Azərbaycan da həmin çəkiyə malik olacaqdı. Rəsulzadə və silahdaşları hər şey etdilər ki, Azərbaycanın adı bir cümhuriyyət kimi tarixə yazılsın. Hər şeylərindən keçdilər , ən sonda rahat yaşayışlarından, azadlıqlarından keçdilər. Rəsulzadə ilə yanaşı olan insanların həyatına baxsaq, çoxları qaranlıq dalanlarda güllələndi, neçəsi mühacir həyatı yaşadı. Ölkə tərk etmək, yaşayış yerini tərk etmək, oraya bir daha gedə bilməmək nə deməkdir, mən bir məcburi köçkün olaraq bunu yaxşı bilirəm. Rəsulzadə Azərbaycanın hər şeyidir. Ta ölümünə qədər bir bayrağı əmanət kimi saxlayan insan haqqında bu ifadəni işlətmək o anlama gəlir ki, bu gün içində olduğun hökuməti ilk satanlardan biri sən olacaqsan. Ən dəhşətlisi budur ki, bu yaşlı nəslin nümayəndəsi deyil, SSRİ-dən miras qalan adamlardan biri deyil. Bu yeni nəsil dediyimiz nəslin nümayəndəsidir. Heydər Əliyevi özünün lideri hesab edir, qəbul edirəm, etsin. Ancaq Heydər Əliyev hansı bayrağa, hansı cümhuriyyətin varisliyinə söykənir, Rəsulzadə haqqında nə qədər fərmanlar verib. Bunun üçün zərrə qədər savad lazımdır. Yarınmaq bu qədər də olmur. Onu yazan jurnalist Xalidə xanıma irad tuturlar ki, stol arxasında olan bir söhbəti niyə yazıb. Stol arxasında millət üçün, xalq üçün, milli dəyərlər üçün olan bir şey təhqir olunursa, həmin adamı stolun başına ümumiyyətlə buraxmaq lazım deyil. Onun bütün əməlləri cəmiyyətə çatdırılmalıdır ki, cəmiyyət onun kim olduğunu bilsin. Jurnalist bu məsələdə haqlıdır.

**"Heç kim özünü Nostradamus hesab etməsin ki, mən proseslərin belə olacağını əvvəlcədən bilirdim, biz də hər şeyi bilirdik"**

***- İqbal bəy, qayıdaq parlament seçkiləri və Ümid Partiyası mövzusuna. Milli Məclisin hazırkı tərkibini necə qiymətləndirirsiniz. Sizsiz Milli Məclis necə görünür?***

- *(gülür)* Mənsiz Milli Məclisin necə görünməsi ilə bağlı seçicilər, jurnalistlər və ya Milli Məclisin fəaliyyətini izləyən ekspertlər mövqe ifadə etsə daha yaxşı olar. Təbii ki, Milli Məclisdə olduğum 15 il ərzində vicdanla çalışmışam. 3 dəfə deputat seçilmişəm, ikinci, üçüncü, dördüncü çağırışda. Hər zaman çalışmışam ki, ədalətin, haqqın yanında olum. Elə bir problem olmayıb ki, mən orada haqqın yanında olmayım, seçicinin, vətəndaşın yanında olmayım. Elə bir vaxt olmayıb ki, məndən xoşu gələn-gəlməyən hansısa siyasi dustağın, ictimai fəalın yanında olmayım. Həmişə onların yanında olmuşam, həmişə mövqeyimi səmimi ifadə etmişəm. Milli Məclisin hazırkı tərkibi haqqında da heç nə deyə bilmərəm. Mənim dediyim bir az fərqli alınar ki, özüm yoxam deyə bu şəkildə təqdim edirəm. Milli Məclisdə onsuz da müxalif fikir, fərqli fikir az idi. Bundan əvvəlki dönəmdə də müxalif səs, fərqli səs çox az eşidilirdi. Bundan sonra daha da az eşidiləcək, bəzi məqamlarda heç eşidilməyəcək. Biz isə Ümid partiyası olaraq keçmişə yox, gələcəyə baxırıq. Bizim üçün parlament seçkiləri geridə qaldı. Bacardığımızı etdik. Seçiciyə verdiyimiz mesaja seçicidən cavab aldıq. Seçici bu mesajlara cavab olaraq seçkiyə gəldi, səs verdi. Lakin Azərbaycan siyasətində ümumiyyətlə analoqu olmayan bir hadisə baş verdi. Əlimdə demək olar ki, əksər protokollar var. 33 məntəqənin 3-ü hərbi hissədir, 30 mülki məntəqədən 26-nın protokolu əlimdədir. 26 məntəqədə böyük səs çoxluğu ilə qalib gəlmişəm. O protokollar mənə möhürlü, imzalı şəkildə təqdim edilib. Amma səsləri bu protokollara nəzərən hesablamadılar. Yeni bir rəqəmlər yazdılar. Haradan yazdılar, niyə yazdılar, bunu Allahın və vicdanlarının ixtiyarına buraxıram. Məhkəmə çəkişmələrimizi demək olar ki, bitirdik. Partiya onunla bağlı qərar verəcək. Biz artıq sənədlərimizi Avropa Məhkəməsinə hazırlayırıq, bununla bağlı mövqelərimiz dəqiqləşir. Çünki, artıq yerli məhkəmə instansiyalarını keçmişik. Amma onun üzərində köklənib qalmamışıq. 1 noyabrda deyilik, indi dekabrı yaşayırıq və irəliyə baxırıq. Biz siyasətdə mövqeyimizi, xəttimizi, yolumuzu olduğumuz yerə görə, müəyyənləşdirməmişik, düşüncəmizə görə müəyyənləşdirmişik. Düşüncəmizə görə də, bu proses davam edir.

***- Bu sualıma istərdim səmimi cavab verəsiniz. Seçkilərin nəticələri açıqlananda nə hisslər keçirdiniz? 15 illik mandatı itirmək necə bir hiss idi?***

- Bilirsiniz, əgər o Milli Məclisin yolu mənim üçün rahat olmuş olsaydı, indi bəlkə də psixoloji olaraq çox ağrı-acı yaşayardım. Amma heç unutmayın ki, 2003-cü ilin hadisələrində bir anın içərisində mandatımdan məhrum oldum, toxunulmazlığım qeyri-qanuni aradan götürüldü və mən parlamentdən həbsxanaya getdim. Mən 371 gün təkadamlıq kamerada qaldım. (gülür) Bütün bunların hamısından sonra bu gün mandat yoxdur deyib özümü pis hiss etməyim düzgün deyil. Siyasətçi üçün eniş, yoxuş, hər hansı yerdə olmaq, olmamaq, bunlar hamısı gözlənilən bir şey idi. Mən yenə də deyirəm ki, mən bunun acısını çəkən siyasətçilərdən deyiləm.

***- Milli Məclisdə olmadan özünüzü necə hiss edirsiniz? Seçkilərdən sonra həyatınızda nə dəyişdi?***

- Bizim üçün perspektiv qarşıdadır. Azərbaycan demokratlaşana qədər biz prosesin içində olacağıq və mövqeyimizi ifadə edəcəyik. Mesajlarımızın seçiciyə, aktiv insanlara çatdırmaq üçün bütün qanuni yollardan istifadə edəcəyik. Bundan sonrakı bütün seçkilərdə iştirak edəcəyik. Bəzən seçkilərdə iştirak etməmək, boykot kimi qərarlar səslənir. Hər birimizin nizamnaməsində çox aydın yazılıb ki, zorakılığı, fərqli üsullarla hakimiyyətə gəlmə mexanizmini, güc müstəvisində mübarizəni inkar edirik. Və Azərbaycanda dəyişikliyin demokratik yolla həyata keçirilməsini arzulayırıq. Əgər güc müstəvisindən imtina edirsənsə, mütləq seçkilərdə iştirak etməlisən. Hakimiyyətin demokratik seçki keçirəcəyinə inanmırıq deyib geri çəkilsək belə, hakimiyyət onsuz da seçki keçirilməsi ilə bağlı bizim istədiyimiz dəyişiklərə və islahatlara getməyəcək. Biz o zaman niyə geri çəkilməliyik. Biz əksinə çalışmalıyıq ki, çətin olan dövrdə belə fərqli fikrin insanlar arasında ölməməsini, insanların bu prosesin ardınca getmək imkanlarını artıraq. Heç kim özünü Nostradamus hesab etməsin ki, mən proseslərin belə olacağını əvvəlcədən bilirdim. Kim hesab edir ki, o bilirdi, biz bilmirdik. Yox biz də hər şeyi bilirik. Bildiyimiz üçün də bu mübarizənin içindəyik ki, alternativ yol olmasın, proses güc müstəvisinə çıxmasın deyə. Fərqli fikir cəmiyyətdə ölməsin, insanlar onu eşitsin. Fərqli fikir eşidildikcə özünə yer tapır, eşidildikcə özünə tərəfdar toplayır. Təkcə sosial şəbəkədə fikir demək lazım deyil, onu seçicinin yanında da demək lazımdır. Biz yenə də prosesi və yolumuzu davam etdiririk. Mandatımız olsaydı partiyanın daha çox üstünlükləri ola bilərdi. Olmasa biz bu şəraitdə də demoktatikləşmə üçün mübarizəmizi aparacağıq.



**"Milli Məclisdə onsuz da müxalif fikir, fərqli fikir az eşidilirdi, bundan sonra daha az eşidiləcək, bəlkə də heç eşidilməyəcək"**

**"Rəsulzadə Azərbaycanın hər şeyidir. Ta ölümünə qədər bir bayrağı əmanət kimi saxlayan insan haqqında bu ifadəni işlətmək o anlama gəlir ki, bu gün içində olduğun hökuməti ilk satanlardan biri sən olacaqsan"**

❑ Nərgiz LİFTİYEVA
Foto: Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

**Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan valyuta ehtiyatların azalması ciddi narahatlıq doğurur. Rəsmi məlumata görə, Mərkəzi Bankın valyuta ehtiyatlarının miqdarı 29.11.2010-cu il tarixli səviyyəyə düşüb ki, bu da 5 illik minimumun yenilənməsi anlamına gəlir.**

# Valyuta ehtiyatlarımız tükənir: xaricdəki pullarımızı ölkəyə gətirəkmi?

Ekspertlərə görə, Mərkəzi Bank hər ay manatın kursunu sabit saxlamaq üçün 1-1,5 milyard manat civarında vəsait xərcləyir və bu da ehtiyatların sürətlə azalmasının əsas səbəbidir. Digər mühüm səbəb isə sözsüz ki, neftin dünya bazarında dəyərdən düşməsi, qiymətinin kritik həddədək ucuzlaşmasıdır.

Azərbaycandakı durum hətta ölkə xaricində də diqqət mərkəzindədir. Bu günlərdə Amerikanın ən nüfuzlu banklarından biri "Bank of Amerika Merrill Lynch" Azərbaycan Mərkəzi Bankını manatın kursunu süni şəkildə stabil saxlamaq siyasətindən imtina etməyə çağırmışdı. Bəs, vəziyyətdən çıxış yolu nədir? Azərbaycan xaricdəki valyuta ehtiyatlarını - neft pullarını ölkəyə gətirib ayrı-ayrı sahələrə yatırmaqla, yaxud dövriyyəyə buraxmaqla kritik vəziyyətdən çıxa bilərmi?

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Əli Məsimli** "Yeni Müsavat"a bu barədə danışarkən xatırlatdı ki, Mərkəzi Bankın valyuta ehtiyatlarının müəyyən qalxıb-enmələrlə azalması prosesi ötən ilin ikinci yarısından başlayaraq müşahidə edilir: "Əvvəllər buna bir o qədər də diqqət yetirilmirdi. Amma manatın 21 fevral devalvasiyasından sonra bu prosesin sürətlənməsi ona gətirib çıxarıb ki, Mərkəzi Bankın valyuta ehiyatlarındakı kiçik bir dəyişiklik belə çox həssas məsələyə çevrilib. Mərkəzi Bankın valyuta ehtiyatlarının azalmasına neftin qiymətinin aşağı düşməsi, dolların möhkəmlənməsi, daha çox ticarət etdiyimiz ölkələrin milli valyutalarındakı dəyişiklərin manata təzyiqi, kapital axını, psixoloji amillər, süni ajiotajlar, xüsusən də dollar ajiotajı və sair bu kimi amillər daha çox təsir göstərir. Hazırda həmin amillər içərisində Mərkəzi Bankın valyuta ehtiyatlarının azalmasına, müəyyən qalxıb-enmələrlə olsa da, daha çox dünya bazarlarında dolların bahalaşması təsir edir. İndiki şəraitdə Mərkəzi Bankın valyuta ehtiyatlarının azalması və ya azalma prosesinin zəifləməsi və nisbi sabitlik mərhələsinə keçməsi xeyli dərəcədə ABŞ-ın Mərkəz Bankı funksiyasını yerinə yetirən Federal Ehtiyat Sisteminin bu ayın ortalarında çıxarması gözlənilən qərardan asılı olacaq. Amma bir sıra amillər: neftin qiymətinin aşağı düşməkdə davam etməsi, ABŞ-da inflyasiyanın hədəflənən səviyyəsi, yoxsa deflyasiya ehtimalı, Çin iqtisadiyyatında gedən son proseslər və sair Federal Ehtiyat Sisteminin bu ayın ortalarında hansı qərarı çıxaracağını əvvəlcədən dəqiq deməyə mane olur".

**Bununla belə, Ə.Məsimli hesab edir ki, əgər uçot dərəcəsi qaldırılarsa, dünya bazarlarında yenə də dolların bahalaşması baş verəcək və dollara tələbat artacaq:** "Bu isə bir sıra milli valyutaların, o cümlədən Azərbaycan manatının nisbi sabitliyini qoruyub saxlamaqdan ötrü əlavə valyuta intervensiyası həyata keçirməyə ehtiyac yaradacaq. Bu zaman valyuta ehtiyatlarının xərclənməsinin konkret dərəcəsi Mərkəzi Bankın və digər strukturların ölkə daxilində və dünya iqtisadiyyatında gedən proseslərin məntiqinə uyğun manevr imkanlarının reallaşma dərəcəsindən asılı olacaq".



**Əli Məsimli:** "Qeyri-adi hal baş verməsə, hazırkı ehtiyatların özü də manatın nisbi sabitliyini təmin etmək üçün yetərlidir"



**Vüqar Bayramov:** "Valyuta ehtiyatlarının kəskin azalmaması üçün Mərkəzi Bank məzənnə siyasətinə dəyişikliklər etməlidir"



**Fazil Mustafa:** "Monopoliyanın zəifləldilməsi istiqamətində addımlar atılmalıdır ki..."

Xaricdəki ehtiyatlarımıza gəldikdə, deputat qeyd etdi ki, bu sahədə tərəflərin riayət etməli olduğu prosedur qaydaları var: "Ona görə də istənilən vaxtda həmin məsələ ilə bağlı addım atılarsa, elə bir ciddi problem yaranmaz".

**Perspektiv barədə danışarkən Ə.Məsimli bildirdi ki, son vaxtlar Mərkəzi Bank manatın kursunu sabit saxlamaq üçün öz ehtiyatlarının az qala yarısını xərcləyib:** "Amma qeyri-adi bir hal baş verməsə, hazırkı ehtiyatların özü də manatın nisbi sabitliyini təmin etmək üçün yetərlidir. Bu məsələdə zaman amilinin uzunluğu çox ciddi və həlledici rol oynayır. Çünki neftin qiymətinin düşmə tendensiyasını davam etdirdiyi bir vaxtda bu siyasətin uzun müddət davamlı olaraq tətbiq edilməsi təbii ki, mümkünsüzdü. Ona görə də görünür Azərbaycan da müəyyən hazırlıq işlərindən sonra sərbəst üzən məzənnə siyasətini tətbiq etməli olacaq".

**İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri Vüqar Bayramov**un fikrincə, valyuta ehtiyatlarının azalmasına əsas səbəb Azərbaycanda həyata keçirilən mövcud məzənnə siyasəti nəticəsində Mərkəzi Bankın intervensiyasının davam etməsidir: "Bizdən fərqli olaraq qonşu ölkələrdə artıq üzən məzənnə siyasəti həyata keçirilir. Region ölkələrində Mərkəzi Bank birbaşa məzənnəni müəyyənləşdirmir, sadəcə, bir sıra hallarda bazara müdaxilə edir. Azərbaycanda isə məzənnə birbaşa Mərkəzi Bank tərəfindən müəyyənləşdirilir. Buna görə də o artıq dollara olan tələbin ödənilməsi üçün daimi olaraq bazara intervensiya edir. Məsələn, bazarda gün ərzində 1 milyon dollara tələbat var və alınır. Onun 800 mini bazar tərəfindən təmin olunursa, qalan 200 minini Mərkəzi Bank özü ödəyir. Mərkəzi Bank müdaxilə edərək 200 min dolları bazara çıxarır. Bu da onun intervensiya xərclərinin artmasına və valyuta ehtiyatlarının həcminin aşağı düşməsinə gətirib çıxarır". V.Bayramovun sözlərinə görə, Mərkəzi Bank daimi olaraq bazara müdaxilə etməklə valyuta ehtiyatlarını istifadə edir: "Xüsusilə nəzərə alsaq ki, dekabrın 3-dək son bir ayda dünya bazarında dolların məzənnəsinin möhkəmlənməsi müşahidə edildi, bu eyni zamanda manatın da dollara nisbətən müqayisəli zəifləməsinə səbəb oldu. Nəticə etibarilə bu da Mərkəzi Bankın xərclərini artırdı".

**Ekspert deyir ki, xarici valyutaya tələbatın hələ də yüksək olması xarici valyuta ehtiyatlarımızın azalmasına təsir göstərir:** "Biz qonşu ölkələrə baxsaq, həmin ölkələrdə xarici valyutaya tələbin azalması həm də əhalidə vəsaitin azalması ilə bağlıdır. Azərbaycanda dollarlaşma prosesi son mərhələsinə qədəm qoysa da, onun tamamlandığını söyləmək çox tezdir. Bu baxımdan nəinki biznesin, həmçinin ev təsərrüfatlarının da xarici valyutalara tələbi yüksəlməkdə davam etməkdədir".

**V.Bayramov bildirdi ki, xaricdə saxlanılan ehtiyatların Azərbaycana gətirilməsi gündəmdə deyil:** "Bu ehtiyatların bir qismindən daha çox Azərbaycanın beynəlxalq iqtisadi layihələrdə iştirak payının maliyyələşdirilməsi üçün istifadə ediləcəyi gözlənilir. Bununla belə, artıq 2014-cü ildən hökumət qənaət siyasətini həyata keçirməyə çalışır. Neftin dünya bazar qiymətini proqnozlaşdırmaq çətin olduğu üçün rezervlərə qənaət prioritet hədəflərdən biri kimi görünür. Bu baxımdan, xarici rezervlərin ölkəmizə gətirilməsi iqtisadi baxımdan da səmərəli olmaz. Əksinə, dövlət aşağı faizli və uzun müddətli xarici kreditlər cəlb etməyə çalışmalıdır. Başqa tərəfdən, valyuta ehtiyatlarının kəskin azalmaması üçün Mərkəzi Bank məzənnə siyasətinə dəyişikliklər etməlidir. Tənzimlənən, üzən məzənnə siyasətinə keçid labüddür. Burada məqsəd tənzimlənən, üzən valyuta rejiminin milli valyutanın məzənnəsinin kəskin azalmasına səbəb olmamasından ibarət olmalıdır. Təbii ki, Mərkəzi Bankı zamanı da doğru seçməlidir ki, məzənnə siyasəyinin dəyişməsi valyuta bazarına ciddi psixoloji təsir göstərməsin".

**Deputat Fazil Mustafa** da qəzetimizə açıqlamasında bildirdi ki, bu formada uzun müddət manatın sabitliyini qorumaq mümkün deyil: "Xaricdəki ehtiyatların gətirilməsi də müvəqqəti çıxış yolu ola bilər. Vətəndaşı qəfil devalvasiyanın qurbanına çevirməmək üçün ciddi tədbirlər görülməlidir. Monopoliyanın zəifləldilməsi istiqamətində addımlar atılmalıdır ki, böhranı qismən sahibkarların təşəbbüskarlığı hesabına yumşaltmaq mümkün olsun".

❑ **Cavid TURAN**

# Ölümü seçmək



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Görünən budur ki, başımıza gələn faciələrin əsas səbəbi təhlükəsizlik qaydalarına əməl etməməyimizlə bağlıdır. Söhbət təkcə "Günəşli" faciəsinin qurbanlarından getmir. Hərçənd, "Azneft" rəsmisi hadisənin təhlükəsizlik qaydalarının pozulması ilə əlaqədar baş vermədiyini israrla deyir - bir sıra mütəxəssislər fərqli fikirdə olsa da...**

Hər gün ölkədə irili-xırdalı onlarla hadisə baş verir, dünyasını dəyişənlərin statistikası artır. Ancaq diqqətlə araşdıranda görürsən ki, ilkin səbəb... təhlükəsizlik qaydalarına məhəl qoyulmamasıdır. Axı bu qaydalar insanlar üçün yazılıb, hər birimiz ona əməl etməliyik ki, ömürlər yarıda qırılmasın, gözlər yaşlı qalmasın. Ancaq nə faydası? Deyirik, yazırıq, hətta qanunlar, qaydalar sərtləşdirilir, cərimələrim miqdarı artırılır, yenə toplum olaraq öz bildiyimizi etməkdəyik.

Faktlar hər şeyi deyir... 7 dekabrda iki facіə baş verib. Mingəçevir şəhərinin 20 yanvar küçəsində təmir işləri aparan şəhər "AzərIşıq" MMC-də işləyən İstiqat Yusifovun üzərinə işıq transformatoru düşüb. Xəstəxanaya çatdırılsa da, gec olub.

Həmin gün Abşeronun Saray qəsəbəsində başqa bir faciə yaşanıb. "Azərsu" ASC-nin su anbarında qaynaq işləri aparan Sumqayıt sakini Həbib Qasımovun üzərinə dəmir boru düşüb və o hadisə yerindəcə ölüb. Təsəvvür edin, işçi elə bir yerdə çalışır ki, üzərinə transformator düşür!

Allah rəhmət eləsin, demək istəmirik ki, "günah öləndədir". Sadəcə onlara görə acıyırıq, özümüzü bir anlıq da olsa, doğmalarının yerində hiss edirik.

Hərçənd ki, işə qəbulun ən önəmli şərti təhlükəsizlik qaydalarına riayət etməyi öyrənməkdir, ona riayət etməkdir. Üstəlik də hər bir vətəndaşın həyatı təkcə onun özünə məxsus deyil ki, istədiyi vaxt ona son qoysun. Axı dövlət vətəndaşına illər boyu xərc çəkir. Deməli, insanlar da ən azı dövlət qarşısında öhdəliyinə əməl etmək üçün yaşamalıdır. Həm də özlərindən sonra ailələrinə dərd yaşatmamaq, üstəlik, onların da yükünü dövlətin üzərinə qoymamaq üçün...

Burada iş icraçılarının, müəssisələrin, şirkətlərin də üzərində ciddi məsuliyyət var. Bir çox hallarda təhlükəsizlik qaydaları sadəcə kağız üzərində qalır. Bir əcnəbi göstərin ki, tikintidə baş geyimi, ya kəməri olmadan işləsin. Bizim fəhlələr niyə yıxılır, səbəbi bəlli. Çox vaxt "kaska"ları çəkiliş, ya yoxlama gələndə geyinirlər.

Təyyarədə elan verilir ki, telefonları söndürün, kəmərləri bağlayın, ancaq bizimkilər məhəl qoymur, şəxsən şahidiyəm... Özümüzə qiymət verməsək, itkilərimiz çox olacaq.

O gün hərbi hissələrdən birində də təsadüfən açılan güllə əsgərin ölümünə səbəb olub. Ancaq baxanda belə hadisələr təkcə hərbiyə aid deyil. Mülki həyatda silahın sərbəst gəzdirilməsinə icazə verilsə, bilirsiniz nə qədər ölüm olar? Çünki biz küll halında QAYDALARI ÖYRƏNMƏK İSTƏMİRİK!

Hər gün təhlükəsizlik kəmərini bağlamayan nə qədər sürücü ilə rastlaşırsınız? Cərimələr artırılıb, qaydalar sərtləşib, xeyri yoxdur. Şəxsən şahidi olmuşam, polis maşını keçən kimi sürücü kəməri açıb kənara atır. Sanki kəmər bağlamaq ayıb işdir. Ancaq düşünmür ki, bu, yol polisi üçün yox, onun öz həyatı üçün vacibdir. Nə qədər faciələr məhz təhlükəsizlik kəmərinin bağlanmadığı üçün baş verir. Ancaq nə faydası?

Yaxud qazdan istifadə, tüstü bacaların təmizlənməsi, hamamda qaydalara əməl olunması ilə bağlı o qədər xəbərdarlıq edilir, yenə əməl etmirik. Elə bu yazını yazarkən daha bir ölüm xəbəri gəldi, Abşeronda bir xanım dünyasını dəyişib. Hələ qış gəlməyib, dəm qazı canımızı alır. Standartdankənar nə gəldi işlədirik, can əldən gedir.

Səhiyyə Nazirliyi bildirib ki, 2015-ci ilin 9 ayında Kliniki Tibb Mərkəzinin Toksikologiya şöbəsinə 1804 xəstə daxil olub. Çox adam dərmandan, yeməkdən, nə bilim şorabadan zəhərlənib. Dərman içərkən tarixinə, yemək yeyərkən keyfiyyətinə baxmırıq.

Biz həyatla ölüm arasındakı seçimdə özümüz bilərəkdən ikincini seçirik, laqeydliyimizlə. Təkcə yol qəzasında həlak olanların sayı artmayıb, həm də dənizdə boğulanlarımızın, kanala yıxılanlarımızın, dəm qazından ölənlərimizin sayı da durmadan artır. Bu itkilər Qarabağ uğrunda savaşda olsaydı, təskinliyimiz olardı.

**Və... budur, bulvarda bir qız selfi çəkdirmək istəyərkən dənizə düşüb. Az qala boğulacaqmış, xilas ediblər. Selfi çəkmək üçün də təhlükəli yer seçirik. Biz hara gedirik? Bizi saxlayan olacaqmı?**

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015



# Xalqımız özüllü xalqdır

Zamin HACI
zaminhaci@gmail.com

**Allaha şükürlər olsun, hər şeyimiz vardır: yazmağa kağızımız, oynamağa studiyamız, mətbəx verilişi üçün qazanımız, medalımız, aylıq təqaüdümüz, Bibiheybətdə evimizə qədər! Hələ deyilənə görə birini də tikirlər, tikən əllər var olsun!**

Bircə jurnalistikamız bu arada yoxa çıxdı, onun da nə eybi. Əlimizdə gül kimi variant var: "Camaata xəbər lazım deyil, xalq oynamaq istəyir". Təbii. Biz də bir qıraqdan girib başladıq oynamağa. Hələ bir dənə də məşhur misal var, onu da yazım, sonra gedim bir stəkan çay hortdadım: "Suda boğulanların xilası öz əllərindədir".

Əşşi, təbii fəlakət hər yerdə olur. Əsas odur qərənfil var. Bir neçə yerə düzərik, şəkil çəkdirib ağlaşarıq. Mən internetdə baxdım: qərənfil düzənlərdən çox onların şəklini çəkən vardı. Hətta bir nəfər necə ilhama gəlmişdisə o vurhavurda özünü dənizə atıb intihar eləmək istəmişdi. Bulvarın kanalizasiya qoxulu sularında qərənfillər açarkən o cür mənzərədə niyə də ölməyəsən? Rəhmətlik Məmməd Aslan demişkən, ağla, qərənfil, ağla.

Ölməyə vətən yaxşı,
Geyməyə Koton yaxşı.

Nazirliyin də heç bir günahı yoxdur. Qayıq qırılıb. Su soyuq olub. Hələ küləyi demirsən! De, de. Hamısını demək lazımdır. Əlbəttə, fövqəladə hadisə idi. Üzr istəyirəm, deyəsən bunu səhv yazdım. Yoxsa mənim Fövqəladə Hallar Nazirliyi ilə nə işim var? O nazirlik fövqəladə hallarda xilasetmə üçündür, dənizdə isə adi hadisə olmuşdu. Elə bil bulvarda gəzişirsən, yel əsir, sən də sağ əlini yumurtanın üstünə qoyub (bu aralar bazarda yumurta ucuzdur) sol əlinlə səmalara romantik ricət edirsən: "Ey fələk, eylə külək!". Lazım gəlsə buna musiqi bəstələmək olar. Sonra verərsən ayaqqabı şotkasına oxşayan yağlı bığları olan xalq artisti oxuyar.

Neftin qiymətinin kəskin düşməyi də yaxşı təsəlli oldu, yoxsa millət dilxor idi ki, gör nə qədər qara qızılımız yandı, havaya uçdu. İndiki halda vecimizə deyil. Otuz nəfərin ölməyi də o vaxt böyük faciə sayılardı ki, neftin barreli 100 dollardan yuxarı qalxaydı. Ucuz işlər görənlərin ölümü də ucuz olur. Bina yanmağı yadınıza gəlirmi? O binada sağ qalanlar bir aydan sonra hökumətdən mətbəxə şkaf tələb edirdilər.

Əsas odur neftin qiyməti qalxan vaxtlarda bulvarın uzunluğunu 25 kilometrə çatdırdıq. İndi orda hər gözlənilən faciə üçün gül düzmək imkanı var. Darısqal olanda gül qoyub kədərli pozada İnstaqram şəkli çəkdirmək çətinləşirdi.

Bu arada büdcədən narahat olmaq lazım deyil. Neftin qiyməti düşsə də hökumətin birjasında verginin dərəcəsi qalxmışdır. Dünən vergi məcəlləsində artımları nəzərdə tutan dəyişikliklər imzalanmışdır. SOCAR-da yaranan kəsiri evinin pəncərəsindən "peraşki" satan Məmmədnəsirin qulağını kəsməklə dolduracaqlar. Yaxşı addımdır. Daha çox vergi alınmalıdır. Qoy vətəndaşlar dövlətin varlığını duysunlar. Yoxsa ağ eləmişdilər. Əfruz xalanın əlində bülleten tutan alçaqlar vardı. Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı! Həri.

Vətəndaş sitatını qəsdən yazdım, çünki bu abzasa keçə bilmirdim, ilişmişdim. Beynəlxalq Bankın müdiri, keçmiş MTN şefinin qudası Cahangir Hacıyevi tutub zindana salıblar. Bu zaman qəribə bir fakt ortaya çıxmışdır: sən demə Cahangir müəllim Britaniya vətəndaşı imiş. İkili vətəndaşlığı keçən il qadağan edəndə görəsən bunu niyə görməyiblər? Ölkənin əsas gəlirlərini, pulların əcnəbiyə fırlatmağa vermişdilər, o da qudası ilə basıb yeyirdi. Halal olsun. Bacarıqlı adamdır. Sən olsan yeməzdin? Bunlar heç olmazsa yeyib doyublar. Eldar müəllim, Çovdarov, Subahir müəllim hətta bir neçə dəfə doymuşdu. Rabitə naziri yazıq yarıac getdi. Deyilənə görə təzəcə yeyib doyurmuş.

**Dəli şeytan deyir ki, sabah baş nazirimizin də Britaniya vətəndaşı olması ortaya çıxacaq. Adı da düz gəlir - kral Arturun adaşıdır. Ekskalibur qılıncını işdə olanda Akif Əliyə verir, o saxlayır. Görənlər olub.**

# Rusiya Duması ermənilərı sevindirə bilməyəcək, çünki...

## Hikmət Hacızadə: "Parlamentdə saxta soyqırımı inkara cəza qanunu qəbul olunsa belə, Avropa Məhkəməsi onu ləğv edəcək..."

**Rusiyada bir qrup deputatın Dövlət Dumasına saxta erməni "soyqırım"ını tanımayanların cəzalandırılması ilə bağlı təklifi hər keçən gün aktuallığını artırır. Buna səbəb Rusiya-Türkiyə münasibətlərində yaranan gərginliyinin davam etməsidir.**



Hikmət Hacızadə

Heç şübhəsiz ki, bu təklifin irəli sürülməsinə səbəb Türkiyə ilə başlayan məlum qarşıdurma oldu. Rusiya bu addımı ilə qardaş ölkəyə qarşı təzyiq mexanizmlərindən birini işə salıb. Doğrudur, təklif hələ də müzakirəyə çıxarılmayıb. Amma gərginlik davam edərsə, yaxın günlərdə təklifin müzakirə olunacağı və qəbul ediləcəyini indidən proqnozlaşdırmaq olar.

Bəzi ekspertlər hesab edirlər ki, təklifi keçərsə, Rusiyanın Azərbaycanla da münasibətlərinə ciddi təsir edəcək. Bu amili nəzərə alaraq təklifin keçməyəcəyini ehtimal edənlər də az deyil.

Qeyd edək ki, "Ədalətli Rusiya" partiyasının üzvləri olan deputatların Dövlət Dumasına müraciətlərində kifayət qədər ciddi cəza tədbirlərinin görülməsi nəzərdə tutulur. Partiya üzvləri "soyqırım"ı inkar edənləri 5 il müddətinə azadlıqdan məhrum etməyi, yaxud onları 500 min rubl (8 min 50 manat) məbləğində cərimələməyi istəyirlər. "Soyqırım"ı faktını inkar etməyə, eyni zamanda "bu cinayətlərin" təqdir edilməsinə görə 300 min rubl (4 min 830 manat) və ya 2 il ərzində əməkhaqqı dəyərində cərimələməklə, yaxud 3 il müddətinə azadlıqdan məhrum etməklə cəzalandırmaq təklif edilir. Əgər bu, kütləvi informasiya vasitələrinin köməyi ilə edilibsə, cəriməni, ən yüksək həddini 500 min rubla (8 min 50 manat) qədər artırmağın mümkün olduğu bildirilib. Belə olan halda azadlıqdan məhrum olma müddəti isə 5 ilə qədər artırıla bilər.

Lakin Elçibəy hakimiyyəti dövründə Azərbaycanının Rusiyada səfiri işləmiş Hikmət Hacızadə hesab edir ki, rus deputatlarının Dumaya təsirləri yoxdur: "Burada söhbət oradakı ovqatdan gedir. Əgər təklif qəbul olunarsa, proses davam edəcək. Təklif hələ ki, müzakirə olunmur. Görünür onu müzakirə etməyə bir o qədər də meylli deyillər. Eyni zamanda bildirirəm ki, belə təkliflər digər ölkələrdə də qəbul olunub. Avropa Məhkəməsi belə qanunları qəbul etməmişdi. Məhkəmə Fransa və İsveçrədəki bu qanunları ləğv elədi. Rus qanunu qəbul olunsa belə, eyni tale onu gözləyir. Mənasız təklif hesab edirəm. Bu deputatların baş verənlərdən xəbərləri yoxdur".

**H.Hacızadə Rusiya-Türkiyə münasibətlərində yaşanan gərginlik davam edərsə, təklifin qəbul olunması ehtimallarından da danışdı: "Ola bilsin ki, hər iki ölkə arasındakı gərginlik davam edərsə, sonunda bu təklif qəbul olunsun. Ancaq təklif qanuni qüvvəyə minməyəcək. Çünki beynəlxalq hüquq bu halları qəbul etmir. Avropa Məhkəməsi bu qanunları qeyri-qanuni hesab edib".**

❑ **Cavanşir ABBASLI**

# Ərəblərin Türkiyəyə deyil, Rusiyaya qucaq açmasının sirri

## Elxan Şahinoğlu: "Bağdad Kremli köməyə çağırsa, Rusiya öz qarşısında iki gücü görəcək..."

**Türkiyənin İraqın Mosul şəhərinə İŞİD-lə döyüşmək və İŞİD-lə döyüşən kürd qüvvələrinə təlim keçmək üçün qoşun yeritməsi İraq hökumətinin etirazına səbəb olub. Rəsmi Bağdad Türkiyəni İraqın ərazi bütövlüyünü pozmaqda, suverenliyinə müdaxilə etməkdə suçlayıb. İraq hökuməti bəyan edib ki, əgər bir sutka ərzində Türkiyə hərbi qüvvələrini geri çəkməsə Rusiyanı köməyə çağıracaqlar.**



Beləliklə, Türkiyənin qonşuluğundakı daha bir ərəb ölkəsi Rusiyaya sığınır. Bundan öncə Suriya lideri Bəşər Əsəd Rusiyanı çağırdı və bölgədə Rusiya-Türkiyə qarşıdurması yarandı. Ərəblərin müsəlman Türkiyəni nədən sevmədiyi, Rusiyaya sığındığı maraq doğurmaya bilməz. Əgər İraq hökuməti də Rusiyanı köməyə çağıracağı halda bölgədə Rusiya-Türkiyə qarşıdurması bir qədər də kəskinləşə bilərmi?

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Suriya və İraq hökumətlərinin davranışı Rəcəb Tayyib Ərdoğanın baş nazir olduğu vaxtlarda ərəblərə görə Türkiyəni dünya gücləri ilə üz-üzə qoymasının hədər getməsinin daha bir sübutudur: "Türkiyənin indiki prezidenti Rəcəb Tayyib Ərdoğan baş nazir olanda Davos forumunda İsrail prezidenti Şimon Peresə dedi ki, siz Fələstində-Qəzzada insanları qırırsınız. Ərdoğan Şimon Peresin sözünü belə kəsdi və toplantını tərk elədi. Guya Ərdoğan ərəb dünyasından dəstək aldı. İsraillə isə münasibətlər korlandı. Halbuki İsrail neçə il idi Türkiyənin hərbi tərəfdaşı idi. İndi Türkiyə Rusiya münasibətləri gərginləşib, Rusiya Türkiyəyə qarşı sanksiyalar tətbiq edir. Gəlin görək ərəb dünyası Türkiyəyə, Ərdoğana dəstək verirmi? Xeyr. Əksinə, ərəb ölkələri olan Suriya, İraq Rusiyanı köməyə çağırır. Heç bir ərəb ölkəsi Rusiya qırıcı təyyarəsinin Türkiyənin hava məkanı sərhədini pozduğunu bəyan etməyib. Düzdür, bu o demək deyil ki, bütün ərəb dünyası Türkiyədən üz çevirib, Türkiyənin bəzi müttəfiqləri də var. Onlar Səudiyyə Ərəbistanı və Qətərdir. Bu iki ölkə ən varlı ərəb ölkələridir və Türkiyə ilə strateji münasibətlər qurublar. Rusiya ilə münasibətlər gərginləşən kimi Ərdoğan Qətərə səfərə getdi. Qətər bəyan etdi ki, əgər Rusiyadan qaz ixracı azalarsa, dayanarsa, Qətər dövləti Türkiyəyə sıxılmış qaz ixrac edəcək. Amma ərəb dünyasının böyük bir qismi Türkiyənin bölgədəki rolunu qəbul etmək istəmir. Bunlar əsasən Suriya hakimiyyəti və İraqdır. Bəşər Əsədlə münasibətlər Suriyada vətəndaş müharibəsi başlayandan sonra pozuldu. İndi də görürük ki, İraqda da eyni vəziyyətdir".

**Politoloqun sözlərinə görə, ərəb ölkələri özləri İŞİD-lə bacarmırlar, Türkiyə İŞİD-lə mübarizədə onlara yardım etmək istəyəndə isə bunu ölkəyə müdaxilə kimi qəbul edirlər**: "Bəzi ərəb ölkələri elə zənn edirlər ki, Türkiyə gəldisə, Osmanlı quruldu və onlar yenə Osmanlıya daxil edildilər. Ərəblər unutmamalıdırlar ki, Rusiyanı dəvət etmələri ilə vəziyyətlərini daha da ağırlaşdırırlar. Rusiya Bəşər Əsədə dəstək verdiyi üçün İraq hökumətinin də iştahası artıb. Ölkənin yarısına nəzarəti itiriblər, indi istəyirlər ki, bəlkə Rusiyanın hərbi köməyi ilə itirdiklərini qaytarsınlar. Ancaq yanlış edirlər. Rəsmi Bağdad faktiki olaraq ölkənin bir hissəsinə nəzarət edə bilmir. Neçə illərdir İraqın şimalına nəzarətdən məhrum olub. Həmin bölgədə kürdlər özlərinə faktiki olaraq dövlət qurublar. Şimali İraqa rəhbərlik eləyən Məsud Bərzani ilə Türkiyənin çox sıx əlaqələri var. Türkiyə İŞİD-lə mübarizə üçün Bərzaniyə dəstək verir. İraq hökuməti Rusiyanı dəvət etsə, İraqda Rusiya-Türkiyə qarşıdurması meydana gələcək. İraqa girmək Rusiyaya yaxşı nəsə verməyəcək. Suriyanın özünə Rusiyanın müdaxiləsi də Rusiyaya yaxşı nə isə vəd etmir. Rusiya orada ikinci Əfqanıstan yaşaya bilər. Suriyada quru əməliyyatı olmayınca İŞİD məğlub olmayacaq. İraqda vəziyyət Suriyadakından az gərgin deyil. İraq faktiki, üç hissəyə bölünüb. Bağdad Rusiyanı dəstəyə çağırsa Rusiya qarşısında iki gücü görəcək. Rusiya Bağdadın çağırışı ilə İraqa girib İraqdakı kürdləri də özünə düşmən eləsə, bu, ciddi problemlərin yaşanmasına gətirib çıxara bilər. Ona görə də inanmıram ki, İraq hakimiyyəti çağırsa belə, Rusiya Suriya ilə paralel olaraq İraqda da əməliyyatlara girişsin. Çünki Moskva hər halda bilməmiş deyil ki, bu halda vəziyyətləri bir qədər ağırlaşacaq. Rusiya İraqa girsə, geosiyasi vəziyyəti daha da ağırlaşacaq".

❑ **E.SEYİDAĞA**

# "Rusiyanın Türkiyəni 3 tərəfdən mühasirəyə almaq planı var"

## Elxan Mehdiyev: "Moskva Xəzərin dibi ilə qaz kəməri çəkilişinə imkan verməz..."

**Rusiya Ermənistandakı 102-ci hərbi bazasını gücləndirmək üçün bölgəyə əlavə aviasiya texnikası cəmləşdirməyə başlaması və canlı qüvvəni daha 7 min artırması ilə eyni vaxtda Xəzərdə də genişmiqyaslı hərbi təlimlərə start verib. Artıq heç kimdə şübhə yoxdur ki, şimal qonşumuz bununla onun döyüş təyyarəsini vuran Türkiyəyə, həmçinin Ankaranın mövqeyindən çıxış edən dünya dövlətlərinə əzələ nümayiş etdirir.**



NATO qüvvələri Türkiyənin müdafiəsi istiqamətində hərəkətlik nümayiş etdirdikcə, həmçinin Amerika hərbi gəmiləri qardaş ölkənin sahillərinə yan aldıqca Kreml də öz tərəfindən aqressiv siyasətini davam etdirir. Ötən həftə Həştərxanda S-400 raketlərinin sınaqlarını həyata keçirən Rusiya ardınca Xəzərdəki 50 hərbi gəmisini təlimlər üçün hərəkətə gətirib.

Hesab olunur ki, bu təlimlərin prezident Ərdoğanın Türkmənistan səfəri ərəfəsində həyata keçirilməsi Türkiyəyə ilə bərabər Türkmənistana və Azərbaycana da güc nümayişidir. Moskva sanksiyalar içərisində vurnuxsa da, 2016-cı il üçün Xəzərdə daha 20 hərbi təlim keçirməyi planlaşdırır. Ekspertlər Kremlin beynəlxalq aləmlə savaş dili ilə danışmaq cəhdlərini fəlakətli perspektivin başlanğıcı hesab edirlər.

Müşahidəçilər Xəzərdəki təlimlərin həm də Azərbaycanı təhdid etdiyi qənaətindədir. Hesab olunur ki, Bakının Ankaraya öz yardımını təklif etməsi, Türkiyə yüklərinin Xəzər üzərindən Türkmənistana, həmçinin Orta Asiyaya daşınması üçün güzəştli alternativ yol təklif etməsinə, Türkiyəyə qaz vədinə cavabdır.

Bu arada Rusiyanın açıq-aşkar Türkiyənin daxili işlərinə qarışması, hətta PKK-ya dəstək verməsi istiqamətində də xəbərlər yayılmaqdadır. Türkiyə mediası Moskvadakı dairələrin PKK lideri Karailana açıq dəstəyindən bəhs edirlər. Hətta Suriya prezidenti Bəşər Əsəd etiraf edib ki, PKK İŞİD-ə qarşı döyüşmək istədiyi üçün onları silahla təmin edirlər. Bu prosesdə Rusiyanın da iştirakı isə təhlükəli perspektivlərə yol açır. "Rossiya" televiziyasındakı Türkiyə ilə bağlı müzakirələr də müzakirə obyektidir. Belə ki, Rusiya telekanalında iştirakçılar Türkiyənin hansı nöqtələrinin bombalana biləcəyini müzakirə ediblər. Hətta belə təkliflər də səslənib ki, Suriya sərhədində yerləşdirilən Türkiyə hərbi birlikləri yox edilsin, yaxud Qərb hissəsində sənaye mərkəzləri bombalansın. Proqramda iştirak edən mühacirətdəki "Kürdüstan parlamenti"nin üzvü, Rusiya bölgələrindən birindən deputat olan Cemal Şamoyan isə "ruslar olmasaydı, türklər bizim kökümüzü kəsərdilər", - deyib. Üstəlik, Türkiyənin Rusiya tərəfindən bombalanmasının vacibliyini qeyd edib.

Durumu şərh edən **konfliktoloq Elxan Mehdiyev** də hesab edir ki, Moskvanın əsas hədəfi Türkiyədir: "Düşünmürəm ki, Rusiyanın Xəzərdəki hərbi dəniz təlimləri Azərbaycanı qorxutmaq üçündür. Çünki Rusiya ilə Azərbaycan arasında normal münasibətlər var və nə Rusiya Azərbaycana, nə də Azərbaycan Rusiyaya düşmən kimi baxmır. İkincisi, Azərbaycan Rusiyanın bölgədəki maraqlarının əleyhinə heç bir hərəkət etmir. Rusiyanın hərbi təlimləri daha çox indiki zamanda siyasi izolyasiyada olan Rusiya rəhbərliyinin hərbi amillərə söykənərək özünü qoruma instinktinə söykənir. Lakin burada Türkiyə ilə olan münasibətlərin rolu əlbəttə ki, var. Çünki bu kontekstdə Rusiya və NATO arasında geniş uçurumun olduğu yenidən üzə çıxdı və Putin hökuməti ənənəvi olaraq hərbi vektora arxalanaraq öz güc varlığını göstərir".


Elxan Mehdiyev

**E.Mehdiyev deyir ki, Rusiya Türkiyə ilə dost münasibətlərində olduğu dövrlərdə də Türkiyənin Xəzərlə Orta Asiyaya çıxmasını qısqanclıqla qarşılayıb:** "İndiki zamanda isə bu, Rusiya tərəfindən artıq arzuolunmaz hal kimi qəbul edilir. Rusiya Xəzərin dibi ilə planlaşdırılan qaz kəmərinin çəkilməsinə imkan verməz. Türk nəqliyyat daşımalarına gəldikdə isə, o zaman gərək Rusiya Azərbaycanın Türkmənistana gedən dəniz nəqliyyat yollarını bağlasın. Belə olarsa, bu cür addım bütün region ölkələrini Rusiyanın üzərinə qaldırmağa aparacaq".

Rusiyanın Ermənistandakı qüvvələrini artırmasına gəldikdə, ekspert şübhə etmir ki, burada bir addım sırf Türkiyəyə qarşı yönəlib: "Rusiya Türkiyəni 3 tərəfdən mühasirəyə almaq planı güdür. Birincisi, Qara dəniz tərəfdən, digəri Ermənistana müasir HHM sistemləri, müasir silahlar və aviasiya və yığmaqla Ermənistandan, üçüncüsü, Suriyada müasir HHM sistemləri, müasir silahlar və aviasiya yerləşdirməklə həm Aralıq dənizi sahəsindən həm də Suriyadan. Bu addımlarla faktiki olaraq Rusiya Türkiyənin hava fəzasını kənardan izləmək imkanı qazanır və türk təyyarələrinin hərəkətlərini Türkiyə sərhədləri içində müasir sistemlər vasitəsilə məhdudlaşdırır. Bununla onlar Türkiyə təyyarələrini nəzarətdə saxlamağa çalışırlar".

**E.Mehdiyev onu da qeyd etdi ki, Ermənistandakı Rusiya hərbi bazasına hər hansı silah və texnika, yaxud aviasiyanın gəlişinə ermənilər yalnız sevinirlər:** "Onlar bu silahlarla Azərbaycanı dolayısı və birbaşa şantaj edirlər və düşünürlər ki, dar ayaqda bu bazalardakı silahlar onların arxasında duracaq".

❑ **Cavid TURAN**

# Ermənistan xaosa girir: tarixin ən gərgin dövrü

## Qabil Hüseynli: "Proseslərin Qarabağ məsələsinə də təsirləri olacaq..."



**Ermənistan tarixinin ən gərgin dövrünə qədəm qoyur. Bunu politoloq Qabil Hüseynli deyib (axar.az). Sabiq dövlət müşavirinin sözlərinə görə, köhnə klanın yenidən hakimiyyətə gəlməsi xalq tərəfindən bu dəfə çox çətin həzm ediləcək:**

"Ermənistanda siyasi sistem dəyişikliyi Sərkisyanın gələcəyinə hesablanmış bir addımdır. Artıq iki dəfə prezident seçilmiş Sərkisyan baş nazirlik postuna göz dikib. Baş nazirin səlahiyyətləri kifayət qədər geniş olacaq. Prezident isə bütöv simvolik funksiyaları yerinə yetirəcək. Yəni dövləti təmsil edəcək, ola bilsin ali baş komandan olacaq və s. Ancaq ümumilikdə ölkənin idarəsi baş nazirin əlində olacaq. Bu, Erməni̇stan xalqı tərəfindən çətin həzm ediləcək. Çox güman ki, ara qarışacaq. Yəni əhali indidən özünü təhqir edilmiş hesab edir və seçkilərin saxtalaşdırıldığı iddia edilir. Köhnə klanın yenidən hakimiyyətə gəlməsi qarşıdurma və mitinqlərə səbəb olacaq, Sərkisyanın devrilməsi yenidən gündəmə gələcək. Budəfəki daxil ziddiyyətlər İrəvanı xaosdan xilas edə bilməyəcək".

**Politoloqa görə, prosesin Qarabağ məsələsinə də müsbət təsirləri mümkündür:** "Müəyyən mənada dəyişikliklərin olacağı istisna edilmir".

# Ermənistan normal ölkə olacaqmı?



**Hüseynbala SƏLİMOV**

**Bu sətirləri yazarkən ölkəmiz hələ matəm içindədi. Bəli, Xəzər təkcə bizim uğurlarımızın, şad günlərimizin şahidi deyil. Həm də uğursuzluqlarımızın şahididir. Bu azmış kimi, Xəzər həm də bizim bəzilərimizin son məkanı, məzarı da olur.**

Amma nə etmək olar? Həyat, həm də iş davam edir. Ona görə də mən bir o qədər də arzu olunmayan bir ölkədəki - Ermənistandakı son hadisələrə keçid almaq məcburiyyətindəyəm. Bu, da bizim işimizdir.

Bəli, Ermənistanda bir neçə gün irəlidən deyilən və etirazlara səbəb olan referendum baş tutdu - artıq ertəsi gün səhər bu ölkənin müvafiq strukturları referendumun baş tutduğunu elan etdilər. Nə demək olar? Bircə anlığa Ermənistandan uzaqlaşaraq prezident və parlament respublikalarının fərqinə varmaq olar. Amma o haqda çox yazmışıq və ona görə də durub uzun-uzadı müzakirə açmaq istəmirik.

Onu demək lazımdır ki, parlament idarəçiliyi nə qədər çevik olsa da, o, başlıca məsələni - ölkənin Rusiyadan asılılığını azaltmaq və onu adi bir "forpost"dan normal dövlətə çevirmək iqtidarında deyil. Ölkə yenə də Rusiyadan asılı olaraq qalacaq və özünün iyrənc siyasətini davam etdirəcək.

Bəlkə də kimsə bununla razılaşmayacaq. Bəli, nəzəri cəhətdən demək olar ki, elə bir hökumət formalaşa bilər ki, o, ölkəni normal istiqamətə yönəldər. Təbii ki, nəzəri və abstrakt cəhətdən hər şey ola bilər. Amma bir-iki nüans var. Birincisi, təəssüf ki, biz bu ölkədəki siyasi palitranı tam şəkildə bilmirik. Bilmirik ki, digər siyasi qruplar, eləcə də cəmiyyət bölgə ölkələrinə qarşı hansı münasibətdə bulunur?

Bu vaxta qədər müşahidə etdiklərimiz bizi yalnız məyus edib. Həm də burada bir neçə il bundan əvvəl parlamentdə baş vermiş gülləbaranı da yada salmaq lazımdır. Bəlkə də o vaxtkı parlament siyasətə müəyyən korrektələr edəcəkdi. Amma o, güllələbaran edildi. O vaxtdan Ermənistan siyasətinin mahiyyəti çox az dəyişib - burada yenə də kriminal ünsürlər sezilir. Sanki hansısa gizli bir əl ölkəyə onun üçün cızılmış ssenaridən kənara çıxmağa imkan vermir.

Bəli, bundan sonra parlament seçkiləri ölkədə xüsusi çəkiyə malik olacaq. Gəl ki, indi konstitusiyaya edilmiş düzəlişlərin kimin siyasi çəkisini artırdığını demək elə də asan deyil. Ermənistanın özündə də belə fikir hakimdir ki, bu düzəlişləri S.Sarkisyan özünün və partiyasının mövqelərini möhkəmləndirmək üçün edib.

Amma indi hökumətin siyasi "immunitet"i bir az aşağı olacaq və seçicilərin ona təsiri artacaq. Həm də hökumətlər daha qısa müddətli və dəyişkən olacaq. Ona görə ki, Ermənistandakı sosial-siyasi durum o qədər ağırdır ki, burada siyasi ab-hava əslində çox dəyişkən olmalıdı.

Lakin bunlar o vaxt olar ki, ölkədə əsl seçkilər keçirilmiş olsun və seçkilərə inzibati müdaxilələr azalsın. Doğrusu, biz bu ölkədəki seçkilərin nəticələrinə elə də inanmırıq. Həmişə düşünmüşük ki, oradakı seçki texnoloqlarının hiyləgərliyi ondadır ki, onlar daha inandırıcı ədədlər təqdim və tərtib edirlər.

Düzdür, əlimizdə bu fikri təsdiqləyəcək fakt yoxdur. Ona görə də konstitusiya dəyişikliklərindən sonrakı ilk seçkiləri gözləmək məcburiyyətindəyik. Əgər bu seçkilərdə də hakimiyyət kriminal və militarist ünsürlərin əlində qalarsa, onda bu, bizim dediklərimizə sübut olacaq.

Bir daha qeyd edirik ki, hələlik gözləmək lazım gələcək. Həm də əvvəldə deyilən kimi, yenə bu fikirdəyik ki, cəmiyyətdəki ovqatdan da çox şey asılıdır. Bəlkə də burada bir daha demək yerinə düşər ki, erməni siyasətinin taleyini diaspora və Rusiya həll edir. Təəssüf, ölkə müxalifəti də bu reallıqla barışır. Diaspora və Rusiya isə daha çox onun marağındadır ki, Ermənistan marionet dövlət kimi qalsın, inkişaf etməsin, Rusiyadan asılı olsun, çünki bu halda onu yönəltmək və idarə etmək daha asan olacaq.

Təbii ki, biz də istərdik ki, Ermənistanda müsbət bir oyanış olsun. Bu halda onlarla danışmaq və işləmək daha asan olardı. İndi bölgədə maraqlı proseslər baş verir. Demirik ki, bütün bu proseslər pozitiv məzmuna malikdir. Yox, bu sahədə də problemlər var. Amma dövlətlər bütün hallarda yeni əməkdaşlıq kanalları və düsturları axtarırlar.

**Ermənistan bütün bu proseslərdən kənardadır. Ölkə Rusiyanın ovucunun içində qalmaqda davam edir. Halbuki o tamam başqa bir geosiyasi müstəviyə, bəli, başqa ovuca deyil, fərqli geosiyasi müstəviyə də keçə bilərdi.**

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

# SSRİ-nin süqutundan 24 il keçdi

## 21-ci əsrin ən nəhəng imperiyasının nostaljisini hələ də yaşayanlar var...



**SSRİ-nin dağılmasının 24 ili tamam olur. 1991-ci ilin bu günündə Sovet İttifaqı Belarusda üç respublikanın - Rusiya Federasiyasının, Ukraynanın və Belorusiya (indiki Belarus) rəhbərlərinin imzaladığı "Belovejsk sazişi" ilə tarixin arxivinə verildi. Sənədi Belorus adından Ali Sovetin sədri Stanislav Şuşkeviç, Rusiya adından Boris Yeltsin, Ukrayna adından Leonid Kravçuk imzalayıb.**

Belarus Ali Sovetinin keçmiş sədri, SSRİ-nin dağılmasını əsasını qoymuş "Belovejsk sazişi"ni imzalayan Stanislav Şuşkeviç sözügedən hadisənin 20 illiyində bundan peşman olmadığını demişdi: "Nə qədər istəyirlər məni söysünlər. Məhz bu sazişə görə, bir damla qan tökülmədən SSRİ-nin süqutu baş verdi. Bu saziş Sovet İttifaqının süqutunun hüquqi cəhətdən təsdiq edilməsi idi. Əslində isə SSRİ-nin dağılması avqust ayında artıq baş vermişdi. Bizim cəsarətimiz çatdı ki, məsələni öz adı ilə adlandıraq. Baxın, bir damla qan belə axıdılmayıb".

**Jurnalistin "Qafqazda xeyli qan töküldü axı" sualına onun cavabı birmənalı olmayıb:** "Buna qədər və bundan sonra Qafqazda baş verənlərin heç birinin "Belovejsk sazişi"nə dəxli olmayıb".

SSRİ-nin buraxılması barədə rəsmi saziş imzalanmamışdan öncə artıq bir sıra İttifaq respublikaları o cümlədən, Azərbaycan üç il davam edən xalq hərəkatının nəticəsi olaraq müstəqilliyini rəsmən elan etmişdi. Azərbaycan 1991-ci il 18 oktyabrında Müstəqillik Haqqında Konstitusiya Aktı qəbul eləmişdi.

SSRİ-nin dağılması imperiyanın tabeçiliyindəki respublikaların müstəqilliyinə qovuşmasına gətirib çıxarsa da bir çox keçmiş sovet respublikaları sonradan böyük itkilərə, müharibələrə məruz qaldı. Bir sıra ekspertlər hesab edir ki, SSRİ-nin dağılması nəticəsində böyük siyasi, iqtisadi, sənaye, elmi, hətta idmanda belə tənəzzül baş vermiş oldu.

Rusiyada da həmin tənəzzül baş verdi, bütün sahələrdə itirdi. Ukrayna itirdi, Azərbaycan Qarabağı itirdi, Ermənistan səfalətli vəziyyətə düşdü, Gürcüstan ərazisini itirdi, Moldova itirdi. Bu xalqlar, dövlətlər bir-birlərinə düşmən kəsildilər. Ekspertlərin fikrincə, Azərbaycan cəmiyyətinin müəyyən kəsimində bu gün də SSRİ nostaljisinin olması məhz bu itkilərlə bağlıdır.

Rusiya prezidenti Vladimir Putin isə bu ilin əvvəlində jurnalistlər qarşısında çıxışında SSRİ-nin dağılmasını faciə adlandırıb. Dünyanın əksər siyasi təhlilçiləri Rusiya prezidentinin bu cür danışmasını onun SSRİ-ni bərpa etmək fikrinə düşməsi kimi şərh ediblər. Qeyd olunur ki, bu, Rusiyanın imperialist düşüncələrdən əsla vaz keçmək fikrində olmadığının təzahürüdür.

SSRİ 50 milyon insanın qanı üzərində qurulmuş, rus xalqının ağalığı əsasına söykənən bir imperiya idi. Azərbaycanın başına bu imperiyadan çox müsibətlər gəlib. Ölkəmizi bir neçə yerə bölüblər. Bizim torpaqlarımız üzərində ermənilərə dövlət qurublar. Bu azmış kimi, Qarabağı da alıb ermənilərə veriblər. İndi də yenə Azərbaycanı bütövlükdə əsarət altına almaq istəyirlər. Azərbaycan bir daha bunu qəbul etməməlidir.

**Azərbaycanın müstəqilliyi ilə nəticələn xalq hərəkatının liderlərindən olan AXP sədri Pənah Hüseyn bildirdi ki, SSRİ-nin dağılmasının obyektiv səbəbləri var:** "1980-ci illərin sonundan başlayaraq SSRİ ərazisində milli demokratik inqilablar imperiyanın sonunu gətirdi. Əlbəttə ki, Sovet imperiyasının dağılmasını şərtləndirən bir sıra obyektiv tarixi proses var idi. Bu, SSRİ-dəki siyasi, iqtisadi modelin uğursuzluğu, 1980-ci illərin sonunda ciddi iqtisadi, sosial, siyasi-hərbi böhran çöküşü yaxınlaşdırırdı. Bu, təkcə bir imperiyanın böhranı yox, həm də xalqların milli azadlıq hərəkatının obyektiv nəticəsi idi. Proses artıq elə bir vüsət almışdı ki, 1990-cı illərin əvvəllərində SSRİ-nin saxlanması üçün Kreml sonuncu cəhdlərini etdi. Hərbi yola əl atıldı. Lakin bu cəhdlər də baş tutmadı. Sovet imperiyanın saxlanmasında maraqlı olan mütəşəkkil təşkilati güc qüvvələri artıq sıradan çıxdı və proses nəhayət "Belovejsk sazişi"nə gətirib çıxardı. Həmin sazişin özü də bir siyasi akt idi. Çünki artıq faktiki olaraq SSRİ tərkibindəki bir çox respublikalar, hətta Rusiya öz müstəqilliklərini elan etmişdi. Sözügedən saziş isə bir növ simvolik akt oldu. Bu, çox ciddi geosiyasi hadisə idi".

❑ **E.SEYİDAĞA**

# Parlamentdə nazirlər sərt tənqid edildi

## Mili Məclisin komitəsində müzakirələr keçirilib

**Dekabrın 8-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində "Milli Məclisin Daxili Nizamnaməsinə" dəyişiklər edilməsi haqqında qanun layihəsi müzakirə olunub.**

Müzakirələr zamanı çıxış edən **deputat Qüdrət Həsənquliyev** narazılığını bildirərək deyib ki, parlament hazırda çoxpartiyalılıq prinsipi ilə fəaliyyət göstərsə də, bu, müşahidə edilmir: "Əməldə biz Milli Məclisin çoxpartiyalılıq prinsipi ilə fəaliyyət göstərdiyini görmürük. Bu gün Milli Məclisdə rəhbər vəzifələrdə, komitə sədrləri və onların müavinləri postlarında ancaq hakim partiyadan seçilən millət vəkillərini görürük. Azlıq təşkil edən partiyaların nümayəndələri rəhbər vəzifələrdə təmsil olunmurlar. Hesablama Palatasının üzvləri də komitə sədrlərindən seçilir və məlumdur ki, onlar hakim partiyanın nümayəndələridir. Belə olan halda isə aşkarlıq prinsipindən söhbət gedə bilməz". **Deputat qeyd edib ki, heç olmazsa Hesablama Palatasının auditorları parlamentdə azlıqda təmsil olunan partiyalardan seçilsinlər.** "Parlamentin çoxpartiyalılıq sistemi ilə fəaliyyət göstərməsinin əməldə görünməməsi onun parlamentin nüfuzuna mənfi təsir göstərir".

Modern.az-ın məlumatına görə, **deputat Fəzail Ağamalı** da həmkarının söylədiyi fikirlərin mütləq əksəriyyəti ilə razı olduğunu qeyd edib: "Bu, günümüzün reallığıdır. Nizamnamə və deputatın statusu ilə bağlı qanunlar 20-25 il öncə qəbul edilib, ötən müddət ərzində Azərbaycanda Milli Məclis vacib dövlət qurumu olaraq oturuşub, kifayət qədər ənənələr formalaşıb. Eyni zamanda da Milli Məclisdən dövlətə qarşı ola biləcək təhlükələr indi minumuma enib. Yəni mən bunu 20-25 il öncəki vəziyyətlə müqayisə edirəm. İndi Milli Məclis dövlətçiliyin qorunmasında və inkişafında məsuliyyətini dərk edən və bu istiqamətdə xüsusi töhfələr verən dövlət qurumuna çevrilib. Ona görə də hesab edirəm ki, Qüdrət müəllimin bu gün burada səsləndirdiyi təklifləri daha da genişləndirməklə, Nizamnamədə və statusda ciddi dəyişiklik etməyə ehtiyac var. Biz bunu mütləq etməliyik. İndi mətbuatda da bununla bağlı ictimai rəy yaranıb. Biz bəzən mətbuatın üzərinə gedirik ki, niyə belə deyir. Əslində mətbuat ictimai rəyi formalaşdıran çox ciddi bir tərəfdir. Təsadüfi deyil ki, mətbuat 4-cü hakimiyyət adlanır. Bu gün ictimai rəydə də Milli Məclisin səlahiyyətlərinin artırılması ilə bağlı fikirlər səslənir. Çünki son hadisələr də göstərdi ki, bəzi nazirlər öz səlahiyyətlərini aşaraq, ona verilən səlahiyyətlərdən sui-istifadə ediblər".

**F.Ağamalı bildirib ki, bu gün elə nazirlər, komitə sədrləri və dövlət məmurları var ki, onlar millət vəkillərinin telefonlarına cavab vermir**: "Məmurlara telefonla da zəng vurub sözünü deyə bilmirsən. Milli Məclisin iclaslarında elə atmosfer yaranıb ki, nazirlər və komitə sədrləri gələndə, elə bil göydən paraşütlə düşürlər. Yəni dövlətçiliyimiz və xalqımız üçün bu cür ənənəni qırmaq mütləq lazımdır. Bu cür məsələlərin dövlət səviyyəsində həlli üçün Əli müəllim, *(Əli Hüseynli- red.)* sizin kifayət qədər həm hüquqşünas olaraq, həm də nüfuzlu komitə sədri kimi imkanlarınız var. Xahiş edirəm ki, siz bu məsələləri həm parlament rəhbərliyi, həm də dövlət səviyyəsində qaldırasınız".

**Komitə sədri Əli Hüseynli** hər iki deputatın fikirlərinə hörmətlə yanaşdığını bildirib. Qeyd edib ki, qanun layihəsi işçi qrupunda müzakirə edilərkən hər iki partiya sədri müzakirələrə dəvət edilsin və fikirlərini nəzərə almaq olar.

Komitə iclasında İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər də müzakirə olunub. Layihəyə görə, dövlətin iqtisadi və ya təhlükəsizlik mənafeələrinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı olmadan torpaq sahəsində dəniz sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına görə fiziki şəxslər 3 min, vəzifəli şəxslər 7 min, hüquqi şəxslər isə 35 min manat miqdarında cərimə olunacaq. Eyni zamanda, xətalarin il ərzində inzibati tənbeh alan şəxs tərəfindən təkrar törədilməsinə görə fiziki şəxslər 5 min, vəzifəli şəxslər 10 min , hüquqi şəxslər isə 50 min manat miqdarında cərimə olunacaq. Dəyişikliklər layihəsi parlamentin plenar iclasına tövsiyə olunub.

Məcəlləyə təklif edilən digər dəyişikliyə əsasən, kütləvi informasiya vasitələrinin redaksiyası *(məsul redaktoru)* və jurnalistlər *(müəlliflər)* tərəfindən kütləvi informasiya azadlığından və jurnalist hüquqlarından sui-istifadə etməyə fiziki şəxslər iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min beş yüz manatadək məbləğdə cərimə ediləcək.

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, parlament komitələrinə əlavə səlahiyyətlər verilir. Belə ki, mövcud Sosial siyasət komitəsinin səlahiyyətlərindən idman, gənclər və səhiyyə ilə bağlı məsələlər alınaraq yeni yaradılan Səhiyyə, Gənclər və idman komitələrinə verilib. Bundan başqa, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin səlahiyyətindən korrupsiyaya qarşı mübarizə ilə bağlı məsələlər səlahiyyətləri artırılan Müdafiə, təhlükəsizlik və korrupsiyaya ilə mübarizə komitəsinə verilir.

"Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə dəyişikliklər görə, Nizamnamənin 36-cı maddəsinə təklif edilən dəyişiklikdə bildirilir ki, "Bir deputat ən çoxu iki komitənin üzvü ola bilər".

"Cahangir Əsgərovu divara dirəməsən, qiymətləri endirməyəcək". Bunu isə Əmək və sosial siyasət komitəsinin iclasında sözügedən komitənin yeni üzvü, ASDP sədri Araz Əlizadə deyib(Gün.az).



Qeyd edək ki, iclasda Azərbaycanla Argentina arasında turizm sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi ilə bağlı qanun layihəsinin müzakirəsi zamanı komitə üzvləri həmçinin, ölkədə turizmin vəziyyətindən, bu sahədə problemlərdən danışıblar. **Komitə sədri Hadi Rəcəbli** deyib ki, artıq iqtisadiyyatı neft üzərində qurmaq dövrü keçib, ələvə gəlir mənbələrinin axtarılıb tapılması vacibdir: "Komitənin üzvü İlham Məmmədov da dünyada yaşanan iqtisadi böhran fonunda əlavə gəlirlər mənbələrinin axtarılıb tapılmasına böyük ehtiyac duyulduğunu söyləyib: "Turizmin inkişafı üçün də qiymətlərin aşağı salınması, xüsusilə təyyarə biletlərinin ucuzlaşdırılması lazımdır. Düzdür, aradabir endirimlər olunur, amma bu da kampaniya xarakteri daşıyır. Bu məsələdə kampaniyaçılıq olmaz. Bununla turzimi də inkişaf etdirmək mümkün deyil".

Həmkarının çıxışına müdaxilə edən digər **komitə üzvü Araz Əlizadə** isə "Cahangir Əsgərovu divara dirəməsən, qiymətləri endirən deyil", - deyə, bildirib. "Prezident deyir ki, kerosini də dövlət verir, təyyarələri dövlət alır, ancaq "AZAL" rəhbəri rentabellikdən-filandan dəm vurur... Eyni zamanda, məsələn, Antaliyada otellərdə bir otaq 24-25 min dollara satılır. Kim istəsə ala və qalmadığı dövrdə isə onu icarəyə verib pulunu qazana bilər. Bizdə də bu təcrübədən istifadə olunmalıdır", - deyə A.Əlizadə sözlərinə əlavə edib.

❑ **E.PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

# Moskvadan Bakıya xəfif Qarabağ təhdidləri

## Kremlin Ankara ilə gərgin münasibətlərindən həvəslənən Rusiyadakı erməni diasporu Azərbaycan əleyhinə də hərəkətə keçib; aparıcı Rusiya KİV-lərində kök salmış ermənilər əsl fürsət bulub, Moskva onların təxribatçı xidmətlərindən niyə istifadə edir?

**Noyabrın 24-də Türkiyə tərəfindən Rusiyaya məxsus hərbi təyyarənin vurulması iki həftədir yerli və əcnəbi analitiklərin əsas diqqətini bu iki dövlət arasında münasibətlərin perspektivinə və yaşanan soyuqluğun mümkün nəticələrini hesablamağa yönəlib. Təhlilçilər ehtiyatlı şəkildə durumu NATO-Rusiya qarşıdurması kontekstində də təhlilə eləməyə, eyni zamanda Ankara-Moskva gərginliyinin onlara ən yaxın olan Güney Qafqaz regionuna necə inikas edəcəyini proznozlaşdırmağa çalışırlar.**






Güney Qafqaz deyəndə isə ən birinci Türkiyənin 1 nömrəli müttəfiqi Azərbaycanla Rusiyanın 1 saylı müttəfiqi və forpostu Ermənistan və Dağlıq Qarabağ konflikti göz önünə gəlir. Görəsən, gərgin ritorika bölgədəki situasiyaya hansı təsirləri göstərəcək?

"Su-24" insidentindın sonra Azərbaycan Türkiyə ilə münasibətlərin yaxınlaşmasına şövqlə yanaşır. Ancaq bu yaxınlaşma Cənubi Qafqazda, Qarabağ münaqişəsində yeni gərginliklərə yol aça və Rusiya ilə münasibətlər çətinləşə bilər". Belə bir ehtimal "Middle East Eye" saytında dərc edilmiş məqalədə yer alıb.

Məqalədə daha sonra deyilir: "Ola da bilsin, Rusiyanı Türkiyənin enerji təminatından kənarlaşdırmaq məsələsində Türkiyə və Azərbaycan yalnız xəbərdarlıq çıxışları edirlər, açıqladıqları planlar (TANAP-ın inşasının sürətləndirilməsi - red.) heç də qəti deyil. Ancaq yenə Türkiyənin region və enerji ilə bağlı siyasətinin alternativi görünməkdədir. Hələlik nə Rusiya, nə də Türkiyə geri çəkilmək əhvalında deyillər".

***

Bu, doğrudan da belədir. Xüsusən də Rusiyanın siyasi-hərbi rəhbərliyi, onun aparıcı yazılı və elektron KİV-ləri yanan ocağa yağ effektli aqressiv ritorikanı davam etdirir. Müşahidə edilən budur ki, Kreml vəziyyəti yumşaltmaq məramında deyil və Ankaraya qarşı hətta yeni və daha təhlükəli planlar cızır.

Rusiya-Türkiyə arasında yaşanan mürəkkəb durum isə gözlənildiyi kimi, Rusiya ərazindəki erməni lobbisini Ankara və Bakıya qarşı hərəkətə keçməyə və təxribatları gücləndirməyə həvəsləndirib - təbii ki, rəsmi Moskvaya yaxın dairələrin rüsxəti ilə.

Rusiyanın dövlət və "özəl" TV-ləriniizləyənlər yaxşı bilir, indi artıq ölkənin aparıcı telekanallarında bu mövzuda əllaməlik edən, şərhlər verən, əslində isə Azərbaycanlı da Türkiyənin gözünə qatıb söyən, aşağılayan erməni əslili "ekspert" və "politoloqlar" yağışdan sonrakı göbələklər kimi çoxalıb.

Onlar hətta ORT telekanalının azərbaycanlı aparıcısı olan İradə Zeynalovanın analitik verilişində də meydan sulayır. Yeri gəlmişkən, həyat yoldaşı rus olan bu xanımın damarlarında ümumiyyətlə, azərbaycanlı, türk qanı axdığı böyük şübhə doğurur. Çünki o, Türkiyəni rus, erməni millətindən olan aparıcı və şərhçilərdən heç də az asıb-kəsmir. Üstəlik, vurğulandığı kimi, öz verilişlərində erməni maraqlarının, təcavüzkar Ermənistanın mövqeyinin təbliğinə şərait yaradır, bu mövzuda süjetlər, reportajlar yayımlayır, bununla da özünü azərbaycanlı sayan birisi Azərbaycan ərazilərinin işğalına haqq qazandırır.

***

Təbii ki, ermənilərin kök saldığı başqa Rusiya KİV-də də eyni vəziyyətdir - Türkiyə və Azərbaycan qarşı təbliğat bütün gücü ilə aparılır, Rusiya ictimaiyyətinin gözündə Türkiyə ilə yanaşı, ölkəmiz haqda da düşmən obrazı formalaşdırılır, ermənilər isə "türk millətindən həmişə işgəncə görmüş fağır xalq" kimi təbliğ edilir.

Belə təbliğat üçün münbit şərait isə çoxdan mövcuddur. Məslə ondadır ki, illərdir bir neçə nüfuzlu Rusiya KİV-i erməni millətindən olan şəxslərin birbaşa nəzarətindədir. "Regnum" Agentliyi, qalmaqallı "Lifenews" internet-telekanalı bu qəbildəndir. Biz hələ Rusiyanın ictimai-ekspert dairələrində yuva salmış çoxsaylı və başa bəla erməni "politoloqları"nı demirik.

Son olaraq Aram Qabrelyanın rəhbəri olduğu "Lifenews" internet xəbər telekanalı Türkiyəyə, Azərbaycana qarşı qarayaxmaya və təxribata əl atıb. Belə ki, dekabrın 5-də gedən birbaşa efirdə, "Azərbaycandan yanacaq" adlı verilişdə Milli Energetik Təhlükəsizlik Fondunun aparıcı eksperti Stanislav Mitraxoviç Rusiya qazı olmadan Türkiyəni hansı perspektivin gözlədiyini, Azərbaycanın ona hansı köməyi göstərə biləcəyini izah edərkən monitorda Türkiyə və Azərbaycanın xəritələri göstərilib və... ölkəmizin ərazi bütövlüyü təhqir edilib. İki ölkənin təqdim edildiyi xəritələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazisi qeyd edilməyib.

***

Heç şübhə yox ki, Ermənilərin Azərbaycana qarşı belə təxribatları yəqin ki, davam edəcək və Türkiyə-Rusiya münasibətlərində soyuqluq qaldıqca hətta güclənəcək. Ankara-Moskva əlaqələri isə belə görünür uzun müddətə korlanıb. Münasibətlərin əvvəlki axara qayıtması üçün ən azından ya prezident Rəcəb Tayyib Ərdoğan iqtidardan getməlidir, ya da Vladimir Putin.

Hər halda sağlam məntiq bunu diktə edir. Fəqət, Ərdoğanın hakimiyyətdən getməsi gözlənilmir. Ən azı ona görə ki, son sorğulara görə, "Su-24" insidentindən sonra onun reytinqi qalxıb. Türkiyədəki "Gəzici" təhqiqat mərkəzinin ölkənin 16 əyalətində apardığı sorğuya görə, rəyi soruşulanların 53%-i Türkiyədə prezidentli üsul-idarəyə keçidin tərəfdarı olduğunu söyləyib. Təyyarə insidentinədək bu göstərəcinin xeyli aşağı olduğu bildirilirdi. "Rusiya ilə gərgin münasibətlər fonunda prezident Ərdoğan ölkəni yaxşı idarə edirmi" sualına respondentlərin 74%-i təsdiqi cavab verib. Onların 91%-inin fikrincə isə, Türkiyə ölkənin hava məkanını pozan Rusiya təyyarəsini vurmaqda düzgün hərəkət edib.

**Beləliklə, Türkiyə əhalisinin mütləq əksəriyyətinin məsələdə birmənalı şəkildə hakimiyyətin tərəfində olduğu üzə çıxıb. Nəzərə alsaq ki, Putinə olan etimad "Su-24" olayından sonra azalsa da, hələ ki, yetərincə yüksək olaraq qalır və Putinin hakimiyyətdən getmək fikri yoxdur, o zaman Dağlıq Qarabağa məsələsində yaxın perspektivdə bu iki vacib dövlətin ortaq və konstruktiv əməkdaşlığını gözləməyə dəymir. Nəinki gözləməyə dəymir, həm də müşahidə edildiyi kimi, Rusiya erməni kartından Türkiyənin əsas müttəfiqi Azərbaycana qarşı təzədən xəfif Qarabağ təhdidləri üçün istifadə eləmək niyyətində görünür.**

# Rusiya Ermənistana əlavə qoşun yığmağa başladı

## Moskva işğalçı ölkədəki hərbi bazasını gücləndirir, hədəf Türkiyə və Azərbaycandır

**Rusiya Ermənistandakı 102-ci Gümrü hərbi bazasını gücləndirmək üçün bu ölkəyə əlavə aviasiya texnikası cəmləşdirməyə başlayıb ( Virtualaz.org). Rusiya ordusunun Cənub Hərbi Dairəsinin yaydığı açıqlamaya əsasən Ermənistana əlavə olaraq 7 zərbə və nəqliyyat vertolyotu göndərilib. İlin sonuna qədər daha bir neçə vertolyotun göndəriləcəyi bildirilir.**




Bu hadisə Türkiyə ilə Rusiya arasında münasibətlərin kəskinləşməsi, eyni zamanda Türkiyənin Qarabağ məsələsində Azərbaycana dəstəyini növbəti dəfə ifadə etməsi fonunda baş verir. Xəbər verildiyi kimi, bundan əvvəl Rusiya mənbələri prezident Vladimir Putinin Müdafiə Nazirliyinə təcili olaraq Ermənistandakı hərbi qruplaşmanı gücləndirmək və Türkiyə-Ermənistan sərhədinə S-400 zenit-raket sistemləri, "Krasuxa" radioelektron mübarizə vasitələri, digər döyüş texnikasını yerləşdirmək barədə əmr verdiyini bildirmişdi. İndi Ermənistana əlavə döyüş vertolyotlarının göndərilməsi bu əmrin icrasının başlamasını göstərir.

**Bildirilir ki, Rusiyanın İrəvan yaxınlığındakı Erebuni hərbi hava bazasına artıq Mi-24P, Mi-8T vertolyotları çatdırılıb, ancaq ilin sonuna qədər vertolyotların növbəti partiyası da göndəriləcək.** "Vertolyotlar Rusiyanın aviasiya birləşməsinin MiQ-29 qırıcılarının yanında xüsusi dayanacaqlarda yerləşdirilib. Bu ay ərzində aviasiya vasitələrinin cəmləşdirilməsi davam edəcək, daha sonra pilotlar planlı uçuşlara başlayacaq" - Cənub Hərbi Dairəsindən bildirilib.

**Erebuni hərbi bazası 1995-ci ildən fəaliyyət göstərir, orada Rusiyanın 18 MiQ-29 qırıcısı cəmləşdirilib.** Rusiyanın Ermənistana əlavə hərbi qüvvələr cəmləşdirməyə başlaması həm də Qarabağ münaqişəsi zonasında vəziyyətin növbəti dəfə kəskinləşdiyi bir vaxtda baş verir. Ehtimal olunur ki, Rusiya Ermənistana əlavə qüvvələr cəmləşdirməklə Türkiyəyə güc nümayiş etdirmək istəyir, eyni zamanda mesaj verir ki, Türkiyənin regiondakı müttəfiqinə hərbi dəstək verərək Qarabağ münaqişəsi ətrafındakı status-kvonu dəyişdirməsi istisnadır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015



# Sərdar Cəlaloğlunun QMİ-ni ləğv təklifi birmənalı qarşılanmadı

**ADP sədri Sərdar Cəlal oğlu Azərbaycanda dinlə bağlı ortaya çıxan problemlərin günahkarı kimi Qafqaz Müsəlmanları İdarəsini (QMİ) saydığını bildirib. Buna görə də İdarənin ləğvini tələb edib.**

"Yeni Müsavat"a açıqlama verən ADP sədri bu qurumun Sovet dönəmindən qaldığını da vurğulayıb: "Sovet dövründə Qafqaz Müsəlmanları İdarəsi Rusiyanın bir idarəsi idi. Əslində İslamda belə bir idarə üsulu yoxdur. Ateizmi təbliğ etmiş bir dövlətin yaratdığı idarə nəyə lazımdır indi?! Qafqaz Müsəlmanları adlı idarə şəriətə, İslama uyğun olmayan bir qurumdur. İndi də hökumətin əlinə işləyir deyə, onu saxlayırlar. Bu qurum vətəndaşların dini baxışlarının düzgün istiqamətləndirilməsində heç bir rol oynaya bilmir. Odur ki, Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır. Ölkədə dini məsələləri yalnız bir dövlət qurumu - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirməlidir. Bu qurum nazirlik statusundadır. Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır, onun bir sıra işçiləri Dini Komitədə müvafiq şöbələrdə işə götürülməlidir. Din sahəsində çox ciddi islahatlara ehtiyac var. Allahşükür Paşazadənin idarəsi nəyə lazımdır? Şeyxin statusunun İslam dininə heç bir aidiyyəti yoxdur".

S.Cəlaloğlunun bu təklifi birmənalı qarşılanmayıb. ADP sədrinin bu fikrinə münasibət bildirən **deputat Fazil Mustafa** indiki şərtlərdə QMİ-nin ləğvi məsələsinin real olmadığını dedi: "Siyasətçilərin problemlərə öz baxışı olur. Amma indiki şərtlərdə QMİ-nin ləğvi real deyil. O baxımdan ki, müəyyən dərəcədə dövlətin din sistemi daha çox bu qurum üzərinə oturulub. Amma dövlət özü də bu quruma müəyyən dərəcədə nəzarət etməlidir ki, cəmiyyətdə nüfuzlu savadlı adamlar ən azı şeyxin çevrəsində olsunlar ki, bütün problemləri münasibət daha səviyyəli bildirilsin, daha tez müdaxilə oluna bilsin. Təbii ki, şeyxin özünün də ölkədə nüfuzu, müəyyən hadisələrə təsir gücü var. Amma çevrədə bu proseslərə müəyyən dərəcədə doğru izah verən, onları cəmiyyət qarşısına çıxa biləcək, nüfuzu ilə müəyyən problemləri həll edə biləcək kadrların çoxluğundan danışmaq olmaz. Bu, şeyxin özünə də müəyyən dərəcədə problemlər yaradır. Ona görə də bu qurumda daha savadlı, hazırlıqlı kadrların olmasına ehtiyac var. Amma ləğvi məsələsini mən aktual hesab eləmirəm. Çünki bu məsələnin çözüm yolu deyil. Burada keyfiyyətcə müəyyən prosesləri irəli aparma imkanı var. Yəni bunu düşünmək lazımdır. Məncə, belə olarsa, bu idarənin adından islama zidd olan fəaliyyətlərə qarşı daha aktiv mübarizə olar. Aktiv dini icmalarla əməkdaşlıq da əlaqələr yaranar və bu problemlərdə bu səviyyədə yaşanmaz".



**Fazil Mustafa:** "Dövlətin din sistemi daha çox bu qurum üzərinə oturulub"



**Bəhruz Camal:** "Sərdar Cəlaloğlu birmənalı yanaşma sərgiləyir"

**İlahiyyatçı Bəhruz Camal** isə ADP sədrinin bu cür çıxışlarını ciddi hesab etmədiyini bildirdi: "Sərdar Cəlaloğlu keçən dəfə ki, yanaşmalarında olduğu kimi yenə də birmənalı yanaşma sərgiləyir. Bu da Sərdar müəllimin İslami qaynaqlardan ətraflı xəbərdar olmamasının göstəricisidir. Bu ancaq söz toplusu, söz oyunu oynamaqdan başqa bir şey deyil. Nəzərinizə çatdırım ki, Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri məhz 1990-cı ilin faciəli 20 yanvar gecəsində heç kimin edə bilmədiyi işi görmüşdü. Həmin dövrlərdə xaos vəziyyətində şeyxin xalq üçün bilavasitə xidməti olmuşdu. Sərdar Cəlaloğlu deyir ki, bu idarə Çar Rusiyasının dönəmində yaradılıb və onlara işləyən bir qurum olub, İslamda belə bir idarəçilik sistemi yoxdur. O zaman Sərdar Cəlaloğlu buyursun İslamdakı idarəçilik sisteminin konsepsiyasını təqdim etsin, sekulyar qanunlarla idarə olunan ölkəmizdə dini idarə etmənin də konsepsiyasını təqdim etsin. Baxaq görək Sərdar müəllim hansı dini konsepsiya ilə ölkəni idarə eləmək istəyir. Əslində belə söz yığını yığıb pafoslu çıxışlarla çox şey demək olar. Amma Sərdar Cəlaloğlu bu günə kimi dini camiyədə, yaxud Azərbaycanda dinin inkişafı sahəsində heç bir real konsepsiya təqdim etməyib. Real çıxış yolu təqdim etmədiyi təqdirdə isə dinə yönəlik tənqid məncə əlavə aqressiyaya səbəb olacaq. Sərdar Cəlaloğlu Qafqaz Müsəlmanları İdarəsini ateistlərin yaratdığı bir qurum kimi təqdim edir. Bu gün sizin kimi adı müsəlman olub düşüncədə ateist olan kifayət qədər müsəlmanlarımız var. Məsələ bu qurumu kimlərin yaratmasından getmir. Bu, sekulyar qaydalarla idarə olunan Azərbaycanda dinin dövlətdən ayrı hesab olunduğu bir məmləkətdə idarəçilik üçün ən yaxşı sistemdir".

**İlahiyyatçı bütün müsəlman ölkələrində dini qurumların olduğunu dedi:** "İslam ölkələrinin heç birində belə bir qurum olmaması məsələsinə gəlincə isə Sərdar bəy əgər Türkiyəni nəzərdə tutursa, orada Diyanət İşləri Məqamlığı var. Əgər Pakistanı nəzərdə tutursunuzsa, Pakistan dünyəvi qayda qanunlarla idarə olunmaqla yanaşı, Qazilər Şurası, İslam Məhkəməsi var. Əgər İordaniya, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı və bu kontengində yerləşən İslam ölkələrini nəzərdə tutursa, onların da hamısında şəriət məhkəmə hüquq sistemi mövcuddur - baxmayaraq ki, müəyyən mənada konstitusion dövlət quruculuqları da var. Düzdür, bəziləri krallıq, əmirlikdir. Amma yenə də onlarda İslamı idarə etmə var. Keçən müsahibəmdə də demişdim ki, Sərdar Cəlaloğlunun bu çıxışlarını ciddi saymıram. Əgər hansısa iradı varsa, ortaya çıxış yolunu da göstərsin".

❑ **Günel MANAFLI**

# Neft 30 dollara qədər ucuzlaşa bilər

## Ekspertlər kritik hədd xəbərdarlığı edir...



**Dünya birjalarında neftin qiyməti hərraclarda daha da aşağı düşərək Azərbaycan və bir çox hasilatçı ölkələr üçün kritik səviyyəyə - 40 dollara yaxınlaşıb. Ekspertlər bildirirlər ki, bu ucuzlaşma dalğası ötən həftə OPEC-in qəbul etdiyi qərarın təsiri ilə başlayıb.**

Həmin toplantıda hasilatın azaldılmasına dair qərar qəbul etmək mümkün olmayıb. Ekspertlər qeyd edilər ki, OPEC ölkələri yekdil qərar vermək və bazara təsir etmək imkanlarını itirib. Nəticədə isə London birjasında "Brent" markalı neft son 6 ildə ən aşağı qiymətə satılıb.

Ekspertlərə görə, hazırda mərkəzlərdən "Goldman Sach"ın proqnozu özünü doğruldur və neftin 30 dollara qədər düşəcəyi istisna edilmir. Əksər ekspertlər bildirirlər ki, hazırkı 40 dollar kritik həddir və yeni bir iqtisadi böhranın başlaması deməkdir.

"Bloomberq"in yazdığına görə, OPEC-in qərarına əsasən, sutkalıq kvota formal olaraq 31,5 milyon barel müəyyənləşib. İndiyədək bu kvota 30 milyon barel təşkil edirdi. Əslində son zamanlar OPEC-in qeyri-formal hasilatı 31,5 milyon barelə çatmışdı. 2009-cu ildə OPEC-in üzvlüyündən çıxan və bu il yenidən müraciət edən İndoneziyanın kvotası daxil edilməyib. Hazırda OPEC-in üzvlüyünə 12 dövlət daxildir: İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı, Venesuela, Qətər, Liviya, Birləşmiş Ərəb Əmirliyi, Əlcəzair, Nigeriya, Ekvador və Anqola.

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə bildirir ki, Venesuela hasilatın azaldılmasına, qiymətin heç olmasa 60-65 dollara qədər qalxmasına çalışır: "OPEC-də əsas söz sahibi Səudiyyədir, gündəlik hasilatı 10 milyon bareldir. OPEC ölkələri ümumilikdə gündə 31-32 milyon barel neft hasil edirlər, yəni tək Səudiyyə bu kvotanın 30 faizinə sahibdir. Bu ölkənin indiki şəraitdə hasilatı azaltmağa qərar verməsi mümkün görünmürdü". Ekspertin sözlərinə görə, OPEC-ə daxil olmayan ölkələr, o cümlədən Rusiya hasilatı azaltmır, əksinə artırır ki, qiymətin düşməsini hasilatın artması ilə az da olsa kompensasiya edə bilsin: "Səudiyyə Ərəbistanının da, Rusiyanın da əsas hədəf bazarları eynidir, yəni ərəblər hasilatı azaltsalar, onların çıxdığı bazarlara ruslar girəcək, bunun heç bir effekti olmayacaq. İkincisi, Səudiyyə Ərəbistanının ikinci böyük rəqibi İrandır, sanksiyaların götürülməsindən sonra İran aqressiv şəkildə bazara daxil olmağa hazırlaşır. İranın da əsas hədəfi Avropa və Asiya bazarlarıdır ki, burada da rəqibi Səudiyyədir. Ərəblərin İrana qarşı aqressiv münasibətini, mane olmağa çalışmaqlarını nəzərə alsaq, Səudiyyə Ərəbistanı hasilatı azaltmaqla İrana daha çox yol aça biləcəyini düşünür. Buna görə də azaltmaq istəmir. İran OPEC-dəki payından 2011-ci ildə məhrum edilib, indi öz sutkalıq 2 milyon barellik kvota payını geri istəyir. Səudiyyə Ərəbistanının digər rəqibi isə ABŞ-dır. Amerikada "slans nefti" inqilabı davam edir, hasilat son 10 ildə 3 dəfə artıb. Bu gün ABŞ dünyada neft hasilatına görə 3-cü yerdədir - gündəlik 9,3 -9,5 mln. barel. "Slans neftinin" maya dəyəri bahadır. Səudiyyə Ərəbistanı qiymətlərin düşməsindən istifadə edərək, bazarda olan ABŞ şirkətlərini də vurmaq istəyir, amma alınmır. Bu gün slans neftinin maya dəyəri sürətlə aşağı düşür, bu tip quyularının qazılması və hasilatın başlanması cəmi 10-15 gün çəkir. Yəni sabah qiymət yenidən 60 dollar olsa, ABŞ-da slans nefti quyularının sayı sürətlə artacaq, hasilat çoxalacaq, qiymət yenə aşağı düşəcək. Məhz buna görə Səudiyyə Ərəbistanı hasilatı azaltmaqla ABŞ şirkətlərinə yeni nəfəs verəcəyindən çəkinir".

**Ekspertin sözlərinə görə, bu işin siyasi tərəfi də var:** "Bu gün bölgədə Səudiyyənin əsas düşməni Rusiya və İrandır. Səudiyyə Ərəbistanı hasilatı azaltsa qiymət qalxacaq, bundan da Rusiya və İran daha çox qazanacaqlar. Bu məsələni də nəzərə alsaq, OPEC-də hasilatla bağlı kvotanın artırılması gözlənilirdi". O, qeyd edib ki, yaxın 10-15 günə neftin qiyməti 35-36 dollara qədər düşəcək: "İndiyədək OPEC-in rəsmi kvotası 30,5 milyon barel olsa da, amma gündəlik hasilatları 32 milyona yaxın idi, yəni kvotalara əməl olunmurdu. OPEC-in rəsmi bəyanatından sonra neft bazarı bir müddət tərəddüd keçirəcək, ciddi oynamalar olacaq, amma kvotalar rəsmən azalmasa, birinci gündən sonra qiymət düşməyə başlayacaq. Bir neçə günə brent markalı neft 35-36 dollara qədər enəcək. Onu da nəzərə almaq lazımdır ki, dünyada gündəlik hasilat 90-93 mln. bareldir, onun cəmi 32 milyon bareli OPEC-in payına düşür. Yəni kartelə daxil olmayan ölkələr, o cümlədən Rusiya, ABŞ kimi neft ölkələri hasilatı azaltmağı düşünmürlər. Ona görə də gələcək illərdə neftin qiyməti ən yaxşı halda 55-65 dollara qədər qalxa bilər. Amma bu artımdan öncə "dib" qiymətlər olacaq".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

# "2016-cı il büdcəsi yığım və qənaət büdcəsidir"

## **Ekspert:** "Dövlət büdcəsində 1,7 milyard manat kəsirin olacağı gözlənilir"



**Prezident İlham Əliyev 2016-cı il dövlət büdcəsini təsdiqləyib. Fins.az-ın məlumatına görə, 2016-cı il dövlət büdcəsinin gəlirləri 14 566 000,0 min manat, xərcləri 16 264 000,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 13 799 654,5 min manat, yerli gəlirləri 766 345,5 min manat, mərkəzləşdirilmiş xərcləri 14 722 749,0 min manat, yerli xərcləri 1 541 251,0 min manat) məbləğində təsdiq edilib.**

Dövlət büdcəsi kəsirinin yuxarı həddi 1698 000,0 min manat, icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 19 956 524,8 min manat məbləğində müəyyənləşdirilib.

Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan, 2016-cı il icmal büdcəsinin kəsiri 9 947 954,7 min manat məbləğində müəyyən olunub.

Bundan əlavə prezident 2016-cı ilin dövlət büdcəsinin təsdiqlənməsi ilə bağlı fərmanında dövlət qurumlarına müxtəlif məsələlərlə bağlı tapşırıqlar verib. Dəyişikliklər gömrük tariflərinə, bank əmanətlərinə, fermerlərə güzəştlərə, dövlət mülkiyyətinin özəlləşdirilməsinə və sair sahələrə aid olacaq.

"Yeni Müsavat"a açıqlamasında ölkə başçısının tapşırıqlarını dəyərləndirən **iqtisadçı-alim Vüqar Bayramov** bildirdi ki, növbəti ilin büdcəsi qənaət prinsipi üzərində qurulub: "Nəzərə alsaq ki, 2016-cı ilin dövlət büdcəsi birmənalı şəkildə qənaətə söykənir və gələn il hökumət qənaət edəcək və yığım Azərbaycan büdcəsinin əsas siyasəti olacaq. Bu həm özünü dövlət rezervlərinə qənaət edilməsində göstərəcək, eyni zamanda kapital və infrastruktur xərclərinin azalması da əsas hədəflərdən biridir. Bu baxımdan 2016-cı ilin dövlət büdcəsi yığım və qənaət büdcəsidir. Sözsüz ki, hökumət gələn il sosial ayırmalar istisna olmaqla, əsas istiqamətlər üzrə qənaətə üstünlük verəcək. Diqqətçəkən əsas məqam ondan ibarətdir ki, ölkə prezidenti hökumət qarşısında konkret vəzifələr müəyyənləşdirib. Bu vəzifələr birbaşa ölkə iqtisadiyyatına təsir göstərən amillərdir".

**Ekspertin sözlərinə görə, bu tapşırıqlardan ən əsası fermerlərə yardım mexanizminin dəyişdirilməsi, eləcə də subsidiyaların verilməsində şəffaflığın artırılması ilə bağlıdır:** "2016-cı il üçün bu vacibdir. Çünki gələn il Azərbaycan üçün kənd təsərrüfatı sektoru prioritetdir. Neftin dünya bazarındakı qiymətində azalmaların davam etdiyini nəzərə alsaq, hökumət çalışacaq ki, azalan vəsaiti bir sıra qeyri-neft sektorundan, əsasən aqrar sektordan qazanılan vəsaitlər hesabına kompensasiya etsin. Bu baxımdan təbii ki, aqrar sektorun inkişaf prioriteti önəmlidir. Bu mənada həm fermerlərə yardımların artırılmasına, həm də yardım mexanizminin dəyişdirilməsinə ehtiyac var.

Hələ 2010-cu ildə Kənd Təsərrüfatı Nazirliyi təklif vermişdi ki, Azərbaycanda subsidiyaların verilməsi qaydaları dəyişdirilsin. Subsidiyalar indi hər hektara görə təqdim olunur. Məsələn, fermerlərin ikisi də eyni məhsulu istehsal edirsə, onlardan biri bir hektardan 3 ton, digəri isə 6 ton məhsul alırsa, mövcud qaydalara əsasən onların dövlət büdcəsindən aldığı vəsaitin həcmi eynidir. Halbuki, subsidiyanın həcmi birbaşa olaraq fermerin istehsal etdiyi məhsulun həcminə uyğun olaraq müəyyənləşməlidir. 6 ton məhsul istehsal edən daha çox subsidiya almalıdır. Bu təcrübə inkişaf etmiş ölkələrdə də tətbiq edilir. Onun üçün də daha çox subsidiyanın təqdim edilməsi bir stimullaşdırıcı amil olmalıdır. Bu fermeri stimullaşdırmalıdır ki, daha çox məhsul istehsal etsin. Çünki bu zaman artıq, daha çox məhsul istehsal edəndə dövlət büdcəsindən daha çox subsidiya ala biləcək. Dövlət büdcəsindən subsidiyaların verilməsi mexanizminin tamamən şəffaf olması olduqca vacibdir. Çünki aqrar sektorun maliyyələşməsində subsidiyalar həlledicidir. Çünki aqrar sektorda subsidiyaların həcmi 14 faizdən çoxdur. Bu da ciddi bir rəqəmdir".

**V.Bayramov qeyd etdi ki, dövlət rezervlərinin, xüsusən Dövlət Neft Fondunun rezervlərinin toxunulmaması və ya az toxunulması hədəfdə olacaq:** "Güman olunur ki, dövlət xarici və daxili borclanmaya gedəcək. Daxili borclanma limitinin artırılması da bundan xəbər verir. Xarici borclanmaya getməklə xarici valyutaya olan tələbatın ödənilməsinə çalışılacaq. Daxili borclanma isə daxildə bir sıra dövlət qurumlarının borclanması hesabına maliyyə vəsaitlərinə olan tələbin ödənilməsi baxımından önəmli olacaq. Bu baxımdan 2016-cı ildə Azərbaycanın həm daxili, həm də xarici borclarının həcminin artacağı gözlənilir. Bu eyni zamanda, özünü ümumdaxili məhsulda xarici borcun payının artması formasında göstərəcək".

**İqtisadçının fikrincə, bu qərarın ən əhəmiyyətli məqamlarından biri də bank sektoru ilə bağlıdır ki, bank sektoru 2016-cı ilə heç də yaxşı göstəricilərlə daxil olmur:** "Mərkəzi Bankın devalvasiya qərarından sonra manatla olan əmanətlər banklardan geri çəkildi. Vətəndaşlar pullarını xarici valyutaya çevirərək evlərdə saxlamağa üstünlük verdi ki, bu da xarici valyutaya olan tələbatı artırdı. Bu da Mərkəzi Bankın valyuta rezervlərini 6,2 milyard manata qədər azalmasına gətirib çıxardı.

Bu baxımdan əmanətlərin qorunması sisteminin möhkəmləndirilməsi ilə bağlı tapşırıq var. Eyni zamanda, banklarda olan əmanətlərin əmanətçilər tərəfindən vaxtlı-vaxtında istədikləri vaxt geri götürülməsinin təmin edilməsi, həm də banklara əmanətlərin yerləşdirilməsi ilə bağlı stimulun formalaşmasında özünü göstərməlidir. Bu gün xarici valyuta ilə də banklarda əmanətlərin yerləşdirilməsinə maraq azdır. Çünki bir tərəfdən xarici valyuta üzrə əmanətlərə verilən faiz dərəcələri aşağıdır, digər tərəfdən bir sıra bankların öz əmanət öhdəliklərini yerinə yetirə bilməməsi vətəndaşlarda banklara inamın azalmasına gətirib çıxarır. O baxımdan bank sektoru gələn il üçün həlledici olacaq. Çünki bank sektoru iqtisadiyyatın lokomotividir. Xüsusən, bank sektorunun maliyyə təminatının artırılması da iqtisadiyyata mənfi təsir göstərəcək. Bu baxımdan kifayət qədər ciddi tapşırıqlar var".

**"Gömrük rüsumlarının artırılması da gündəmdədir" deyən iqtisadçı vurğuladı ki, hökumət 2016-cı ildə vətəndaşların xərclərini birbaşa artıracaq vergi və rüsum artımlarına getməməyə çalışacaq:** "Bununla belə, dövlət büdcəsinə daxilolmaların artırılması üçün daxili vergi dərəcələrinin artırılmasını həyata keçirəcək. Bütövlükdə, 2016-cı il asan il olmayacaq. Qənaət prinsipi əsas olacaq. Sözsüz ki, bu ilin iqtisadi nəticələri növbəti ili də istiqamətləndirəcək. Növbəti ilin iqtisadi vəziyyəti xüsusən də sahibkarlığın dəstəklənməsi, gömrük sistemində liberallaşmanın aparılması və digər islahatlardan birbaşa asılı olacaq. Hər halda 2015-ci ilin son aylarında aparılan islahatlar, xüsusən iş adamlarının fəaliyyətinə müdaxilələrin minimuma endirilməsi, sahibkarlara dövlət dəstəyinin artırılması ilə bağlı nikbinlik var. Bu baxımdan 2016-cı ildə iqtisadiyyatı neftdən gələn gəlirlər deyil, aparılacaq islahatlar nəticəsində formalaşacaq maliyyə resursları müəyyənləşdirəcək. 2016-cı ilin dövlət büdcəsinin gəlirləri 14,6 milyard manat olacaq, xərcləri isə 16,3 milyard manat olacaq. O baxından dövlət büdcəsində 1,7 milyard manat kəsirin olacağı gözlənilir".

❑ Nərgiz LİFTİYEVA



# Azərbaycanda məscidlərə kameralar quraşdırılır

**Dekabrın əvvəllərində baş verən Nardaran olaylarından sonra paytaxtdakı və bölgələrdəki əksər məscidlərə kameralar quraşdırılıb. Bu barədə musavat.com-a məscidlərə gedən dindarlardan və digər mənbələrdən məlumat daxil olub. Məlumatda o da vurğulanır ki, bu proses tezliklə bütün məscidləri əhatə edəcək. Bəzi dindarlar iddia edirlər ki, kameraların quraşdırılması məscidlərə namaz üçün gələn insanları qorxuya salır və bu səbəbdən gələnlərin sayı azalıb.**

Qeyd edək ki, məscidlərə kameraların quraşdırılması uzun müddətdir ki, müzakirə mövzusudur. Bir müddət əvvəl millət vəkili Fazil Mustafa da bunun vacibliyini bildirmişdi. Qaraçuxur məscidinin yandırılmasından sonra bu məsələ daha da aktuallaşmışdı.

Hətta **Dini İşlər Üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** da qeyd etmişdi ki, ölkənin bəzi məscidlərində radikallar tərəfindən ruhanilər təzyiqlər olunduğu nəzərə alaraq, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün bütün məscidlərə kameralar quraşdırılacaq: "Məscidə gələn şəxs burada yalnız namaz qıla bilər. O, moizə oxuya bilməz, qanun da buna icazə vermir. Kim olursa-olsun, əgər kimsə gəlib məsciddə hegemonluq edibsə, deməli, axund zəiflik nümayiş etdirib",- deyə M.Qurbanlı izahat da vermişdi. Komitə sədri bir neçə gün əvvəl bu fikrini bir daha təkrarlayıb. O, qeyd edib ki, Lənkəran rayonunda, habelə bir çox rayonlarda fəaliyyət göstərən məscidlərin axundlarına radikal qruplar tərəfindən təzyiqlər edilib və nəticədə axundlar zəiflik göstərərək minbəri radikal qruplara verib: "Bu halların baş verdiyi məscidlərin siyahısı bizdə var. Kim olur olsun, lap 50 nəfər onlar, minbəri və mikrofonu heç kimə verməyin. Məscid müqəddəs yerdir. Məscidin minbərini heç kimə, o cümlədən də radikal qruplara vermək olmaz. Əgər radikal qruplar sənin əlindən minbəri alırsa, deməli sənin orada qalmağa mənəvi haqqın yoxdur".

**Bir məsələni qeyd edək ki, qardaş ölkə Türkiyədə əksər məscidlərə kameralar quraşdırılıb.**

❑ Röya RƏFİYEVA



# Tramp: "Müsəlmanlar ABŞ-a buraxılmasın"

**Donal Tramp verdiyi növbəti təkliflə yenə gündəmə gəlib. Musavat.com xəbər verir ki, ABŞ-ın Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Trampın hədəfində bu dəfə müsəlmanlar olub.**

Belə ki, əvvəllər qaçqınların girişini əngəlləmək üçün ABŞ-ın cənub sərhədinə divar hörülməsini təklif edən Tramp bu dəfə "müsəlmanlar ABŞ-a alınmasın" deyə, çağırış edib.

Anketlərdə respublikası namizədlər sırasında öndə olan Tramp açıqlamasında "Amerikalı təmsilçilər nələr olub bitdiyini həll edənədək müsəlmanlar üçün qapıların tamamilə bağlanmasını təklif edirəm" deyib.

Trampın müsəlmanlara qarşı irqçi fikirlərinə Ağ Ev və respublikaçılardan neqativ reaksiya verilib.

❑ Aygün SƏFƏRLİ

YENİ MÜSAVAT
N 274 (6302) 8 dekabr 2015

# Bakını su ilə təmin edən mağistral kəmərlərdən biri partladı

**Nizami rayonu, Çobanzadə küçəsi 45 ünvanında magistral su kəməri partlayıb, ərazi qəzalı vəziyyətə düşüb. Kəmərin partladığı ərazinin ətrafını su basıb. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, kəmərdə əmələ gələn nasazlıq yaxınlıqdakı həyətləri su basmasına gətirib çıxarıb.**



“Azərsu” ASC əməkdaşları kəmərdəki nasazlığı aradan qaldırmaq üçün əraziyə xüsusi texnika gətiriblər.

“İllərdir ki, biz həmin ərazidən magistral su kəmərinin keçdiyini deyirik. Bizi məhkəməyə verib süründürürlər. Dekabrın 7-də dediklərimizin həqiqət olduğu bir daha sübut olundu. Kəmər partladı, bütün ətrafı, bizim müəssisənin ərazisini də su basdı”. Bu sözləri “Yeni Müsavat”a kəmərdəki nasazlıq zamanı həyətini su basmış **“Buxar” kollektiv müəssisəsinin müdiri Oqtay Əliyev** deyib.

**O bildirib ki, mübahisəli ərazidə illərdir belə xoşagəlməz hallar yaşanır:** “Vaxtilə kəmərin üstündə tikinti aparmışdılar. ”Azərsu" ASC uzun-uzadı məhkəmələrdən sonra nəhayət, həmin tikililərin magistral kəmərin üstündə, mühafizə zolağında olduğunu və qanunsuz inşa edildiyini sübut etdi. Tikililər söküldü. Lakin kəmərlər yerin altında olsa da, üzərindəki ağırlığın nəticəsində zədələnməsi baş verib. Hər dəfə kəmərlər partlayır və biz suyun altında qalırıq".

Qeyd edək ki, bir qədər əvvəl əraziyə Bakı Apelyasiya Məhkəməsinin İnzibati İqtisad kollegiyasında hakim Rövşanə Vəliyevanın sədrliyi ilə yerli baxış keçirilmiş, ərazidən magistral kəmərlərin keçib-keçmədiyi aydınlaşdırlmasına yönəlik addımlar atılmışdı. Məhkəmədə “Azərsu” xəritələri araşdırlarkən məlum olmuşdu ki, dünən qəza baş verən ərazidən Bakının Şərq hissəsinin - Nizami, Xətai, Səbayel, Suraxanı və Sabunçu rayonlarının içməli su ilə təmin edən magistral su kəmərləri keçir. Nəhayət, məhkəmə “Azərsu” ASC və digər tərəflərin iddialarını təmin edərək ərazidə tikinti işlərini aparılmasını yasaqlayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*






## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34




## “ASAN xidmət” də Yağmurun yaşaması kampaniyasına qoşuldu

### Çarəsiz atanın fəryadı: “Balama kömək edin”

**3 yaşında ağır xəstəliyə düçar olan Yağmur Məmmədova haqqında daha öncə də yazmışdıq. O, ağır xəstəliyə tibbi terminlərlə yazsaq, serebral kortikal sulkustezə düçar olub. Yaxınları və sadə insanlar bu xəstəliyə beyin quruması adı verib.**



Bu barədə sosial şəbəkələrdə xəbər və foto yayılanda, “Yeni Müsavat” qəzeti körpənin həyatını xilas etmək üçün xəbər hazırladı. Həssas və xeyirsevər insanlar bu xəbərdən sonra Yağmura dəstək kampaniyası başlatdılar.

Yaxınları deyir ki, Yağmurun müalicəsi yalnız Türkiyə və ya Amerikada mümkündür. Ailənin isə övladını əməliyyat üçün bu ölkələrdən birinə aparmağa imkanı yoxdur. Xeyirxah insanlar və cəmiyyət tərəfindən başladılan kampaniyada müəyyən qədər pul yığılsa da, məbləğ hələ ki, uşağın əməliyyat edilməsinə kifayət etmir. Balaca qızcığazın atası Bəxtiyar Məmmədov körpə qızının ağrılara dözə bilmədiyini və hər gün gözlərinin önündə əridiyini deyir: “Xahiş edirəm, balama kömək edin. Bir valideyn üçün həyatda onun övladının gözünün qarşısında hər gün ölümə yaxınlaşdığını görmək qədər acı heç nə ola bilməz. Qızım ”Nevroloji xəstəxana"da yatırdı. Artıq heç bir dərman ona fayda vermirdi. Ən güclü narkotik tərkibli keyləşdiricilər belə qızımın ağrılarını dindirmirdi. Artıq dərmanları əlacsız, tutar - tutmaz deyə verirdilər. Mən də qorxdum ki, dərmanlar ona bir az da pis təsir edər. Həkimlər dedi ki, uşaq burada qalsa öləcək. Aparın Türkiyəyə ya da Amerikaya. Qızımın əməliyyatı yalnız bu ölkələrdə mümkündür. Türkiyədə əməliyyat etdirməyə isə 8000 min manat pul lazımdır. Biz də əlacsız qalıb uşağı xəstəxanadan çıxardıb yaşadığımız rayona, Yevlaxa gətirdik. Uşaq hazırda ev şəraitindədir. Hər gün əzab çəkir. Yaxşı insanların sayəsində xeyli pul toplanıb. Bank hesabında 3 min manata yaxın pul yığılıb. 3 min manat da sinif yoldaşım kömək edəcək. Bu həftə uşağı Türkiyəyə aparmasaq vəziyyəti yaxşı olmayacaq".

Balaca Yağmurun Türkiyəyə aparılması üçün lazım olan sənədlərin tezləşdirilməsi və bu zaman lazım olan rüsumdan azad olunması üçün redaksiyamız “ASAN xidmət”lə əlaqə saxladı. **“ASAN xidmət”in mətbuat xidmətinin rəhbəri Anar Hüseynov** məsələyə çox həssaslıqla yanaşdı və əlindən gələn köməyi edəcəyini bildirdi. A.Hüseynov bu ailənin pasportlara görə ödəməli olduğu rüsumu “ASAN xidmət” əməkdaşlarının öz aralarında toplayacağını bildirdi. Daha sonra Yağmurun atası B.Məmmədovla yenidən əlaqə saxladıq. B. Məmmədov “ASAN xidmət”in valideynlər və xəstə Yağmur üçün lazım olan pasportu və digər sənədləri eyni gündə verəcəyini dedi.

Bu cür həssas yanaşmasına görə biz də qəzet adından “ASAN xidmət”ə öz təşəkkürümüzü bildiririk.

Yağmurun həyatının xilas edilməsinə yardım etmək istəyənlər aşağıdakı bank hesablarına pul köçürə və ya uşağın atası ilə əlaqə saxlaya bilərlər:

**Uşağın atası Bəxtiyar Məmmədov:** 0702209861
**Bank hesabı**: Kapital Bank ASC-in 1 saylı Nəsimi filialı
**Filialın kodu**: 200112
**VOEN:** 9900003611
**SWIFT kod**: AIIBAZ2X
**Müxbir hesab**: AZ37NABZ 01350100000000001944
**Məmmədov Bəxtiyar Çingiz oğlu**
**Hesab nömrəsi**: AZ97AIIB38010019441105261111

❑ **Günel MANAFLI**

## Bakıda iki uşaq anası özünü asdı

**Bakıda intihar hadisəsi baş verib. Binəqədi Rayon Polis İdarəsindən virtualaz.org-a bildiriblər ki, dekabrın 7-də 1991-ci il təvəllüdlü, iki uşaq anası Nəbiyeva Nərmin İlham qızı “28 May” qəsəbəsində yerləşən evində özünü asıb.**

Həyat yoldaşı onun meyitini asılmış vəziyyətdə səhər saat 7-də aşkar edib. İlkin araşdırma zamanı məlum olub ki, intihardan əvvəl ailədə konflikt yaşanıbmış. Hazırda istintaq hadisənin konkret hansı səbəbdən baş verdiyini araşdırır.

YENİ MÜSAVAT
N 274 (6302) 9 dekabr 2015

**Günəşli yatağının 10-cu Dərin Dəniz Özülündə baş verən faciədən 5 gün keçir. Azərbaycan və dünya hələ də bu qəzadan danışır, onun detalları mediada müzakirə olunur, ekspertlər rəy bildirirlər. Amma tarixi faktlar sübut edir ki, dünya miqyasında neft qəzaları tarixin müxtəlif dönəmlərində olub və böyük səs-küy yaradıb.**

# Dünya tarixində səs-küylü neft qəzaları

## "Günəşli" faciəsi ilk deyil; Şimal dənizindəki platformada qəza zamanı 226 nəfərdən cəmi 59-u xilas edilmişdi...



Son 20 ilin ən böyük neft qəzaları adı altında aşağıdakı qəzaların siyahısı verilib. Bu, bir çox mənbələrdə aşağıdakı qaydada sıralanıb.

**Birincisi, 1990-cı ildə Küveytdə baş verəndir.** O zaman İraqla beynəlxalq güclər arasında savaş gedirdi. Onların hücumunun qarşısını almaq üçün iraqlılar dənizə neft tökmüşdürlər ki düşmən desantının sahilə çıxa bilməsin. Bunun sonu: dənizə 1,5 milyon ton axıdılıb, 1,5 kv km ərazi zibillənmiş, sahilin 600 km neft içində idi. Bu kimi olayın qarşısını almaq üçün Amerika təyyarələri bir çox neft mədənlərini bombalanıb, nəticədə sonunda yanğınlar baş verib.

**1997-ci ildə rus gəmisi "Naxodka" Çinlə Kamçatka yarımadası arasında batıb, ondan 19 min ton neft suya axıdılıb.** Nəticədə 50 kv km su ləkəsi yaranıb.

1998-ci ildə Liberiya gəmisi olan "Pallas"dan Danimarka yaxınlıqlarında çox miqdarda neft suya axmış və yanğın baş verib. Almaniya, Danimarka, Hollandiya sahilləri neftə boyanıb.

2000-ci ildə Braziliyada Rio de Janeyro şəhəri yaxınlığında neft kəmərindəki qəza sonucunda okeana 1,3 ton neft dağılıb. Bu ərazidə buna bənzər daha bir qəza 9 il sonra baş verib.

2002-ci ildə İspaniya gəmisi "Prestij" qəzaya uğramış, dənizə 90 min ton neft axıdılıb.

Pakistan sahilləri yanında 2003-cü ildə "Tasman Spirit" gəmisinin qəzaya uğraması sonu okeana 55 min ton neft tökülüb. Suda neft ləkəsinin diametri 40 kv km qədər olmuş, çoxlu dəniz heyvanları, balıqlar və quşlar ölüb.

2006-cı ildə Filippin gəmisinin qəzaya uğraması nəticəsində sahillərin 300 km neftə bürünüb, 500 hektar meşə, balıqlar, heyvanlar məhv olub. 15000 insan zərər çəkib.

2007-ci ildə Rusiyanın gəmisinin Kerç boğazında qəzaya uğraması sonu 2000 ton mazut dənizə tökülüb. 30 000 quş ölüb.

Həmən ildə cənubi Koreyanın Tenan limanında qəza nəticəsində 15 min ton neft suya tökülüb. O zaman limanda duran gəmini orada işləyən kran deşib.

2009-cu ildə Rusiyanın Samara vilayətində baş vermiş gəmi qəzası sonu Volqa çayına 3 ton mazut tökülüb, suda neft ləkəsinin uzunluğu uzununa 12, eninə 35 km çatıb.

**2010-cu ildə Meksika körfəzində BP-nin dəniz mədənində baş verən qəza nəticəsində on minlərlə ton neft suya tökülüb, təbiətə, eləcə də ABŞ-la Meksika iqtisadiyyatına böyük ziyan vurulub. Bu ən böyük qəza idi.**

### Ən çox can alan qəzalar...

Digər tarixi mənbələrdə isə aşağıdakı qəzaların siyahısı var:

Tarix boyu ən çox can aparan faciə Şimal Dənizində -Piper Alpha neft platformasında baş verib. 6 iyul 1988-ci ildə qaz sızması və eləcə də şəxsi heyətin düşünülməmiş və inamsız qərarları nəticəsində həmin an platformada olan 226 nəfərdən cəmi 59-unun həyatını xilas etmək mümkün olub. Partlayışdan dərhal sonra buruqda neft və qaz çıxarılması dayandırılsa da, platformanın boru xətləri ümumi şəbəkəyə qoşulu olduğundan uzun müddət bütün işləri dayandırmağa qərar verilə bilməmişdi. Nəticədə bütün platformaları birləşdirən həmin karbohidrogen xətti yanğının xeyli müddət davam etməsinə səbəb olmuşdu.

**27 mart 1980-ci ildə Norveç neft ixracatı tarixində baş tutan ən dəhşətli faciələrdən biri baş verib.** Qəza hökumətə və ümumilikdə ölkənin neft sənayesinə ciddi zərbə vurub. Faciəyə əsas səbəb buruğun beş "ayağ"ından birinin materialının köhnəlmiş olması və sınması olub. Ümumilikdə platformada çalışan 212 nəfərdən 123-ü həlak olub. Buruq aşandan bir neçə saat sonra hadisə yerinə Norveç, Danimarka, Almaniya və Böyük Britaniyadan 7 təyyarə və 19 helikopter sağ qalanların, eləcə də ölənlərin axtarışına başlayıb. Bundan əlavə doqquz hərbi və 71 sərnişin gəmisi Şimal Dənizində güclü tufan şəraitində xilasetmə əməliyyatında iştirak edib. Onlar bu cür hava şəraitində cəmi 82 nəfərin həyatını ölümdən qurtara bilmişdi.

**25 noyabr 1979-cu ildə Bohai 2 qaldırımlı platforması batarkən 74 nəfər işçidən cəmi ikisi canını qurtara bilmişdi.** Çin və Koreya arasındakı körfəzdə öz işinə davam edən platforma 10 şkalalıq küləyə tap gətirməyərək fırtına nəticəsində suya qərq olmuşdu.

Hesabatlara əsasən, güclü dalğa ventilyator-nasosu yerindən çıxardaraq göyərtədə bir metrlik deşik açıb. İçəri daxil olan su platformanın tezliklə tarazlığının pozulmasına və suya qərq olmasına gətirib çıxarıb.

Bunlarla yanaşı, işçi heyətinin qəza vəziyyətinə hazırlığının aşağı səviyyədə olması əsas səbəblər arasında göstərilir. Xilasedici qurğudan düzgün istifadə etməyi bacarmayan personal adi evakuasiya prosedurlarına əməl edə bilmədiyindən faciəyə səbəb olub. Həmçinin, köməkçi dartıcı qurğular da bu cür qəza vəziyyətinə hazırlıqlı olmadığından heç bir halda vəziyyətdən çıxışa yardımçı ola bilməyib.

Həm sualtı zərbələr, həm qalıqların kəsilməsiylə aparılan xilasetmə əməliyyatlarına isə düz iki il (!) sonra - 1981-ci ilin aprelində qərar verilib. Bu faciə Çin hökumətini təbii fəlakətlərə qarşı qonşu dövlətlərlə gələcəkdə birlikdə hərəkət etməyə sövq edib.

**6 noyabr 1986-cı ildə baş vermiş qəza isə insan tələfatı sayına görə sayca səkkizinci ən böyük faciədir.** Hadisəyə səbəb Böyük Britaniyanın Sumburgh ərazisi yaxınlığında helikopterin aşması olub. Shell-in nəzarətindəki Brent ərazisi ilə Sumburgh arasında əməliyyatlar yerinə yetirən təyyarənin transmissiyasındakı nasazlıq onun əkiz fırlanğaclarının toqquşması ilə nəticələnib. Helikopterdəki 47 sərnişindən 45-i Şimal Dənizindəki qəza yerində həlak olub. Bu faciə Britaniya hökümətinin aviasiya qurğularında təhlükəsizliyin yoxlanılması yönündə ciddi addımların atılmasına səbəb olub. Dövlət əvvəlcədən aradan qaldırılmayan və tez-tez nəzarətdən keçirilməyən ən xırda nasazlıqların belə necə böyük fəlakətə səbəb olduğunu başa düşüb...

***

Dünyadan Azərbaycana qayıdaq. Xəzərdə baş verən qəzaların statistikası da yetərincə böyükdür. Bununla bağlı siyahı da müəyyənləşib. 1983-cü ildə "Azərbaycanın 60 illiyi" adlı suüstü buruq Xəzərin şərqində suya batıb. Qazaxıstanlı tədqiqatçıların bilgisinə görə, bu günə kimi orada 187 ton dizel yanacağı və 29 ton maşın yağı qalmaqdadır. Bundan başqa, orada başqa kimyəvi maddələr də var. Onların hamısı sudan çıxarılmasa, gec-tez Xəzərin şərq sahilləri zəhərlənmiş olacaq. Monitorinqlər zamanı bilinib ki, artıq onlar az miqdarda suya sızmağa başlayıb.

1985-ci ildə Qazaxıstanın "Tengiz" yataqlarının neft-qaz ehtiyatlarının kəşfi zamanı 1167 metr dərinlikdə qəza olub. Sonunda yer üzünə və suya neft və qaz axını baş vermişdir. Bundan başqa həm də böyük yanğın olub. Odun hündürlüyü 300 metr, eni isə 50 metrə qədər çatırdı. Orada temperatur 15000C qədər yüksəlmişdir. Odu 1 il ərzində söndürə bilmirdilər. Yanğını söndürmək üçün Sovetlər Birliyinin bütün gücləri cəlb olunmuşdu. O zaman insanlar da ölmüşdür. Sonda yeraltı nüvə partlayışı ilə yanğın söndürüldü. "Tengiz" qəzası zamanı havaya və suya 3,4 ton neft, 1,7 milliard kubmetr qaz, 850 ton merkaptan, 900 ton his çıxmış və tökülüb. Qazaxıstanın Atırau vilayətində xəstəliklərin sayı xeyli artmışdır.

**Daha bir qəza 2004-cü ildə baş verib. Qazaxıstan nefti ilə dolu "Merkuri-2" adlı Azərbaycan bərəsi batıb və indiyə qədər suyun 300 metr dərinliyində qalmaqdadır. Bərənin anbarında 1000 tona yaxın neft vardır və hər il ərzində dəniz suyu onun metalını aşılayır.**

❑ Sevinc TELMANQIZI




# "Bizim kino günləri" layihəsi başa çatıb

## Tədbirdə türkiyəli rejissorlar, ssenarist-yazarlar da iştirak edib

**Dekabrın 8-də Nizami Kino Mərkəzində Mədəniyyət və Turizm Nazirliyi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə keçirdiyi "Bizim kino günləri - Audiovizual məkanda peşəkarlıq" layihəsi başa çatıb.**

Musavat.com-un verdiyi xəbərə görə layihə "Azərbaycan həqiqətlərinin beynəlxalq audiovizual məkana inteqrasiyası mövzusu" ilə yekunlaşıb. Layihənin ənənəvi müzakirələrinin hədəfi "Azərbaycanfilm" kinostudiyasında çəkilən filmlərin beynəlxalq təqdimatı, Qarabağ həqiqətlərinin kino dili ilə, sosial şəbəkələr vasitəsilə dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında kinonun imkanları kimi əhəmiyyətli mövzular olub.

Tədbirdə kino ictimaiyyəti, layihənin final mərhələsində nümayiş olunacaq filmin yaradıcı heyəti və media nümayəndələri iştirak edib. Həmçinin, türk filmləri həftəsi çərçivəsində Bakıya gələn türkiyəli rejissorlar Osman Sınav və Öner Kılıç, ssenarist-yazar Kamuran Tümay Yıldız və digərləri tədbirə qatılıblar.

Tədbiri giriş sözü ilə "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov açıb. O, bir aya yaxın davam edən layihə çərçivəsində paytaxtın kinoteatrlarında yerli filmlərin nümayiş olunduğunu bildirib: "Audiovizual məkanda peşəkarlıq məsələsinə həsr olunan layihənin məqsədi peşəkar kino nümayəndələrini və onların çəkdikləri filmləri ictimaiyyətə tanıtmaqdır. Bu məsələdə media nümayəndələrinin üzərinə böyük vəzifə düşür. Media obyektiv təhlillərlə, qərəzsiz tənqidlərlə peşəkarları ictimaiyyətə tanıtmalı və gündəmdə saxlamalıdır.

Sovetlər Birliyi dövründən sonra Azərbaycanda kino sahəsində böhran yarandı. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" təsdiqləndikdən sonra bu proqramdan çıxış edərək çoxlu layihələr həyata keçirilib, gənc kinematoqrafçılar cəlb edilib. Məhz görülən işlərin nəticəsidir ki, "Nabat" filmi ilə ilk dəfə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bildi".

Müşfiq Hətəmov "Azərbaycanfilm" kinostudiyasının son fəaliyyəti barədə də məlumat verib: "Rusiya kinematoqrafçıları ilə birgə istehsal edilən "Qırmızı bağ" filmi gələn ilin fevral ayında təqdim ediləcək. Həmçinin Türkiyə kinematoqrafçıları ilə müştərək layihələr həyata keçirilməsi nəzərdə tutulub".

"Azərbaycanfilm" kinostudiyasının direktoru 2016-cı ildə beş yeni film çəkiləcəyini vurğulayıb.

Daha sonra rejissor Elçin Musaoğlunun "Nabat" filmi nümayiş olunub. Qeyd edək ki, film Qarabağ müharibəsi dövründə erməni qəsbkarlarının aramsız hücumlarına məruz qalan kəndini doğma torpağına olan bağlılığından tərk edə bilməyən məğrur Azərbaycan qadını obrazını yüksək bədii dillə ifadə edir. Film müharibədən bəhs etsə də döyüş səhnələri, ölüm-itimin olmadığı ekran əsəridir. Müharibə filmin kadr arxasındadır.

Film bitdikdən sonra rejissor Elçin Musaoğlu açıqlama verib. O, bildirib ki, filmdəki məqsədi ana obrazını ön plana çəkmək olub: "Dəfələrlə mənə sual veriblər ki, niyə Nabat olanlara fəryad etmir? Cavab olaraq bildirmişəm ki, Nabat zahirən fəryad etməsə də onun daxili fəryadını tamaşaçı görə, hiss edə bilir".

Tanınmış türkiyəli rejissor Osman Sınav da film barəsində öz fikirlərini səsləndirib. O, filmin çox şey dediyini, filmə baxarkən insanın ritmi dəyişdiyi, susdurduğunu bildirib.

Tədbirin sonunda filmin yaradıcı heyəti və media nümayəndələri arasında müzakirə aparılıb, jurnalistlərin cavablandırılıb.

**Xatırladaq ki, tədbir "Bizim kino günləri-Audiovizual məkanda peşəkarlıq" layihəsinin sonuncu-dördüncü mərhələsidir. Layihə çərçivəsində artıq "Audiovizual məkanda ailə-məişət problemləri", "Audiovizual məkanda uşaq mövzusu", "Audiovizual məkanda vətənpərvərlik mövzuları" müzakirə olunub və "Axınla aşağı", "Dərs", "Yarımçıq xatirələr" filmlərinə baxış keçirilib. Adı çəkilən filmlər Bakı kinoteatrlarda mütəmadi nümayiş olunub.**

❑ Xalidə Gəray

YENİ MÜSAVAT

Son səhifə

N 274 (6302) 9 dekabr 2015



# Nar qabığının faydaları

Nar qabığının altındakı yüzlərlə nar dənələri bizim səhhətimiz üçün faydalı olduğunu çoxlarımız bilirik. Bəs nar qabığının səhhətimiz üçün faydalarından məlumatımız var ? Nar şirəsi damar sağlamlığını və ürəyi qidalandırdığı bildirilir. Həmçinin nar şirəsi damar tutulması və qanda yaranan laxtalanmanın qarşısını almaqla bərabər qan təzyiqinin normallaşmasına da köməklik edir. Mütəxəssislər bildirirlər ki, nar yeyildikdən və ya şirəsi sıxıldıqdan sonra qabığını zibilə atılır. Çində son illər ərzində aparılan araşdırmalara görə, nar qabığının, suyuna görə daha çox vitaminlər ehtiva etdiyini bildirilir. Narın şirəsi sağlamlığımıza faydalı olduğu kimi narın qabığı da şirəsindən daha da vitaminlidir. Nar qabığının tərkibində olan ellagik turşusu xərçəngə qarşı qabaqlayıcı faydalara malikdir. Araşdırmalara görə, nar qabığı pis xassəli şişləri azaldır. Şirəsi orqanizmdə beta hüceyrələrini artıraraq diabet, ürək və damar xəstəlikləri üçün daha çox əhəmiyyətlidir. Nar qabığında olan ellagik turşusu, antioksidan, vərəmə qarşı daha faydalıdır. Araşdırmalara görə, döş, dəri, bağırsaq, prostat xərçənglərinə qarşı qoruyucu gücə malikdir. Nar qabığını qurutmaq qaydasına diqqət edilməlidir.

# Çaydan sərvət tapdı

Avstriyada yaşayan bir gənc Dabube çayından 100 min avro tapıb. Ölkə qaydalarına görə isə o bu pulun sadəcə 10 faizini ala bilər. "Oesterreich" qəzetinin məlumatlarına görə, gənc oğlan üzmək üçün çaya gəlib. Bir müddət sonra ətrafdakılar onun boğulduğunu düşünüblər. Ona görə də hadisə yerinə polis çağırıblar. Lakin polislər çay sahilinə gəldikləri zaman gəncin böyük bir çantada pul çıxardığını görüblər. Çantada içərisində 100 və 500 avrolardan ibarət 100 min avro olduğu məlum olub. Ölkə polisi Vyanada bu qədər yüksək miqdarda pul itmədiyini bildirib. Pulu tapan gənc onu polis şöbəsinə aparmaq istəməsə də, hər kəs ona pulun yalnız 10 faizinin ala biləcəyini deyib. Əgər pulun gerçək sahibi tapılmazsa, gənc oğlan pulun bir hissəsini ala biləcək.



# Dünyanın ən bahalı 15 fotosu

İnanmaq çətindir, amma bu fotoların hər biri sərvətdir. Milli.az dünyanın ən bahalı fotoşəkillərinin reytinqini təqdim edir.

1. Ansel Adams, "Ernandes şəhəri səmasında Ay, Nyu-Meksiko" - $609 600,
2. Robert Meppltorp, "Endi Uorhollun portreti" - $643 200
3. Ejen Atje, "Küçə musiqiçisi" - $686 500
4. Ceff Uoll, "Çözmə" - $780 000
5. Edvard Ueston, "Nautilus" - $1082500
6. Riçard Avedon, "Dovimavə fillər" - $1151976
7. Riçard Prins, "Adsız (Kovboy)" - $1248000
8. Alfred Stiqlis, "Corciya O-Kif, əllər", 919 - $1470000
9. Edvard Ugston, "Çılpaq" - $1609000
10. Naməlum fotoqraf, "Billi Kid" - $1609000
11. Sindi Şerman, "Adsız #153" - $2700000
12. Edvard Stayhe, "Ay işığında göl" - $2928000
13. Ceff Uolll, "Ölü döyüşçülər danışır" - $3666500
14. Sindi Şerman, "Adsız #96" - $3890500
15. Andreas Qurski, "Reyn 2" - $4338500





# Açıldığı zaman söyən çanta

Şotlandiya yaşayan üç tələbə sahibini az pul xərcləməyə yönləndirmək üçün yeni əl çantası hazırlayıb. Çantada olan kredit kartı yerindən götürüldüyü zaman "ağlından belə keçirmə", "bir az çox xərclədin", "yenə mi?" deyə cümlələr qurur. Kredit kartı bir müddət sonra yerinə qoyulmazsa, çanta çox pul xərclədiyini anlayacaq və hər kəsin içərisində sahibinə söyüş söyəcək. Duncan of Jordanstone Akademiyasının tələbələri tərəfindən hazırlanan çanta kart yerinə qoyulduğu zaman "məni dinləyəcəyini bilirdim" deyə, sahibinə təşəkkür edir. Həm kişilər, həm də qadınlar üçün nəzərdə tutulan çantanın kredit kartı yerində sensor yerləşir. Rebecce Smit adlı tələbə "çantanı dəyişiklik və insanlar arasında maraqlı dialoqların olması üçün hazırladıq" deyə, açıqlama verib.

# Qoroskop




**QOÇ** - Kifayət qədər uğurlu gündür. Planlarınızın əksəriyyəti müsbət müstəviyə yaxınlaşacaq. İşlə bağlı əsaslı dönüşə nail olmaq istəyirsinizsə, nüfuzlu şəxslərlə əlaqələri dərinləşdirin.

**BUĞA** - Ulduzların düzümü gün ərzində ovqatınızın xoş olacağını bildirir. Əgər vaxt tapıb müqəddəs ziyarətgahlara baş çəksəniz, daxili sıxıntılarınız da səngiyəcək. Sevgiyə laqeyd qalmayın.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz hadisələri özünüzdən yaxşı analiz edən yoxdur. Deməli, gün ərzində külli-ixtiyar öz əlinizdə olacaq. Ulduzlar əksər sahələrdə müdafiənizdə duracaq.

**XƏRÇƏNG** - Təxminən saat 15-ə qədər gərginliklə baş-başa qalacaqsınız. Ola bilsin ki, ünsiyyətdə olduğunuz bəzi şəxslərlə mübahisələrə də cəlb olunasınız. Bu səbəbdən "qatığa ağ deməyə" çalışın.

**ŞİR** - Yaxşı olar ki, bütün vaxtınızı adi işlərin həllinə yönəldəsiniz. Hər hansı risk və ya yeni iş uğursuzluqla nəticələnəcək. Pul sövdələşmələrindən isə ümumiyyətlə kənar durun.

**QIZ** - İşgüzar sövdələşmələr üçün ideal vaxtdır. Çalışın ki, müsahiblərinizin ədalətli rəyi ilə hesablaşasınız. Yalnız bu halda perspektivli gələcək barədə düşünməyə dəyər.

**TƏRƏZİ** - Müəyyən məsələlərdə özünüzü aldatmayın. Sözlə deyil, əməllərinizlə özünüzə qarşı rəğbət oyadın. Göy qübbəsi bu gün qarşınıza yeni və xeyirxah adamlar çıxaracağını bildirir.

**ƏQRƏB** - Lovğalıq, özündənrazılıq və hər şeyə qərəzli yanaşmaq sizə başucalığı gətirən deyil. Odur ki, ətrafda olanlarla mülayim və səmimi davranmağa çalışın. Axşama yaxın sevinəcəksiniz.

**OXATAN** - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər fəaliyyətdə, istər qarşılıqlı münasibətlərdə, istərsə də məhəbbət müstəvisində işləriniz qənaətbəxş olacaq. Özünüzə inanın.

**OĞLAQ** - Hiss olunur ki, insanlar yavaş-yavaş sizi başa düşməyə meyl edir. Deməli, daxilinizi narahat edən ideyaları açıqlamaq olar. Bu gün yalnız Tanrıya xoş gedən hərəkətlər edin.

**SUTÖKƏN** - Əsas devizimiz müqəddəs Avestada göstərilən "Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl" olmalıdır. Gün ərzində Ali Həqiqətə çatmaq üçün məhz bu üç prinsipə söykənməlisiniz.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimdə mübahisəli situasiyalara cəlb olunacağınıza işarə edir. Özünüzü qoruyun, çılğınlığınızı cilovlayın. Saat 16-dan sonranı isə bütünlüklə sevgiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən çox xəyanət edən ölkə



Danimarkanın Statistika İdarəsində aparılan araşdırmalar nəticəsində məlum olub ki, ölkə ailə aldatması sahəsində dünyada ikinci yeri tutur. Əhalisinin 56 faizi həyat yoldaşını aldatdığı Tailand isə bu sırada birincidir. Almaniya əhalisi isə aldatma siyahısında üçüncü sıradadır. Almanların isə 45 faizi həyat yoldaşlarını aldadır. Statistika idarəsi araşdırmanı apararkən tanışlıq saytlarına, sosial mediaya, araşdırma institutlarına da istinad edib. Dörd il əvvəl Vilke adlı təşkilat danimarkalıların həyat yoldaşlarını aldadanlar sırasında üçüncü xalq olduğunu açıqlamışdı. 2013-cü ildə isə Danimarka bu sırada Avropada birinci idi.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300